

“Avand” MTK-nın ağır texnikaları İTV əməkdaşlarının “nervi”sini də pozub

Səh: 5-də



YAP üzvü, deputat Elşad Mirbəşiroğlu Rusiyanın agenturasına necə sığınıb?

Səh: 6-də



Prezidentin etimadına sədaqət andı...

Səh: 12-də

Azərbaycan Qarabağ - Qarabağ Azərbaycandır!


www.tezadlar.az

# TƏZADLAR

tezadlar@gmail.com





№05 (2393) * 16 sentyabr 2025-ci il * İctimai-siyasi hüquq qəzeti * Qəzet 1993-cü ildən çıxır * Qiyməti 50 qəpik

# Üzeyir bəyin ölümündə günahkar kim idi?






*“Deyirdim ki, vətəndaşlığı qəbul edib burada yaşayın, sizə söz deyən olmayacaq”*

Bax səhifə 2

## AYNA Bakını parklama, velosiped və skuter şəhəri etmək istəyir...

Bax səh.2

Bu, qəsddir: “Ağdamlılar hara baxır axı...” ✓3

Qərbi Azərbaycan İcması (TV) nə demək istəyir? ✓4

Ölkədə estetik əməliyyat: dodağı şişən, burnu əyilən... xanımların sayı artır! ✓5

Qubada təbiətin məhvinə yönələn ekoloji terror... ✓6

Xətai rayonunda sakinlərə zülm yaşadan tikinti şirkətindən DİN-ə və PA-ya şikayət edildi ✓7

Azərbaycana gətirilən zəhərli ərzaqlar və dərmanlar - SOS ✓10



Səidə Bəkirqızı kin və küdurətinin qurbanı oldu...

Bax səhifə 5



Səttar Mehbalıyevin 19 illik Həmkarlar İttifaqları Konfederasiyası nə işə yarayır?

Bax səhifə 15

## “Ay mal alan, gəl bəri”

Xaricdə attestatla universitetlərə qəbul çağırışları başlayıb... ✓11



Suraxanıda özü məlum olan telefon və pul oğrusu niyə tapılmır? ✓3




İş elanı yalanları və fırıldaqları ✓4



# Prezident qəbul keçirdi

**Azərbaycan Prezidenti İlham Əliyev sentyabrın 15-də Şuşada ICESCO-nun Baş direktoru Salim bin Məhəmməd əl-Malikini qəbul edib.**

Bu barədə Prezidentin Mətbuat Xidməti məlumat yayıb.

# “Deyirdim ki, vətəndaşlığı qəbul edib burada yaşayın, sizə söz deyən olmayacaq”

**“Əlbəttə ki, bütün dünya bu gün Azərbaycan haqqında danışır. Öz doğma torpağı uğrunda Azərbaycan qədər vuruşan, döyüşən, qan tökən, şəhid verən və qalib gələn ikinci ölkə yoxdur. Nə vaxtsa olar, olar, olmaz, olmaz. Qələbəmizi təmin edən xalqımızın iradəsidir, xalqımızın öz doğma torpağına olan bağlılığıdır, bizim müştərək iradəmizdir, bizim döyüşkən xasiyyətimizdir. Eyni zamanda, necə ki, döyüş meydanında düşməni məğlub etdik, onu kapitulyasiya aktını imzalamağa məcbur etdik, eyni qayda ilə sülhə də yol açdıq ki, bundan sonra heç vaxt müharibə olmasın”.**

Bu sözləri **Azərbaycan Prezidenti İlham Əliyev** Xocalı rayonunun Badara kəndində Badara, Daşbulaq, Seyidbəyli və Şuşakənd kəndlərinin sakinləri ilə görüşündə deyib.

“Biz heç vaxt müharibə istəməmişik və mən 17 il Ermənistan rəhbərləri ilə danışıqlar aparmışam. Onları inandırmağa çalışmışam ki, əgər siz öz xoşunuzla torpağımızdan çıxmasanız, müharibə qaçılmazdır. Amma onlar hesab edirdilər ki, bu olmayacaq. Hesab edirdilər ki, onların arxasında duran böyük dövlətlər, güclər, onlara silah verən, pul verən, siyasi dəstək verən onları hər dəfə, hər zaman qoruyacaq. Amma bizim iradəmizi düzgün hesablaya bilməmişdilər. Amma mən dəfələrlə onlara demişdim ki, öz xoşunuzla çıxın. Hətta İkinci Qarabağ müharibəsindən sonra artıq bizim şanlı Zəfərimizdən sonra, Şuşanın azad olunmasından sonra onlara deyirdim ki, Azərbaycanda separatçılığa yer yoxdur. Gəlin Azərbaycan qanunlarına tabe olun, gəlin Azərbaycan vətəndaşlığını qəbul edin və burada yaşayın, sizə söz deyən olmayacaq. Yenə də bizə qarşı həm hərbi təxribatlar, həm siyasi təxribatlar, yekəxanalıq və faktiki olaraq, mənfi münasibət özünü göstərdi. Ona görə 19-20 sentyabr antiterror əməliyyatı onlara dərs oldu və hamıya dərs oldu”, - dövlət başçısı əlavə edib.

Prezident bildirib ki, cəmi bir neçə saat davam edən hərbi əməliyyat separatçıların kökünü kəsdi və onların ümid bağladıqları



yerlər də səssiz qaldı: “Çünki Azərbaycan Ordusu qarşısında heç kim dura bilməzdi, Azərbaycan xalqı qarşısında heç kim dura bilməzdi, ona görə ki, biz haqlıyıq. Bu gün haqlı olduğumuzu bir daha burada sübut edirik. Onlar şəhər və kəndlərimizi yerləyeksan etmişdilər, biz isə qurub-yaradırıq. Bütün Qarabağ, bütün Şərqi Zəngəzur tikinti meydançasıdır. Qısa müddət ərzində bu gözəl evlərin bərpası, tikintisi, bütün infrastrukturun yaradılması bizim gücümüzü, niyyətimizi göstərir. Əsas odur ki, bütün siyasi addımlarımızın mərkəzində Azərbaycan vətəndaşı dayanır. Siz - Azərbaycan vətəndaşları, erməni işğalından əziyyət çəkən Qarabağ bölgəsinin sakinləri bu gün ən gözəl şəraitə layiqsiniz. Mən sizi təbrik edirəm, sizə xoşbəxt həyat arzulayıram və biz burada əbədi yaşayacağıq”.



# Türkiyənin Baş Qərargah rəisi Azərbaycandadır

**Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Selçuk Bayraktaroğlu ölkəmizdə səfərdədir.**

Azərbaycanın müdafiə naziri general-polkovnik Zakir Həsənov müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyevin dəvəti ilə ölkəmizdə səfərdə olan Selçuk Bayraktaroğlunu və onun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

Müdafiə Nazirliyində keçirilən görüşdə general-polkovnik Z.Həsənov onları ölkəmizdə görməkdən məmnun olduğunu bildirib.

Azərbaycan və Türkiyə arasında dərin tarixi köklərə, ortaq dəyərlərə və qarşılıqlı etimada əsaslanan əlaqələrin hər iki qardaş ölkənin dövlət başçılarının dostluq münasibətləri nəticəsində daha da inkişaf etdiyini qeyd edib. Türkiyənin hər zaman ölkəmizə dəstəyini yüksək qiymətləndirən nazir 15 sentyabr - Bakının daşnak-bolşevik işğalından azad edilməsi gününün xalqımız üçün tarixi əhəmiyyətinə toxunub.

Müdafiə naziri ordu generalı S.Bayraktaroğlunu Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi vəzifəsinə təyin olunması münasibətilə təbrik edib.

Ordu generalı S.Bayraktaroğlu öz növbəsində səmimi qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. Qarşılıqlı etimad və dostluğa dayanan münasibətlərimizin inkişaf etdirilməsində bu cür səfərlərin və keçirilən görüşlərin müsbət töhfələr verdiyini qeyd edib.

Səfər çərçivəsində hər iki ölkənin Baş Qərargah rəisləri arasında görüş keçirilib. Görüşdə Azərbaycan Ordusunda tətbiq edilən yeniliklərdən danışan general-polkovnik K.Vəliyev ölkələrimiz arasında mövcud hərbi əməkdaşlığın daha da inkişaf etdirilməsi üçün bütün imkanların mövcud olduğunu vurğulayıb.

Tərəflər hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın cari vəziyyəti və daha da genişləndirilməsinə dair ətraflı fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

Keçirilən görüşlərdə hərbi əməkdaşlığın yeni perspektivləri, regional təhlükəsizlik və maraq doğuran digər məsələlər ətrafında müzakirələr aparılıb.



# Paşinyan Zəngəzur dəhlizinin əhəmiyyətindən danışdı

**Ermənistanın Baş naziri Nikol Paşinyan “Tramp marşrutu”nun (Zəngəzur dəhlizi) əhəmiyyətini şərh edib.**

Paşinyan bu barədə İrəvanda keçirilən “Hərtərəfli təhlükəsizlik və dayanıqlılıq - 2025” adlı beynəlxalq konfransda danışıb.

“Gəlin Ermənistan ərazisindən keçən boru kəməri təsəvvür edək. Onun hara getdiyi əhəmiyyət daşımır. Bu, Ermənistanla Azərbaycan arasında sülh amilidirmi? Əlbəttə ki, bu, amildir. Bu amilin olmaması isə problem yaradır. Müvafiq olaraq, “Tramp marşrutu” bu cür amillərdən biridir. Bəs təhlükəsizlik zəmanəti varmı? Bəli, belə bir zəmanət var və bu, sülhdür. Sülhdən başqa digər heç bir təhlükəsizlik zəmanəti ola bilməz. Lakin sülh gündəlik diqqət tələb edir, ona etinasızlıqla yanaşmaq olmaz”, - Paşinyan bildirib.

# Emin Əmrullayev Bilik Günündə Şuşa və Xıdırlı məktəblərində olub

**Sentyabrın 15-i Şuşa şəhəri 1 nömrəli tam orta məktəbdə Bilik Gününə həsr olunmuş tədbir keçirilib.**



Tədbirdə Şuşa rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Aydın Kərimov, elm və təhsil naziri Emin Əmrullayev, Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsinin direktoru Tural Novruzov, Qarabağ Regional Təhsil İdarəsinin müdiri Sənan Mənsimli, şəhid ailələrinin üzvləri, məktəb kollektivi, şagirdlər və valideynlər iştirak ediblər.

Tədbir Dövlət himninin səsləndirilməsi və şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin direktoru Səbinə Gözəlova giriş nitqi ilə çıxış edərək müəllim və şagirdləri yeni dərs ili münasibətilə təbrik edib, məktəbin 227 şagirdlə yeni tədris ilinə başladığını bildirib.

Emin Əmrullayev çıxışında məktəbin qədim tarixi və rəmzi əhəmiyyətinə toxunaraq müəllim və şagirdlərin üzərinə düşən məsuliyyəti qeyd edib. Nazir bildirib ki, məktəb yalnız biliklərin ötürülməsi deyil, həm də vətənpərvərlik, milli dəyərlərə hörmət formalaşdıran mühitdir.

E.Əmrullayev çıxışının sonunda müəllim və şagird heyətinə uğurlar arzulayıb, təhsil sahəsində islahatların davam etdiriləcəyini diqqətə çatdırıb.

Aydın Kərimov çıxış edərək məktəb kollektivini və şagirdləri yeni dərs ilinin başlanması münasibətilə təbrik edib, Şuşada bərpa olunan təhsil infrastrukturunun önəmini vurğulayıb.

Tədbir məktəblilərin hazırladığı bədii hissə ilə davam etdirilib.



# “Hazırda onların maaşı 550-575 manat arasındadır”

**Milli Məclisdə həkimlərin və rezidentlərin aylıq maaşı müzakirə olunub.**

Bu barədə Milli Məclisin Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev Səhiyyə komitəsinin bu gün keçirilən iclasında danışıb.

**“Nazirlər Kabinetinin 2024-cü il 6 sentyabr tarixli qərarı ilə hər bir təhsil alan rezidentə düşən illik vəsait 5600 manatdan 8600-ə qaldırılıb. Onların aylıq vəzifə maaşı həkimlərin tarif maaşına bərabərdir. Hazırda 550-575 manat arasındadır. Bu da onların dərəcələrinə görə dəyişir. Bildiyiniz kimi, həkimlərin də tarif maaşı 550-700 manat arasındadır”**, - deyə şöbə müdiri bildirib.

# Almaniyanın əks-kəşfiyyatına Türkiyə əsilli şəxs rəhbərlik edəcək

**Almaniyanın Konstitusiyanın Mühafizəsi üzrə Federal İdarəsinin (əks-kəşfiyyat) rəhbəri vəzifəsinə Türkiyə əsilli Sinan Selen təyin ediləcək.**

Bu barədə məlumatı Almaniya parlamentinin (Bundestaq) deputatlarına istinadən “Bild” qəzeti yayıb.

Bildirilib ki, S.Selen 1972-ci ildə İstanbulda doğulub, 4 yaşı olduqda ailəsi ilə birlikdə Almaniyaya köçüb. Köln universitetində hüquq sahəsində təhsil alan Selen Almaniya XİN-də hüquqşünas işləyib. 2019-cu ildə isə əks-kəşfiyyat rəhbərinin müavini təyin olunub. Məqalə müəllifləri onun bir neçə il əvvəl Türkiyə vətəndaşlığından imtina etdiyini yazıblar. Həmçinin qeyd olunub ki, Almaniya əks-kəşfiyyatının bundan əvvəlki rəhbəri Tomas Haldenvanq



2024-cü ilin sonunda Bundestaqa keçirilən seçkilərdə iştirak etmək üçün postunu tərk edib. Həmin dövrdən bu yana qurumun rəhbəri vəzifəsi boş olaraq qalıb. Bununla belə, Haldenvinq seçkilərdə məğlub olub və parlamentə seçilə bilməyib.

# Çağırışa gedən təcili yardım maşını palçığa batdı

**Bakıda çağırışa gedən təcili tibbi yardım avtomobili palçıqlı yolda qalıb.**

Bu barədə görüntülər sosial şəbəkələrdə yayılıb. Palçığa batdığı üçün yolda qalan maşındakı həkim yoluna piyada davam etməli olub.

Yolun son günlər yağan intensiv yağışlardan sonra bu vəziyyətə düşdüyü bildirilir.



# AYNA Bakını parklama, velosiped və skuter şəhəri etmək istəyir...

**Bakı şəhərində “Avropa Mobillik Həftəsi” çərçivəsində sentyabrın 16-22-də davamlı hərəkətliliyə yönələn tədbirlər və “Avtomobilsiz Gün” keçiriləcək. Yerüstü Nəqliyyat Agentliyindən verilən məlumata görə, tədbirlər çərçivəsində mikromobillik və piyada zolaqlarının təhlükəsizliyi yoxlanılacaq, yeniyetmə və tələbələrə təhlükəsiz skuter sürmə təlimi keçiriləcək, veloyürüş təşkil olunacaq.**

Bundan başqa, orta və ali təhsil müəssisələrində interaktiv maarifləndirmə sessiyaları keçiriləcək. Uşaqlar üçün avtobusla şəhər turu təşkil olunacaq. Məqsəd yol hərəkəti və yol nişanlarının izah olunmasıdır. Sentyabrın 21-də isə Məhəmməd Naxçıvani küçəsində “Avtomobilsiz gün” təşkil olunacaq. Mikromobillik zonasında operatorlar tərəfindən müxtəlif növ velosiped və skuterlər nümayiş etdiriləcək, əhali üçün test sürüşləri və təlimlər keçiriləcək. Yaradıcılıq zonasında “Nəqliyyat və ətraf mühit” mövzusunda keçirilən rəsm müsabiqəsi qaliblərinin işləri sərgilənəcək. Asfalt üzərində uşaqların rəsm çəkmək bacarıqları yoxlanılacaq. Hər kəs bu tədbirlərə dəvətlidir.



***

Bakıda ilin 6-7 ayı külək və yağış, hərdən də qar hakimdir... Əsl velosiped və skuter üçün əlverişli havalı şəhər! Dünən yağış yağanda Bakıda bütün küçələrdə üzərinə AYNA yazılmış on minlərlə skuter və velosipedçi var idi. Onların hamısının başı üzərində xüsusi çətir də var idi... Hazırda küləkdən və toz-torpaqdan qorunmaq üçün xüsusi geyimlər də Amerikadan sifariş verilib... Yaponlar isə velosipedi və skuteri külək və yağışdan qorumaq üçün Bakıda süni günəş yaradan təyyarələri göndərəcək... Ümumiyyətlə, Bakı velosiped və parkovkalar üçün bağlı şəhər elan edilsə, əla olar...

“Təzadlar”

# Bu, qəsddir: "Ağdamlılar hara baxır axı..."

*Bir-iki neqativ fakta görə məcburi köçkünlərin - və hansısa təcavüz faktına görə bir az da konkretləşdirilərək, küll halda ağdamlıların - adını hallandırmaqda məqsəd nədir?*

**Hər şeydən öncə "35 ildir evi zəbt edən" 2-3 məcburi köçkünün qeyri-adekvat cavabından başlayaq: Bu ölkənin 1 milyona yaxın qaçqını və məcburi köçkünü olub. Bir milyon adamın içindən 2, 3, 5, hətta min nəfər həyasız çıxmamalıdır? Min nəfər bir milyonun 0,1 faizi də etmir. Məgər "xalq" anlayışı hamısı mərd, məğrur, ləyaqətli kişi-qadınlardan ibarətdir? Bunun cinsi azlığı var, vətən satanı, xəyanət edəni, baştutanı, fahişəsi, qatili, anasının əmcəyini kəsəni... var və bunların əhalinin ümumi sayında bir neçə faiz olması kimi təəccübləndirir ki?**

Ancaq bir xalqın içində cinsi azlıqlar 1-2 faiz təşkil edəndə o xalqa toplu halda "gey xalq" deyilmədiyi kimi, 1-2 faizə görə həyasız deyilib, aşağılanma da olmaz (əlbəttə ki, yalnız və yalnız ermənilərdən başqa, onlardan bu "faiz" 100-dür).

Bu baxımdan 1-2 fakta görə 700 mindən çox məcburi köçkünü, 250 mindən çox qaçqını hədəfə gətirmək nə deməkdir?

Hansısa təcavüz faktına görə ağdamlıları xüsusi vurğulayanlar Fred Asifdən, Allahverdi Bağırovdan heçmi utanmırlar? Məsələ onların milli qəhrəmanlığında deyil, həm də mərdlik, qeyrət, kişilik simvolu olmalarındadır, fikirləri, düşüncələri, ürəkləri, canları, malları ilə yurd və vətən üçün mümkünsüzləri həyata keçirmələrindədir!

Bu ölkəyə Xudu Məmmədovu bəxş edən bir yerdu necə aşağılamaq olar axı?

***

Ağdamlıların kim olduğunu bəlkə də yeni nəsil - "Z"dən "Alfa"ya qədər - anlamaya bilər, ancaq 80-ci illərin sonunu yaşayanlar bilir ağdamlılar kimdir! Bakıda bilirsinizmi hansı ab-hava vardı?

- Ermənilər Topxana meşəsini doğrayır; bəs, ağdamlılar hara baxır?

- Ermənilər azğınlaşıb, Xankəndidə meydan sulayırlar, azərbaycanlılara qarşı qətliama başlayıblar; bəs, ağdamlılar hara baxır?..

"Ağdamlılar hara baxır?" - 80-ci illərin sonunda bütün Azərbaycanda bir güvəncin, ağdamlılara əminliyin ifadəsi idi: Ağdam Qarabağa nəzarət idi, güc idi, vüqar idi, şərəf idi...

Ağdamlılar Xankəndiyə gələndə ermənilər evlərindən çıxmağa cəsarət etmirdilər!

Ağdamlılar gələndə ermənilər yerin sahibi gəldiyini dərhal qanırdılar!

Ağdam keçmiş Dağlıq Qarabağın tən ortasına yönəli coğrafi mövqeyi, keçmiş DQ-nin əhalisindən az qala ikiqat çox sakini, üstəlik, varı-halı, dövləti, imkanı, vuran qolu, məşhur sənətçiləri, alimi, ziyalısı ilə o qara günlərdə, Qarabağın qaralmış səmasında hər mənada Ağ Dam idi!

Azərbaycanlıların qətliamlarına qarşı ilk toparlanan da Ağdam oldu!

"Ağdam niyə işğal olundu"nu hamı yaxşı bilir - daxildə xarici kəşfiyyatın fitnə-fəsadı, cəbhədə ov tüfəngləri belə əlindən alınan igidlərin son model rus texnikası ilə üz-üzə qalması!



Çox ağır günlər yaşadıq: az qala hər gün Qarabağdan köçkün gəlirdi, onları yerləşdirməyə yer belə yox idi; tələbə yataqxanaları, yarımçıq tikililər, tikilib başa çatan, orderi verilən, ancaq hələ məskunlaşma olmayan binalar bir anda məcburi köçkünlərlə doldu.

7 milyon xalq üçün bir milyon qaçqın-köçkünün nə demək olduğunu təsəvvür edəndə belə adam dəhşətə gəlir! Binalar, şəhərlər bu yükü qaldırmadı - qaldıra bilməzdi də; boz düzlərdə çadır şəhərcikləri quruldu...

Köhnə, yük yerinə yorğan-döşək çatılan Qaz-51, Qaz-52-lər Bakının girişinə qədər yol kənarında onkilometrlərlə düzülmüşdülər, həftələrlə, aylarla donub oradaca qaldılar: o maşınlarda yatıb-duranlar, o maşınların altında nahar edənlər, o yol qırağında aylarla yaşayanlar vardı...

Vaqonlara sığınanlar, relslər üzərində can çəkişənlər vardı...

Bu çətinliklərə ölkənin yenicə müstəqilliyini elan etməsini də əlavə edək: köhnə sistem dağılıb, iqtisadi əlaqələr məhv olub, yeniləri isə hələ qurulmayıb...

Ölkə son dərəcə ağır durumda, üstəlik, elan olunmamış müharibə aparır - ermənilər rusların yardımı və birbaşa iştirakı ilə torpaqlarımızı işğal edir...

Bu dəhşətin içində talelər məhv olurdu - yurdu işğal edilənlər və orderini aldığı, illərlə xəyalını qurduğu evinə köçə bilməyənlər.

90-cı illərdə ciddi narazılıqlar da vardı, məhkəmə çəkişmələri də olurdu; qərar verildi ki, qaçqın-köçkünlər sığındığı yerlərdən çıxarılmasın, işğal bitənə və yaxud onlar evlə təmin olunana qədər. Kimin ağlına gələrdi ki, işğal 30 il çəkəcək!

Onillər keçəndən, Qarabağ azad ediləndən və azad edilən torpaqlarda böyük tikinti başlayandan sonra 1-2 fakt tapıb, bunu köçkünlərin sığındığı evlərdən çıxmaması kimi cəmiyyətə təqdim edib, kampaniya aparmağın adı nədir?

Bu gün bilirsinizmi nə gördüm? Kəlbəcərə köç olacağını bilən kəlbəcərli ana aylardır Tərtərə gedib ki, köçürüləndə evinə 3-4 saat daha tez çatsın!

Dünən bilirsinizmi nə qarşıma çıxdı? Laçından olan bir ana 5 aydır dağılmış yurdunda çadır qurub yaşayır - heç evinin bərpa olunmasını belə gözləməyib...

Sumqayıtda birinin həyasızlıq edib, evdən çıxmadığını tirajlayanlar və bunun üzərinə keçmiş məcburi köçkünləri təhqir etməyi öz vicdanlarına sığışdıranlar bu laçınlı, kəlbəcərli anadan heçmi xəcalət çəkmir?

"Getmirlər", "Gedənlər də evi bağlayıb, geri qayıdır" deyə hay-küy salanlar köç, bir yurda yerləşmək prosesindən xəbərdardırlarmı?

Bu insanlar 35 ildir yurddan ayrılıb; ermənilərin işğal etdiyi ərazi 17 min kv.km-ya yaxın idi. Bu, bilirsiniz nə deməkdir?

Məsələn, bir rayon mərkəzi bərpa edilir, 3-4 bina tikilir və ora ilkin köç başlayır: hələ məktəbdə şagirdlər tam yerləşməyib, köçənlərin sayı barmaq hesabıdır; hələ qonşuluqda kimsə, yaxın 10-15 km radiusda bir ins-cins yoxdur; hələ köçürüldüyün yerdə belə "genələ-genələ" gəzə də bilməzsən - əksər ərazilər lentlənib, mina təhlükəsi var; hələ qonşu kənddə toy, yas, ad günü mərasimləri yoxdur; hələ darıxıb məhəlləyə düşəndə oturmağa çayxana, dərdləşməyə çevrə yoxdur; hələ gecə 10-da həyətə düşüb, çörək almaq fürsətin də tam deyil - mağaza 20-30 adama qulluq edirsə, qaranlıq düşməmiş bağlanır və ilaxır...

Hələ iş yerləri, bağ-bağat, əkin-biçin tamamlanmayıb...

Köçürülən insanın tez-tez "üzü bəri" gəlməsini niyə anlayışla qarşılamırsınız ki?

Artıq "üzü bəri" deyil, üzü Xankəndiyə doğru tez-tez getdiklərini də görürük - çünki köçürülmə artır!

2026-cı ilin sonuna qədər azad edilmiş ərazilərə 140 min insanın köçürüləcəyi anons edilib - vaxtilə məcburən köçürülən 700 mindən çox insanın, yəni indiki artımla aşağı-yuxarı 1.300.000 civarında olan əhalinin 10%-i!

Ümumi əhalinin 10%-nin məskunlaşdırılması belə çox azdır, ancaq 140 min - ilkin yaşam üçün, ünsiyyət, kommunikasiya üçün, ölünə molla, ad gününə müğənni tapmaq üçün bəlkə də mümkün rəqəmdir - o da baxır, yerləşmənin arealına.

Yəni yüzillərlə tikilən, məskunlaşılan yurd 35 ildə tamamilə dağıdılıb, talanıb, səhralığa çevrilib - yenidən məskunlaşma və qayıdışı doğrudanmı 1-2 ilə təsəvvür edirsiniz?

Yəni 35 il dözüb, 5-6 il dözə bilmirsiniz?

Əlbəttə ki, heç bir problem yoxdur - dözərsiniz, çünki 35 ildə yeni reallıqlara uyğunlaşmışdınız.

Demək ki, indiki "dözümsüzlüyü" aşılayan və cəmiyyəti parçalayan görüntülər məqsədlidir: bu, birmənalı olaraq qəsddir; bu oyunu kim oynayır, hansı məqsədlə və hədəfi nədir, kimdən sifariş alır - araşdırılsa, pis olmaz!

Bu təbliğatı bilmədən aparanların hansı böyük oyunun içinə girdiyini anlaması da pis olmazdı!

30 il dözüb, Böyük Qələbə qazanıb, sərhədlərini bərpa edib, dünyada görünməyən səviyyədə tikinti-quruculuq işi aparan və bütün resurslarını Böyük Qayıdışa kökləyən, Naxçıvana yol açan bir xalq-dövlət-millətin üstünə iki qotura görə tənə yağdırıla bilməz!

Bunu qəsdən edənlər mütləq ifşa olunacaq, küyə gedənlər və manipulyasiyaya düşənlər isə ayılsa yaxşıdır!

**Şeyx Teymur**

# AMB 3 kredit ittifaqına icrası məcburi göstəriş verdi




**Azərbaycan Mərkəzi Bankı (AMB) "Ləman", "Stimul" və "İnci Kredo" kredit ittifaqlarına icrası məcburi göstəriş verib.**

Bu barədə AMB-yə istinadən xəbər verir. Məlumata görə, adı çəkilən kredit ittifaqları 2024-cü ilin kənar auditor tərəfindən yoxlanılmış maliyyə hesabatlarını təqdim etmədiyindən, "Kredit ittifaqları haqqında" Azərbaycan Respublikasının Qanununun 17.3-cü maddəsinin tələbi təmin edilməmişdir. "Kredit ittifaqına bank əməliyyatının həyata keçirilməsi üçün lisenziya verilməsi Qaydası"nın 4.4.4-cü yarımbəndinin tələblərini rəhbər tutaraq, "İnci Kredo" Kredit İttifaqı Məhdud Məsuliyyətli Cəmiyyətinə, "Ləman" Məhdud Məsuliyyətli Kredit İttifaqına və "Stimul" Kredit ittifaqı Məhdud Məsuliyyətli Cəmiyyətinə 2024-cü ilin maliyyə hesabatlarının kənar auditor tərəfindən yoxlanılması və təsdiqedici sənədlər əlavə edilməklə Azərbaycan Respublikasının Mərkəzi Bankına rəsmi məlumat verilməsi tələb olunub.



# Suraxanıda özü məlum olan telefon və pul oğrusu niyə tapılmır?

*Bakıda 1800 manatlıq telefon və 3 min 500 manat nəğd pul iş yerində oğurlandı: zərərçəkən polisi laqeydlikdə ittiham edir...*

**Bakının Suraxanı rayonunda, necə deyərlər, hamının gözü qarşısında oğurluq hadisəsi baş verib. Belə ki, Bakı şəhər sakini Kənan Abdullayev "Təzadlar"a şikayətində bildirir ki, iş axtaran Elgün Məhərrəmovu müvəqqəti olaraq yanında işləməyə götürüb. Lakin onun etimadını qazanan gənc "işçi" ilk fürsətdə sahibini aldadaraq həm 1800 manatlıq telefonunu, həm də bank kartından 3 500 manat pulu aparıb. Hadisədən dərhal sonra polisə müraciət edilsə də, iki ay keçməsinə baxmayaraq oğrunun hələ də tapılmaması zərərçəkənin narazılığına səbəb olub.**

Zərərçəkən Kənan Cəmil oğlu Abdullayev hadisəni belə izah edir:

-İşləmək istəyən Elgün Əli oğlu Məhərrəmovu sınaq müddətinə müvəqqəti işçi kimi qəbul etdim. Oğurluq hadisəsi də 2025-si ilin 20 iyulunda, səhər saat 10:15 radələrində Suraxanı rayonunda, Duzlu göldə yerləşən "Maşallah" kafesində baş verdi...

***

Kənan Abdullayev deyib ki, Elgün qısa zamanda özünü mehriban və səmimi göstərərək, etimadını qazanıb: "Telefonla danışmaq üçün məndən mobil telefonumu istədi. Mən də verdim. Həmin vaxt müştəri gəlib çay istədi. Çayı verib arxaya döndüm və gördüm ki, Elgün yoxdur. 1800 manatlıq telefonumu götürüb qaçıb. Üstəlik, telefonun 1Bank-ında olan 3 min 500 manat pul da çıxardıb".

Zərərçəkən hadisə baş verən andaca dərhal DİN-nin "102" qaynar xəttinə zəng etdiyini bildirir: "Suraxanı rayonunun 30-cu Polis Bölməsinin əməkdaşları gəlib izahatımı aldılar. Artıq iki aydan çox vaxt keçib, amma hələ də E.Məhərrəmovu tapa bilmirlər. Halbuki adını, soyadını, hətta fotosunu və videosunu da təqdim etmişəm. Tapa bilmirlər ki, bilmirlər... Yeri, yurdu, şəxsiyyət vəsiqəsi və s. mövcuddur... Bu müasir dövrdə hər yerdə kamera ola-ola necə tapa bilmirlər, başa düşə bilmirəm".

Hadisənin ən vacib məqamı isə budur ki, şübhəli şəxs - Elgün Məhərrəmovun görüntüləri açıq şəkildə təhlükəsizlik kameralarına düşüb. Fotolar və videoda həmin şəxsin kimliyi aydın görünür. Lakin zərərçəkənin sözlərinə görə, artıq iki aydır ki, polisə bütün sübutlar təqdim olunsa da, hələ də nəticə yoxdur:

"Həmin fotodakı şəxs məhz Elgündür. Videoda da açıq görünür. Hər şey göz qabağındadır. Əgər polis bu fakt qarşısında da onu tapa bilmirsə, deməli ki, axtarmır. Belə açıq sübutlara baxmayaraq nəticə olmaması inandırıcı deyil".

Kənan Abdullayev əlavə edir ki, polis hadisəyə laqeyd yanaşır: "Bizim qurum ölkədən kənarda belə cinayətkarları tutub gətirə bilir, amma burada bir telefon oğrusunu tuta bilmirlər. Mən dəfələrlə idarəyə gedib etiraz etmişəm. Rəis əməliyyatçılara tapşırıq verdiyini desə də, indiyədək nəticə yoxdur".

Zərərçəkən, həmçinin ehtimal edir ki, bəlkə də oğrunu tutublar, amma məsələni gizlədirlər: "Açığı, məndə belə bir şübhə yaranır: bəlkə də həmin şəxsi artıq tutublar, amma pul və telefonu qaytarmaq əvəzinə, hansısa səbəblə buraxıblar. Əks halda, bu qədər vaxt keçməsinə baxmayaraq, belə açıq faktla şəxsin tapılmaması inandırıcı görünmür. Bəlkə də 30-cu polis bölməsində bu cinayəti kiçik hadisə kimi qiymətləndirirlər. Amma cinayətin kiçiyi-böyüyü olmur, cinayət cinayətdir. Bu gün telefon və pul oğurlayan sabah daha ağır cinayətlər, hətta qətl də törədə bilər. Ona görə də xahiş edirəm ki, bu məsələ uzadılmasın, cinayətkar tez bir zamanda tutulub mənə dəymiş zərər, telefonum və pulum qaytarılsın. Elgün isə törətdiyi əmələ görə ciddi şəkildə cəzalandırılsın".

Qeyd edək ki, bu tip əməllər Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 177-ci maddəsi (oğurluq) ilə qiymətləndirilir və vurulan ziyanın məbləğindən asılı olaraq azadlığın məhdudlaşdırılması və ya həbs cəzası nəzərdə tutulur. Hadisə ilə bağlı Suraxanı rayon Polis İdarəsinin 30-cu Polis Bölməsində araşdırma davam edir. Məlumata görə, şübhəli şəxsin sənədlərində qeydiyyat ünvanı Laçın rayonu göstərilir.

Bəli, İki aydır davam edən araşdırmanın nəticəsiz qalması isə, suallar doğurur: Bakının hər küncündə kameralar olduğu halda, sadə bir oğru tapılmırsa, vətəndaş belə hallarda nə etməlidir?

İnanırıq ki, Daxili İşlər Nazirliyinin səlahiyyətli şəxsləri hadisəyə diqqət göstərəcəklər və oğru ilə bərabər, öz işinə laqeyd yanaşan polis əməkdaşları da cəzalanacaq...

**Elşad FƏRMANOĞLU**

# Qərbi Azərbaycan İcması (TV) nə demək istəyir?

*SƏİDƏ BƏKİRQIZINI TƏBRİK EDİRLƏR Kİ...*




**...Qərbi Azərbaycan İcmasının nəzdində fəaliyyət göstərən "Qərbi Azərbaycan TV"-nin Feysbuk səhifəsində ötən gün Səidə Bəkirqızının ünvanına alovlu təbrik yazılıb.**

Heç şübhəsiz, bu təbrik 54 min izləyicisi olan Qərbi Azərbaycan İcmasının mövqeyini özündə əks etdirir. Niyə məhz indiki situasiyada? S.Bəkirqızının doğum günüdür, sırf buna görəmi?! Əslən Qərbi Azərbaycandan olan xeyli sayda jurnalist var, İcma bunların hansını təbrik edir!? Təbrikdə səslənən fikirlər xanım jurnalistin məcburi köçkünlərlə bağlı qalmaqallı çıxışlarına açıq dəstəyin ifadə olunmasıdır. İnsanların təbrik olunması, xüsusilə də xanımların diqqətə alınması təqdirəlayiqdir.

Amma...

Ölkədə çox maraqlı proseslər baş verir və məlumatlı şəxslər bu proseslərin hansı məqsədlərə xidmət etdiyini yaxşı bilirlər. Dövlətin strateji hədəflərindən birinin reallaşması üçün üç il bundan əvvəl yaradılan Qərbi Azərbaycan İcmasının emosional tərəfkeşlik nümayiş etdirməsi ciddi şübhələr və suallar yaradır.

Qərbi Azərbaycan İcmasına iki sualım var:

Birincisi, S.Bəkirqızı "Space" TV-dən aşağıdakı bu fikirlərinə görə qovulub: "Yeniyetməyə təcavüz edənlərin qızına da eyni hərəkəti etmək lazımdır ki, başa düşsünlər...".

Sual edirəm: Qərbi Azərbaycan İcması təbrik etdiyi S.Bəkirqızının bu fikirlərini də bölüşürmü? Çünki təbrikdə jurnalist "sözün düzünü deyən, qorxmaz, dürüst və cəsarətli" adlandırılır. Məhz belə bir ərəfədə nümayişkəranə mövqe sərgiləmək təsadüf hesab oluna bilməz. Qərbi Azərbaycan İcması bunu da bilməmiş deyil ki, S.Bəkirqızı bu sözləri ilə azyaşlı qızları zorlamağa məruz qoymaq üçün efirdən çağırış edir. Bu, cinayətə təşviqdir və qanunla məsuliyyət yaradır.

Xanımın ağır travmatik xəstəlikdən əziyyət çəkdiyi açıq görünür, jurnalistikanın prinsiplərindən tamamilə xəbərsizdir, klassik vətənpərvərlər kimi çıxışlarında ağlamaqla kütlənin həssas yerlərinə nüfuz edə bilib.

İkincisi, tutaq ki, sabah Zəngəzur, Göyçə və Dərələyəz geri qayıtdı. O halda qərbi azərbaycanlıların hamısı Bakıdakı mülklərini, işlərini, qurduqları həyatlarını qoyub doğma yurdlarına geri dönəcəklərmi?

Yaxud, qərbi azərbaycanlıların özbaşına köç edib həmin torpaqlarda rahat yaşamaq imkanları olacaqmı?

Bəs onda necə olacaq - Səidə Bəkirqızının bu gün toplum halda qarabağlıların ünvanına səsləndirdiyi "niyə qayıtmırsınız torpaqlarınıza?" ittihamı sabah qərbi azərbaycanlılaların ünvanına səsləndirilsə, Qərbi Azərbaycan İcması yenə də onu tərifləyib dəstəkləyəcəkmi?

Qeyd edim ki, Qərbi Azərbaycan İcmasının əsas ideoloji funksiyalarından biri bölücülüyü, regionçuluğu, ayrıseçkiliyi dəstəkləmək yox, bütövlüyümüzə töhfə verməkdir. Eləcə də Qərbi Azərbaycana qayıdış təkcə qarabağlıların vəzifəsi deyil, qarabağlı, şamaxılı, naxçıvanlı, yardımlılı, gəncəli də və s. bu müqtədir missiyanın əsas dəstəkçiləridir.

**Samir Feyruzov**

**...Sosial şəbəkələr artıq həyatımızın müəyyən hissəsinə çevrilib. Nə istəsən orada tapmaq olur. Hansısa bir saytı, proqramları axtararkən tik-tok səhifəsində iş elanları adamın gözünü yağır edir. Özü də yüksək əmək haqqı ilə. İş yerlərinin bu "defisit" vaxtında vətəndaşlara 750, 780 və 800 manat əmək haqqı təklif olunur. Fikirləşirsən ki, yüksək maaşlı iş yerlərinin "defisit" olduğu indiki vaxtda belə yüksək əmək haqqı olan iş yerləri nə əcəb boş qalıb ki, hətta sosial şəbəkədə elan verirlər?!**

# İş elanı yalanları və fırıldaqları

*İşə ehtiyacı olan minlərlə insan bu elanlara açıb baxır və nəticədə dələduzların TikTok-da və digər sosial platformada baxış sayını artırır ki, bu da əlavə "n" qədər gəlir deməkdir...*







Elanlarda daha çox klinikalara və uşaq baxçalarına mühafizəçi lazım olduğunu bildirirlər. Onu da yaxşı bilirik ki, klinikaya və ya uşaq baxçasına rəhbər gələn şəxs həkimindən, tibb bacısından tutmuş, sanitara və mühafizəçiyə qədər öz qohumlarını, qonşularını, dostlarını və yaxınlarını işə cəlb edir. İndi nə sirdirsə, əhalinin əksəriyyətinin iş axtardığı bir vaxtda belə yüksək maaşlı iş yerləri sosial şəbəkələrdə elan edilir. İstər-istəməz düşünürsən ki, burada mütləq nəsə bir müəmma var.

***

Elə mən də o müəmmanı araşdırmaq qərarına gəldim. "Etibar elə və yoxla" prinsipinə üstünlük verərək, tik-tok səhifələrində qarşıma çıxan elanların bir neçəsinə göstərilən nömrə ilə zəng etdim. Əvvəlcə həmin video-rolikin birindəki elanı olduğu kimi təqdim edirəm. Bir xanım elanı belə səsləndirir: "İş yeri səliqəli, maaş vaxlı-vaxtında verilir. Mühafizə işinə bəylər axtarılır, növbəli iş qrafiki, həm gecə, həm də gündüz növbələri var".

Video-rolikin üstündə isə belə yazılıb: "İş saatı 12 saat, yaş aralığı (18-65), növbəli iş qrafiki, 2 gün iş, 2 gün ev. (klinikaya bəy mühafizəçilər tələb olunur. Maaş 750 AZN, ünvan: Babək prospekti".

Klinikanın adı və göstərilən Babək prospektində hansı ünvanda olduğu bildirilmir. Elə buna aydınlıq gətirmək üçün göstərilən nömrələrə zəng etməyə başladım. Birinci zəng etdiyim mobil nömrə yuxarıda göstərilən iş elanını verən (050) 977-77-68 oldu.

Telefona cavab verən və özünü Gülay kimi təqdim edən qıza belə dedim:

- Xanım, 20 yaşında gənc qohumlardan biri üçün iş lazımdır.

Xanım bildirdi ki, qoy gəncin özü zəng eləsin. Cavab olaraq dedim ki, Gülay xanım, bir böyük kimi mən bilməliyəm, qohum hansı iş şəraitində və hansı klinikada işləyəcək? Sanki mənimlə danışan canlı insan yox, robot imiş. Çünki yenə də "Qoy gəncin özü zəng eləsin"- deyən bu Gülay xanım telefonu qulağıma qapatdı.

***

Bu iş elanı belə getdi. Ondan sonra daha bir iş elanı verən (051) 881-84-62 nömrəyə zəng etdim. Cavab verən Aydan xanım da Gülay xanımı təkrar edirmiş kimi qeyd etdi ki, qoy gəncin özü zəng etsin. "İndi danışa bilmirəm, yarım saatdan sonra özü zəng edər".

Bu elan da Xırdalandakı klinikaların birinə mühafizəçi lazım olduğu barədə idi. Əmək haqqı da 780 manat göstərilirdi. Bu nömrəni gəncin anasına verdim ki, zəng edib maraqlansın. Aydan xanım gəncin anasına da deyib ki, qoy işə düzəlmək istəyən özü zəng etsin. Mən başa düşə bilmirəm, valideyn uşağın işi ilə maraqlanmalıdır də. Sən valideynə də iş barədə məlumat vermirsənsə, onda bu elanlar nə üçündür? Burda nə fırıldağınız var? Nə isə...

*Sən valideynə də iş barədə məlumar vermirsənsə, onda bu elanlar nə üçündür?*

***

Daha bir iş elanında göstərilən nömrəyə zəng edirəm. "Xalqlar dostluğu" metrostansiyasının yaxınlığındakı klinikaların birinə mühafizəçi lazım olması barədə elana uyğun olaraq göstərilən (051) 881-09-32 nömrəli mobil telefona zəng etdim. Burada da əmək haqqı 780 manat idi. Telefona cavab verən Nigar xanım özü də bilmədən bu iş elanlarının fırıldağını demək olar ki, açdı. Nigar xanıma da bildirdim ki, gənc qohumum üçün iş lazımdır. Bu xanım da o birilər kimi bildirdi ki, "Qoy gəncin özü zəng etsin". Deyəndə ki, Nigar xanım, iş yeri haradadır, klinikanın adı nədir? Cavab verdi ki, "Biz vasitəçiyik. Özünüz şirkətlə əlaqə saxlayın".

Belə cavabı eşidən kimi Nigar xanıma iradımı bildirərək,dedim: "Nigar xanım, vasitəçisiniz çox yaxşı. Onda zəhmət çəkin, ya şirkətlə bizi calaşdırın, ya da şirkətin telefon nömrəsini verin, özümüz əlaqə saxlayaq".

Nigar xanım yenə başladı təkrar eləməyə ki, biz vasitəçiyik. Yenə də səbrimi basıb, cavab verdim ki, ay xanım,vasitəçi olmaq nə deməkdir? Siz elanda bu nömrəni vermisiniz və mən də həmin nömrə ilə sizinlə əlaqə saxlamışam. Məsləhət idisə, şirkətin nömrəsini yazaydınız, biz də birbaşa onların özünə zəng edəydik. Bir vaxta ki, öz nömrənizi yazmısınız, onda zəhmət çəkin vasitəçi kimi mühafizəçi tələb olunan şirkətlə əlaqəmizi yaradın. Mən özüm də jurnalistəm, məhz bu fırıldaqçı iş elanları haqda araşdırma aparıram...".

Jurnalist sözünü eşidən kimi Nigar xanım "Jurnalistsinizsə, sizə heç bir məlumat verməyəcəyəm" - deyib, telefonu qulağıma qapatdı.

***

İndi görək buradan hansı nəticə çıxır? Nəticə odur ki, bütün bu iş elanlarının hamısı yalan və fırıldaqdır. Aldığım digər məlumata görə, hətta mühafizəçi işləmək istəyən gəncin özü də əlaqə saxlasa, onu bir neçə dəfə get-gələ salıb heç bir işlə təmin etmirlər. Ara yerdə ərizə yazanda 5-10 manat pul it-bata düşür. Deməli, "ayının min oyunu bir armudun başındadır". Bütün bu iş elanlarının heç bir əsası yoxdur. İndiki zamanda elə yüksək əmək haqqı verilən iş yeri heç vaxt boş qalmaz. Sadəcə, kimlərsə bu yolla babat pullar qazanırlar. Yəni, elana aldanıb, gələnlərin hər birindən 5-10 manat alanda gör bu pullar necə vurub kəllə-çarxa çıxır. Bu açıq-aşkar dələduzluqdur və əsl korrupsiya mənbəyidir. Bundan əlavə, işə ehtiyacı olan minlərlə insan bu elanlara açıb baxır və nəticədə dələduzların tik-tokda və digər sosial platformada baxış sayını artırır ki, bu da əlavə "n" qədər gəlir deməkdir. Deməli, insanlar ehtiyacdan açıb o elanlara baxır, dələduzların cibinə isə pullar axır. Vətəndaşın işi düzəlməsə də olar, əsas odur ki, fırıldaqçıların işi yaxşı düzəlib.

Yaxşı olar ki, insanların hissləri ilə oynayıb, onları aldadıb tələyə salmaq istəyən bu elan verən fırıldaqçılarla hüquq-mühafizə orqanları ciddi şəkildə məşğul olsunlar. Tam əminəm ki, bu işin arxasında çox ciddi saxtakarlıqlar dayanır. Əgər bu iş ciddi araşdırılsa, inanın ki, çox sensassiyalı faktlar üzə çıxacaq. Ehtiyac içində olan insanların hissləri ilə bu şəkildə oynamaq olmaz. Ayıbdır, vallah ayıbdır!

**Elçin Məmmədli**

# Xankəndidə bir erməni silahlı təxribata hazırlıq görərkən yaxalandı




**...Sentyabrın 14-də Xankəndi şəhərinin erməni əsilli sakini, 1967-ci il təvəllüdlü Avanesyan Karen Albertoviçin silahlı təxribata hazırlıq görməsinin görüntüləri ortaya çıxıb. Tezadlar.az xatırladır ki, həmin görüntülərdə Karen Avanesyanın təxribat törətmək üçün avtomat və qumbaraları qabaqcadan gizlətdiyi yerdən götürməsi əks olunub.**

Lakin polis əməkdaşlarının sayıqlığı sayəsində onun niyyəti baş tutmayıb. Və Katen Avanesyan həmin gün qabaqcadan gizlətdiyi "Kalaşnikov" avtomatını və ona aid patronla dolu 4 sandıqcanı, eləcə də 5 ədəd qumbaranı götürüb Xankəndi şəhərində keçirilən tədbir yerinə yaxınlaşmaq istəyərkən polis əməkdaşları tərəfindən saxlanılıb. Bu zaman K.Avanesyan 3 ədəd əl qumbarası atmaqla, avtomatdan atəş açıb və polisə silahlı müqavimət göstərib. Cavab atəşi nəticəsində güllə yarası almış K.Avanesyan tutulub.

Bu da erməni xisləti! Hələ bir Qarabağa qayıtmaq barədə də düşünürlər!

**A.Məmmədli**



# Reabilitasiya, yoxsa şou? - Belə qurtuluş olmur!

**Son vaxtlar sosial şəbəkələrdə əsasən narkomaniya və qumar asılılığından əziyyət çəkən insanların videolarını açıq şəkildə paylaşan özəl reabilitasiya mərkəzlərinin sayı artır. Xüsusilə tanınmış şəxslərin müalicəsi "həyatları dəyişir", "qurtuluşa doğru" kimi pafoslu başlıqlarla təqdim edilir. Bu görüntülər isə nə onların yaxınları, nə də ictimaiyyət tərəfindən birmənalı qarşılanır.**

Əvvəlcə onu deyək ki, reabilitasiya mərkəzlərinin çoxalması müsbət haldır. Əgər hansısa asılılıqdan əziyyət çəkən şəxsin yenidən cəmiyyətə qayıtarılması üçün çalışırsınızsa, bu, xüsusilə təqdirəlayiqdir. Bu gün keyfiyyətli reabilitasiya nəticəsində yenidən cəmiyyətə qayıdanlar da kifayət qədərdir. Bu həm ailələr, həm də sosial mühitə təsir edir.

Təəssüf ki, sayları artdıqca xəstələrdən sadəcə istifadə edərək özlərini "ən yaxşı" kimi təqdim etmək istəyən müəssisələr də peyda olur.

**...İnsan cəmiyyət kimi yetişməmiş olanda aqibəti Səidə Bəkirqızı kimi olur... Əvvəlki iş yerindən kənarlaşdırılan xanım sonra SpaceTV- də işə götürülmüşdü ki, bəlkə abrına qısılıb səhvini başa düşə. Amma başa düşmədi, içindəki kini bu dəfə SpaceTV efirindən püskürüldü! Amma etiraf edək ki, TV rəhbərliyi də belə bir adamın hansı niyyətlə işə götürülüb efirə buraxılmağının fərqində olmalı idi... Təsəvvür edin, canlı efirdə görün nə dedi: “...16 yaşlı qızı zorlayanların o yaşda bacısını zorlamaq lazımdır!”.**

# Səidə Bəkirqızı kin və küdurətinin qurbanı oldu...

*Audiovizual Şura bir daha, bütün yayımçılardan yayımı zamanı qanunvericiliyin tələblərinə riayət edilməsinin təmin olunmasını tələb edir*



Beləcə, su çanağı suda da sındı! Və Azərbaycan Audiovizual Şura onun bu hikkəsinə qarşı bəyanat yaymalı oldu. Tezadlar.az həmin bəyanatı təqdim edir:

“Sentyabrın 13-də Audiovizual Şuranın onlayn iclası keçirilmişdir. İclasda “Space TV” kanalının efirində qanunvericiliyin pozulması faktı müzakirə edilib. Sentyabrın 11-də “Space” kanalın efirində 08.00-09.30 arası yayımlanan “Xəbərin izində” proqramının aparıcısı Səidə Bəkirqızı tərəfindən Ağdamda 16 yaşlı məktəbli qıza qarşı baş vermiş cinsi zorakılıqla bağlı xəbər təqdim olunarkən və şərh edilərkən “Media haqqında” Azərbaycan Respublikasının Qanununun 14.1.4-cü (ayrı-seçkilik təbliğ olunmamalıdır) və 14.1.9-cu (nifrət çıxışlarına yol verilməməlidir) maddələrinin tələbləri pozulmuşdur.

Şura aparatının Audiovizual proqramların monitorinqi və təhlili şöbəsinin mütəxəssisləri tərəfindən fakt ayrıseçkiliyin təbliği və nifrət çıxışı kimi qeydə alınmış, daha sonra müvafiq prosedurlara uyğun olaraq Audiovizual Şuranın hüquqşünasları tərəfindən də pozuntu faktı kimi təsdiq olunmuşdur. Audiovizual Şuranın üzvləri aparıcının baş vermiş və istintaqı aparılan cinayət hadisəsini şərh edərkən həmin hadisənin törədildiyi bölgə və həmin bölgə əhalisi haqqında xoşagəlməz fikirlər səsləndirməsinin, qanunvericiliyə və jurnalistikanın etik prinsiplərinə məhəl qoymadan emosional formada cinayətin təfərrüatlarının efir vasitəsilə araşdırılmasının, bunu edərkən hər hansı yaşayış məntəqəsinin adının hallandırılmasının, cinayətin törədilməsinin həmin məkanla əlaqələndirilməsinin yolverilməz olduğunu bildirmişlər.

“Space TV” redaksiyası tərəfindən yayımda aparıcının çıxışının zorakılığa çağırış və təbliğ məzmunlu hissəsinin səsi məhdudlaşdırılsa da, efirə gedən parçada kifayət qədər pozuntu və nifrət nitqi halları biruzə vermişdir. Qeyd olunanları nəzərə alaraq, Audiovizual Şuranın üzvləri 16 sentyabr 2025-ci il tarixində həmin proqramın yayımı zamanından başlayaraq 6 saat müddətində (saat 08.00-dan 14.00-dək) “Space TV” kanalının yayımının dayandırılması haqqında yekdilliklə qərar qəbul etmişlər.

Bundan əlavə, Audiovizual Şura üzvləri aparıcı Səidə Bəkirqızı tərəfindən proqramın həmin hissəsinin (efir zamanı səsi verilməyən zorakılığa çağırış məzmunlu hissə də daxil olmaqla) sosial şəbəkə hesabları vasitəsilə yayımlanması halını qəti surətdə pisləmiş, bunu jurnalist etikasına uyğun olmayan və peşəkarlıqdan uzaq bir hərəkət kimi qiymətləndirmişlər.

Audiovizual Şura bir daha, bütün yayımçılardan yayımı zamanı qanunvericiliyin tələblərinə riayət edilməsinin təmin olunmasını tələb edir və bu istiqamətdə redaksiya heyəti ilə, xüsusən də aparıcılar ilə izahedici işin aparılmasını ciddi tövsiyə edir”.

Bu da son! Amma bu xanım üçün, məncə, son deyil! Çünki adamın xislətində yatan kin və küdurət hüquqi müstəvidə də çözülməlidir ki, abrına qısılıb cəmiyyətə yad bir ünsür kimi olduğunun fərqində olsun!

**ZAUR**

# Ölkədə estetik əməliyyat: dodağı şişən, burnu əyilən... xanımların sayı artır!

*Xüsusən də Bakının küçələrində yəqinki dodağı şişmiş, çat vermiş, burnu əyilmiş... xanımlara çox rast gəlirsiniz... Aralarında yaşlı xanımları görmək isə lap narahatedicidir...*

**Dodağını yekəldənlərin bir neçə ildən sonra dodaqlıqdan çıxması, eybəcər hal alması da yetərincədir. Nə olub, bu cür estetik əməliyyatlarla nə etmək istəyirlər??? Cavan xanımların isə belə əməliyyatlara könül verməsi heç başa düşülən deyil...**



Hazırda sosial şəbəkələrdə də bu tip halların narazılıq dolu mənzərəsinə tez-tez rast gəlmək olur. Beləliklə, ölkə ərazisində qanunsuz estetik əməliyyat edərək rezonans yaradan saxta həkimlər əhalidə ciddi narahatlıq yaradıb. Artıq insanlar kimə güvənəcəyini bilmirlər.

Məlum olduğu kimi, 2025-ci ilin aprel ayında Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən komissiya təşkil olundu və bir çox saxta diplom ləğv olundu. Buna baxmayaraq, qanunsuz fəaliyyət halları yenə də aşkarlanır.

Bu problemlərlə bağlı Səhiyyə Nazirliyinin estetik, plastik və rekonstruktiv cərrahiyyə üzrə ekspertləri də problemə aydınlıq gətiriblər. Adil Cümşüdov, Dilqəm Məmmədov, Vüqar Ələkbərov, Taleh Qasımov açıqlamalarında “Hansı həkimlər estetik əməliyyat edə bilər?- sualını belə cavablandırıblar: “İxtisas üzrə sertifikasiya imtahanına daxil olub Azərbaycan Səhiyyə Nazirliyi tərəfindən Plastik cərrahiyyə şəhadətnaməsi almayan heç bir həkimin estetik əməliyyat etmək hüququ yoxdur. Bu, Səhiyyə Nazirliyinin də qanunları ilə təsdiqlənib. Heç kim ağızdan-ağıza gəzən sözlərə aldanmasın. Heç bir ümumi cərrahın estetik əməliyyat etməyə hüquqi əsası yoxdur. Eyni zamanda burun xaricində üzün müxtəlif nahiyələrində estetik əməliyyat aparan LOR həkimləri də bu əməliyyatları qanunsuz icra edir. Əgər fəsadlaşmış xəstələr şikayət edərsə, bu həkimlər və çalışdığı müəssisələr ciddi cərimələrə və hüquqi müstəvidə cəzalara məruz qalacaqlar”.

Bəs plastik cərrahiyyə şəhadətnaməsi olmayan şəxslər haqqında hansı tədbirlər görülür? Həkimlərin sözlərinə görə, əgər bir xəstədə estetik əməliyyatdan sonra fəsadlaşma baş veribsə, onun şikayət etmək hüququ var: “Şikayət zamanı həkimin plastik cərrahiyyə üzrə sertifikasiya şəhadətnaməsi olmadığı aşkarlanarsa, birbaşa cinayət məsuliyyətinə cəlb olunur. Ekspertlər tərəfindən verilən rəydə səlahiyyəti olmadan xəstə üzərində aparılan əməliyyat qəsdən insan yaralamaq olaraq dəyərləndiriləcək”.

Səhiyyə Nazirliyi bu ilin aprel ayında Xüsusi Təftiş Komissiyasının müvafiq qərarları ilə sənədlərin əsaslılığı təsdiq olunmuş Azərbaycan ərazisində plastik cərrahiyyə ixtisası üzrə praktik tibb fəaliyyətinə icazə verilən həkim-mütəxəssislərin siyahısını açıqlayıb. Orada, həmçinin “*” ilə işarəli maddədə cərrahlar tərəfindən icra olunan əməliyyatların da siyahısı yerləşdirilib. Həkimlər qeyd olunan məsələlərə də aydınlıq gətiriblər: “Əslində bu Səhiyyə Nazirliyi tərəfindən ədalətli və incə düşünülmüş bir qərardır. Qanun maddəsinin açıqlamalı izahı - bəzi xarici dövlət universitetlərində rezidentura təhsilini bitirdikdən sonra 2 və ya 3 illik rəsmi universitet proqramı ilə təhsil alaraq bəzi ümumi cərrahlar qarın və ya süd vəzidə aparılan estetik əməliyyatı öyrənirlər. Bu təcrübə də o həkimlərə süd vəzi xərçəngi əməliyyayları zamanı və ya qarın bölgəsi yaralanmalarında əl tutur. Bu ümumi cərrahlar həmin rəsmi sənədi Elm və Təhsil Nazirliyi Təhsildə Keyfiyyət Təminatı Agentliyi tərəfindən təsdiqlədib təqdim etməlidirlər. Əks halda, heç bir ümumi cərrah estetik əməliyyat edə bilməz. Bu qanun maddəsində eyni zamanda LOR həkimlərinə də yer verilib. Amerikada 1-2 universitetdə rezidentura təhsili sonrası 2-3 illik yüksək ixtisas keçərək üzdə bəzi estetik əməliyyatlar etmək hüququ qazana bilərlər. Bu da baş-boyun bölgəsinin xərçəngi zamanı cərrahiyyə əməliyyatlarında onlara yardımçı olur. Yenə həmin rəsmi sertifikat TKTA tərəfindən təsdiq olunmalıdır. Əks halda, etdiyi estetik əməliyyata görə cinayət məsuliyyəti daşıyacaqlar”.

Bəli, Tanrı insanı məsləhət bildiyi kimi yaradıb... Ola bilsin kimsə bu yaranışından xoşlanmır, hansısa estetik əməliyyata məcbur olur. Olsun! Amma elə olmasın ki, gözəllik yolunda eybəcərləşmə də yaransın...

**“Təzadlar”**

**İTV-nin aparıcısı Nigar Sabirqızı sosial media hesabında “Avand” MTK-dan şikayətçi olduğu məsələdən yazır. Tezadlar.az paytaxda sakinlərinin dincliyini pozan belə MTK-lar haqqında dəfələrlə yazıb.**

# “Avand” MTK-nın ağır texnikaları İTV əməkdaşlarının “nervi”sini də pozub




İTV əməkdaşının statusu da narahatlıq doğurur: “Bir neçə ay əvvəl Yasamalda, keçmiş “Azon” zavodunun ərazisində ağacları kəsərək yeni yaşayış binası tikməyə hazırlaşan “Avant” şirkətinin hər gün bizə yaşatdığı bu səs-küyə, toz-torpağa “dur” deyən yoxdur. Bununla bağlı bir videonu pəncərədən çəkmişəm. Təsəvvür edin, bu qədər yaxınımızda bu qədər səs və toz-torpaq. Səhər saat 08.30-dan 18.00-dək sökürlər, qazırlar, saat 22.00-dan səhər saat 05.00-dək də yük maşınları ilə daşıyırlar. Müvafiq qurumlara bir neçə sualım var.

1.Hörmətli Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, yaşayış binasının sadəcə 5-10 metrliyində yeni bina tikməyə icazə varmı? Bu, şəhərsalma qaydalarına uyğundurmu? Yoxsa, sadəcə bu tikintiyə göz yumursuz? Bu tikintiyə icazə verəndə ətrafda yaşayanları niyə nəzərə almamısınız?

2. Hörmətli Ekologiya və Təbii Sərvətlər Nazirliyi, biz nə vaxta qədər belə toz-torpağı udmalı və bu səs-küydə yaşamalıyıq? Heç olmasa gecə rahat yatmağımıza imkan yaradasınız bəlkə? Ağacları kəsdilər, indi də bizim nəfəsimizi kəsirlər axı. Sözünüz bu şirkətdə keçmirsə, heç olmasa xahiş edin ki, havamızı bu qədər çirkləndirməsinlər.

3.Hörmətli Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi, gecə insanların narahatlığına səbəb olan hallara nəzarət olunurnu? Olunursa, biz niyə aylardır gecə pəncərəmizi aça bilmirik? Səhərə qədər yük maşınlarına nəsə doldururlar, boşaldılır. Kim düşünməlidir ki, belə səs-küydə yaşamaq necə işgəncədir? Bizim rahatlığımızı kim təmin etməlidir? Bəlkə bu bimada yaşayanlar sakin deyil?

4.Bu sualım bütün aidiyyətimüvafiq qurumlaradır. Tədbir görülməməsinə səbəb nədir? Şirkətin hər hansı yox, məhz “Avant” olması? Ümid edirəm, verdiyim suallara cavabları var. Bu ölkə yalnız kimlərinsə yox, hamımızındır. Kimsə bina tikib pul qazanacaq deyə, başqaları əziyyət çəkməli deyil. Bir az vicdanlı olmaq lazımdır...”.

Təəssüflənirik! Amma bu tip MTK-lara da tövbə yoxdur! Onlara necə gəldi tikinti üçün icazə verənlərdədir günah... Beşmərtəbəli yaşayış binasının divarının dibində dərinliyi 10-20 metr olan bünövrələr qazıb göydələn tikilir. Niyə xüsusi sahə ayrılıb mövcud yaşayış yerindən kənarda tikmirlər???

**A.Məmmədli**

# YAP üzvü, deputat Elşad Mirbəşiroğlu Rusiyanın agenturasına necə sığınıb?

*“Təzadlar”a təqdim edilən bir material və əlavə edilmiş rəsmi sənədlər siyasi elmlər doktorunun elmi dərəcəsinin də şübhə altında olduğunu ortaya qoyur...*



**Keçək mətləbə: bu ilin iyulun 24-də TASS-ın baş direktorunun birinci müavini Mixail Qusman III Şuşa Qlobal Media forumunda Azərbaycan Prezidenti İlham Əliyevə verdiyi bir sualı ilə nəinki Rusiyada, eləcə də Azərbaycanda çox qaranlıq və şübhəli məqamlara işıq saldı, aydınlıq gətirdi. Daha doğrusu, Azərbaycan bununla da dostu ilə düşmənin kimliyini tanımış oldu. Sən demə, düşmən heç Kremldə də deyilmiş, həm də burda, necə deyərlər, ocaq başında imiş...**

***

Hökumət qurumlarına yaxınlığı və ya bağlılığı ilə diqqətdə olan day.az saytı bu gün sensasion material yayımlayıb. Yazıda Rusiyaya bağlı olan bir şəbəkənin üzvü olmuş bir neçə şəxsin adı çəkilir. Sitat: “...2020-ci ildə Vətən müharibəsi ərəfəsində Rusiyanın ölkədəki təsir dairəsinə qarşı ciddi zərbələr endirildi və şəbəkənin rəhbəri olan Ramiz Mehdiyev, eləcə də ordudakı uzantısının rəhbəri Nəcməddin Sadıkov vəzifədən kənarlaşdırılıdı. Həmin dövr ərzində Əli Həsənov, Əbülfəs Qarayev, Elmar Məmmədyarov, Oktay Əsədov, Azad Rəhimov, Eldar Mahmudov oxşar aqibətlə üzləşdi... Bu yerdə Milli Məclisin sabiq sədri Oqtay Əsədovun adı da diqqət çəkir. Onun Rusiya şəbəkəsi ilə əlaqələri barədə daha əvvəl hər hansı məlumat ictimailəşməmişdi. Və bu yaxınlarda bu rusiyayönlü şəbəkənin Azərbaycandakı daha bir üzvü - Azər Qasımov ifşa edildi. Bu kontekstdə bir vaxtlar deputat olmuş, sonradan “yoxa çıxan” Elşad Mirbəşirin adı da xüsusi vurğulanıb, onun Rusiya şəbəkəsinin maraqlarına xidmət etməsindən bəhs edilib. Onun Rusiya FTX ilə əlaqələri üzə çıxdıqdan sonra o, ictimai arenadan və Sosial Tədqiqatlar Mərkəzindən uzaqlaşdırıldı. Son aylarda “Rus evi” və “Sputnik” kimi strukturların fəaliyyəti də ölkədə məhdudlaşdırılıb...”.

**Bəs Elşad Mirbəşir oğlu kimdir?**

Bu günlərdə “Təzadlar”ın Araşdırma Qrupuna bir material və əlavə olunmuş rəsmi sənədlər daxil oldu... Bizə tanış gəldi bəzi motivlər deyə, arxivimizi önə çıxardıq. Məlum oldu ki, 2017-2018-ci illərdə Elşad Mirbəşiroğlunun barəsində olduqca ciddi bir material redaksiyaya təqdim edilibmiş. Həmin material araşdırılıb dəqiqləşdiriləndən sonra saytda yayımlanıb, lakin xaricdə istirahətdə olan Elşad Mirbəşiroğlu redaksiya rəhbərliynə elektron məktub yazıb, sonra vatsapla danışıb, başılovlu istirahətini yarımçıq qoyaraq redaksiyaya gəlib, ağlamsıyaraq yazının təcili olaraq saytdan götürülməsini xahiş edib. Lakin rəhbərlik bundan imtina edəndə “Atam ağır xəstədir, bilsə, ürəyi partlayacaq...”, deyərək redaksiyanı məhkəmə ilə hədələyib... Və nəhayət, canıdildən yalvarışından sonra ona mövqeyini və məqalədəki faktların təkzibini təcili redaksiyaya təqdim etməsi diqqətinə çatdırılıb... Beləliklə, həmin yazı saytdan bu səbəblərdən götürülüb, amma cavab və ya təkzib gəlməyib. Niyə? Səbəbini aşağıda biləcəksiniz.

***

Məsələ ondadır ki, ötən parlament seçkilərində gözləmədiyimiz halda Elşad Mirbəşiroğlu YAP-ın üzvü kimi deputat seçilir, TV-lərimizdə, eləcə də AzTV-də siyasi ekspert kimi çıxışlar edir, Azərbaycanın haqq səsindən danışır... Amma indi məlum olur ki, AzTV-də-üzdə haqq səsini müdafiə etdiyi Azərbaycanın arxada ayağının altını qazırmış, özü də Rusiyanın “lopatka”sı ilə!

**“Təzadlar”ın**
**Araşdırma Qrupu**





# Qubada təbiətin məhvinə yönələn ekoloji terror...

**Araşdırmalara görə, Yerin ilk yaradılış və geoloji inkişafı tarixində təbiətdə və onun ekoloji sistemlərində çatışmazlığı olmayan fövqəl bir tarazlıq mövcud olub. Belə ki, insan və eləcə də bütün canlılar təbiətlə daimi təmasda olduqları üçün bir-birinə qarşılıqlı təsir göstəriblər. Əsrlər boyu bu təsir təbiətin ekoloji tarazlığını pozmayıb və insan həyatı üçün təhlükə yaratmayıb. Lakin ətraf mühitə amansız müdaxilələr təsirsiz ötüşmür. Hazırda ətraf mühitə insan təsirləri elə geniş miqyas alıb ki, hələ ötən əsrin əvvəllərində belə, heç kimin düşünə bilməyəcəyi qlobal xarakterli problemlər ortaya çıxıb.**

Ətraf mühit dedikdə, insan fəaliyyətindən asılı olmayaraq, onu əhatə edən canlı və cansız təbiətin məcmusu, ekoloji tarazlıq dedikdə isə ekoloji sistemin vəziyyəti, yaxud da biotik birliklərin (canlı orqanizmlərin birliklərinin) davamlılığı, özününizamlama qabiliyyəti, qaydaların pozulmasına müqaviməti, tarazlığın pozulmasına qədər mövcud olan ilkin vəziyyətin bərpa edilməsi başa düşülür.



*“Fotoşəkillər Xınalıq yolunun Qrızdəhnə kəndi ərazisində fəaliyyət göstərən “Grotto House” istirahət mərkəzi ilə üzbəüzdə tikilməkdə olan hotelin sahibinin həmin ərazidəki ağaclara, yaşıllıqlara necə qənim kəsildiyini əks etdirir”*

*“Bu gün gözümüz görə-görə yaşıl genefondumuz olan meşələrimizi özümüz məhv edirik”*

Ekoloji tarazlığın pozulması nəinki insan, eləcə də bütün canlıların həyatı üçün böyük təhlükədir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sözləri ilə desək, “Ekologiyanın qorunması xalqımızın sağlamlığının, milli genefondumuzun qorunması deməkdir”.

Ancaq çox təəssüf ki, təbiət və təbii sərvətlərə mənfi münasibət ötən əsrdə daha da artaraq ən yüksək həddə çatmışdır və bunun nəticəsində ətraf mühitin biotik (canlı) və abiotik (cansız) amilləri güclü antropogen təsirə məruz qalmış, bir çox bitki və heyvan növləri (biotlar) məhv olmuş və ya kökü kəsilmiş, bəziləri isə məhv olmaq ərəfəsində olduğundan ”Qırmızı kitab”lara düşmüşdür. Və bu proses yenə də davam edir...

...Son vaxtlar Quba rayonunda meşələri qırıb turistlər üçün ərazilər yaratmaq, hotellər tikmək halları kəskin şəkildə artıb. Oksigen mənbəyi sayılan ağacları qanunsuz kəsən, meşələri, yaşıllığı məhv edən şəxslərə qarşı mütəmadi olaraq müxtəlif cəza tədbirləri həyata keçirilsə də, bəzi işbazlar hələ də öz bəd əməllərindən geri qalmırlar. Quba meşələrində çoxillik ağacların kəsilməsi, meşələrə, təbiətə qarşı belə biganə münasibət sözügedən ekoloji problemlərin daha da dərinləşməsinə səbəb olur.

Tezadlar.az xəbər verir ki, bu barədə Qubadan redaksiyanın elektron poçtuna məlumat və fotoşəkillər göndərilib. Məlumatda Quba rayonunda meşələrə qarşı sərgilənən biganə münasibətdən bəhs olunur. Məlumatda bildirilir ki, hazırda Xınalıq yolunun Qrızdəhnə kəndi ərazisində Şahmar (Bakıda yüksək vəzifə postunda olduğu deyilir) adlı şəxsə məxsus olduğu iddia edilən hotelin qızğın inşası gedir və bu məqsədlə meşə zolağı ağır texnika vasitəsilə məhv edilir. Ərazi sanki böyük bir tikinti meydançasına bənzəyir. Meşə zolağı məhv edilərək tikinti-quraşdırma işləri həyata keçirilir. Qəribəsi odur ki, bu işlər gizli deyil, hamının gözü qarşısında baş verir.

Təqdim etdiyimiz fotoşəkillər Xınalıq yolunun Qrızdəhnə kəndi ərazisində fəaliyyət göstərən “Grotto House” istirahət mərkəzi ilə üzbəüzdə tikilməkdə olan hotelin sahibinin həmin ərazidəki ağaclara, yaşıllıqlara necə qənim kəsildiyini əks etdirir.

Q e y d edilir ki, meşələri qırıb turistik ərazilər yaradan, hotellər tikən işbazlar bu sahədə pul qazanmaq istəyirlərsə, niyə o zaman səhralıq bölgələrdə, ağacsız ərazilərdə hotellər, istarahət və əyləncə mərkəzləri tikib ətrafını yaşıllaşdırmırlar?! Məsələn, Kürdəmirdə və digər Aran bölgələrində boş, düzənlik yerlərdə belə istirahət mərkəzləri, yanında da yaşıllıqlar yaratmaq lazımdır ki, hamı “Əhsən!” desin. Əksinə, çox təəssüf ki, Qubada bütün hotellər, istarahət və əyləncə mərkəzləri, koteclər meşələrin ərazisində tikilir və bunun üçün həmin ərazilərdə yaşıllıqların ən azı 20 faizi məhv edilir. Üstəlik də, bu obyektlərin tullantı suları, kanalizasiyaları birbaşa meşə sahəsinə və ərazidən axıb Xəzər dənizinə tökülən Qudyalçaya axıdılır. Halbuki meşələrin qırılması biosferin davamlılığının və atmosferdə oksigenin azalmasına, quraqlığın, torpaq eroziyasının, deflyasiyasının və sürüşmələrin əmələ gəlməsinə, səhralaşmanın sürətlənməsinə, su daşqınlarına, güclü selə, qasırğalara, torpağın və suyun eroziyasına, iqlimin və relyefin kəskin dəyişilməsinə və s. səbəb olur. Bütün bunlara rəğmən, planetin ciyəri funksiyasını yerinə yetirən meşələrimiz məhvə məruz qalmaqdadır.



Yeri gəlmişkən, bir məqamı xatırladaq ki, uzunmüddətli və düşünülmüş məkrli siyasətin nəticəsi olaraq ermənilər Azərbaycanın 20 faiz torpaqlarını işğal edərkən cəmiyyətə və təbiətə ciddi zərərlər vuraraq xarici havadarlarının köməyi ilə işğal etdikləri ərazilərdə vandalizm törətdilər. Belə ki, ermənilər işğal olunmuş ərazilərdəki tarixi abidələri, mədəniyyət ocaqlarını və qəbiristanlıqları dağıtdı, oradakı qiymətli əşyaları, məzarların mərmər başdaşlarını, bütün tikinti materiallarını qarət və talan etdilər. Eyni zamanda, düşmən işğal etdiyi ərazilərdəki təbii sərvətlərimizi, qiymətli fauna və floranı məhv etdi, ərazilərimizi vəhşicəsinə yandıraraq Azərbaycanın təbiətinə, təbii sərvətlərinə və ekoloji durumuna böyük zərbə vurdu. Azərbaycanın işğal edilmiş ərazilərində ekoloji duruma və təbii sərvətlərə ermənilər tərəfindən vurulan və analoqu olmayan bu zərbələr ekoloji terror və vandalizm idi.

Bu, azmış kimi, bu gün gözümüz görə-görə yaşıl genefondumuz olan meşələrimizi özümüz məhv edirik. Buna nə ad verək?! Axı təbiətlə cəmiyyət arasında tarazlığın pozulması nəinki bütün canlılar, hətta insanın özü üçün də təhlükəyə çevrilir. Gözləyirik və əminik ki, aidiyyəti qurumlar bu məsələnin dərinliyini anlayacaq və öz üzərlərinə düşən vəzifəni doğru-düzgün yerinə yetirəcəklər.

Unutmamalıyıq ki, nəzarətsizlik və məsuliyyətsizlik Yer üzündə həyatın məhvini tezləşdirir. Buna görə də artıq “Həyəcan təbili” çalmağın vaxtıdır, bəlkə də bir az gecikmişik...

Sonda qeyd edək ki, sözü gedən məsələ ilə əlaqədar 5 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsinin mövqeyini öyrənmək çəhdimiz alınmadı. Halbuki Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 2023-cü il 13 fevral tarixli 126/Ü nömrəli Əmri ilə təsdiq edilmiş Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 5 saylı Regional Ekologiya və Təbii Sərvətlər İdarəsi haqqında Əsasnaməyə əsasən, İdarənin xidməti ərazisi Xaçmaz, Quba, Qusar, Siyəzən, Şabran inzibati rayonlarını əhatə edir və İdarə öz xidməti ərazisində, o cümlədən Xəzər dənizinin bu zonaya aid hissəsində ətraf mühitin mühafizəsi, təbii ehtiyatların monitorinqi və təbii ehtiyatlardan səmərəli istifadə olunması sahəsində sahələrarası idarəetməni və dövlət nəzarətini həyata keçirən səlahiyyətli orqandır...

**E. ŞİRİNOV**

# Xətai rayonunda sakinlərə zülm yaşadan tikinti şirkətindən DİN-ə və PA-ya şikayət edildi

## Bəs ağırtonnajlı yük maşınlarının hərəkət istiqamətini niyə dəyişmirlər?

**Bakının Xətai rayonunda Afiyəddin Cəlilov-Natiq Əliyev-Fəzail Bayramov küçələrinin qovşağında (kəsişməsində) vaxtilə Ədliyyə Nazirliyinin “Qadın türməsi” yerləşirdi. Paytaxtın bu mərkəzi hissəsində (8 noyabr prospektində-”Qənimətlər parkı” ilə üzbəüzdə) yerləşən bu həbsxana neçə ildir Kürdəxanıya köçürülüb.**

5 zolaqlı olan, lakin sonradan AYNA tərəfindən 40 faiz daraldılaraq velosiped və BUS zolağına bölüşdürülən Afiyəddin Cəlilov küçəsi hazırda Bakının ən çox tıxaclı ərazisi sayılır.

Gəlirik mətləbə: qadın həbsxanası köçürüləndə bu ərazidə yaşayan sakinlər, necə deyərlər, imamlara, seyyidlərə, pirlərə nəzir deyərək Allaha dua ediblər ki, bu ərazidə park salınsın. Niyə? Çünki həm “Qənimətlər parkı” ilə harmoniya təşkil edər, həm də tıxaclı A.Cəlilov küçəsi yaraşığa minər... Amma, necə deyərlər, sən saydığını say, gör bu ərazidə göydələn tikmək arzusunda və iştahında olan, adı bizə də bəlli tanınmış məmur və iş adamı nə sayır!

Beləliklə, artıq üç aydır ki, bu əraziyə ağır texnikalar yeridilib, ağır tonnajlı yük maşınları cəlb edilib, dərin quyulara (özüllərə) beton vuran texnikalar işə başladı. Məlum oldu ki, hələ indi 1 kvm. sahəsi 5 min manatdan deyilən bu ərazidə göydələnli mənzillər tikiləcək. Və artıq tikilir də.

Tiksinlər, Dövlət Şəhərsalma və Tikinti Komitəsinin isə yəqinki vecinə deyildi ki, gələcəkdə bu ərazinin bu cür göydələnlərlə doldurulmasının tıxacla bağlı hansı fəsadları olacaq...

### Sakinlər bezib köçmək istəyir...

F.Bayramov və Sabit Orucov küçələrində yaşayan sakinlərin isə artıq canı boğazına yığılıb. Təxminən 3 hektarlıq ərazidə dərinliyi 8-10 metr olacaq bünövrədə dərin özüllər qazan ekskovator və su laylarını aşkarlayan xüsusi, zəlzələ effektli texnikaların titrədici fəaliyyəti bu ərazidə yaşamağı mümkünsüz edib. Yəni, dünya təcrübəsində Bakıdakı kimi tikinti özbaşınalığı varmı görəsən ki, sakinlərin yaşadığı binanın 5 metrliyində yeraltı qurğularla işləyən texnikanın səsi və titrəyişi səhərdən axşama, gecədən səhərə kimi davam etsin, ağır tonnajlı texnikaların tırıltısı, gurultusu və ətrafa










səpələnən toz-torpağı isə uşaq-qoca demədən, insanları yaşamaqdan bezdirsin?!

Sakinlərin bəziləri artıq kirayə ev axtarışındadır, yaxud gecələr qohum-qardaş evində yatmağa məcburdur...

### Daxili İşlər Nazirliyinin 102 xidmətinə şikayət edildi ki...

Dünən Fəzail Bayramov küçəsində yaşayan sakinlər gecə saat 2 radələrində belə oyaq idi. Onların yuxusunu ərşə çatdıran isə ağır tonnajlı yük maşınlarının gurultusu və daşıdıqları neftlə çirklənmiş torpağdan qopan kəskin turşu iyi idi. Sakinlər “Təzadlar”a bildirdilər ki, neçə vaxtdır məcbur olub bu tikintinin sahibini axtarsalar da iş icraçıları və fəhlələr onun kimliyini hərbi sirr kimi gizli saxlayırlar. Odur ki, dünən gecə saatlarında DİN-nin 102 xidmətinə şikayət edilib, az keçmiş ərazinin sahə rəisi tikinti sahəsinə gəlib, ağır tonnajlı yük maşınlarının istiqaməti qismən dəyişdirilib, amma gecə keçənədək bu yükdaşıma davam edib, vətəndaşların da haqlı şikayəti...

### Sakinlər Prezident Administrasiyasına üz tutmağa qərar verib...

Bu gün isə məlum oldu ki, Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri Anar Quliyevə ünvanlı müraciət hazırlayıb komitənin saytına elektron qaydada göndəriblər, şikayət ediblər, telefonlarına və qaynar xəttinə bildiriblər (Telefon (+994 12) 595 13 50 Qaynar xətt (+994 12) 597 00 47 ). Yəni, Bakıda tikinti texnologiyası belə olmalıdır ki, sakin yaşadığı halda mənzilinin 5 metrliyində ağır texnika aylardır yer deşir, ağırtonnajlı yük maşınları isə torpaq, neftlə çirkli torpağı ətrafa səpələyə-səpələyə gecə-gündüz daşıyır?!

***

Sakinlər əməkdaşımıza onu da bildirdilər ki, körpə uşaqların bu səs-küydən səhhətində problemlər də yaranıb, bəziləri uşaqları mərkəzdən kənar qohum evlərinə göndərməyə məcbur olub. Yayın istisində isə pəncərələri toz və iy-qoxudan açmaq mümkün deyil.

### Bir sözlə, sakinlər bu ərazidə cəhənnəm əzabını çəkməkdədir. Niyə? Çünki kimsə burada özü üçün gəlir mənbəli göydələn tikir!!!

Sakinlər bu gün redaksiyamıza bildirdilər ki, əgər belə davam edəcəksə, Prezident Administrasiyasına şikayət etməyə və PA-da qəbula getməyə məcburdurlar.

**Bəs bu zülmün müəllifi kimdir və ya hansı şirkətdir?**

“Təzadlar”ın Araşdırma Qrupu bu gün həmin ərazidə oldu. Əməkdaşımız Elçin Məmmədli də bu şirkətin sahibinin adını və kimliyini öyrənə bilməyib, eləcə də şirkətin hüquqi ünvanını. Çünki Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin gözündən “yayınan” şirkət rəhbəri qaydalara əməl etmədən burada məlumat lövhəsi belə asmayıb. Amma hələ bünövrə qazılmaqda və ətraf sakinlərə cəhənnəm əzabı yaşadılmaqda ikən, ingilis dilində “Prospekt” (“Avenue”) sözləri həkk olunmuş iri plakatların üzərində başqalarının rahatsızlığı üzərində ərsəyə gələcək mənzillərin satışını elanlayan *8008 çağrı mərkəzi fəaliyyətə başlayıb. Fotoşəkillərdə isə göründüyü kimi, şirkətin adı qeyd edilməsə də, plakatların üzərinə ətrafda zülm çəkən sakinlərə təsəlliverici “Zərif zövqün sirri”, yaxud “Həyatın zərif sirrini yaşa” kimi bədii sözlər həkk olunub...

**Bəs ağırtonnajlı yük maşınlarının hərəkət istiqamətini niyə dəyişmirlər?**

Əməkdaşlarımız tikinti meydançasını müşahidə edərkən maraqlı fakta rast gəliblər. Məlum olur ki, tikinti şirkətinin rəhbərliyi yük və ağır texnikaların hərəkəti ilə məhz sakinlərə rahatsızlıq verən darvazanı Fəzail Bayramov küçəsinə açıb. Halbuki əks tərəfdə-Natiq Əliyev küçəsində isə zibilxana və hansısa köhnə uçuq-sökük tikililər olan ərazi var, darvazanı həmin yerə salmaq olardı. Bəs niyə etməyiblər? Görünür, kimlərsə vətəndaş məmnunluğuna haram qatmaq niyyətindədir və kefi belə istədiyindən belə də edib.

Amma elə deyil. Yüzlərlə ailənin yaşadığı F.Bayramov küçəsində artıq ağır texnikaların intensiv hərəkətindən asfatl yol da çat verib... Bu isə o deməkdir ki, dənizə yaxın ərazi olan bu yerdə yeraltı suxurlar yerindən oynayıb.

Görünür, bu, həm də bu rahatsızlığın müəllifi olan iş adamının və onun arxasında duran, adı bizə də məlum məmurun da yerindən tərpədilməsinə bir işarədir! Ölkə Prezidentinə kütləvi şikayət kimə lazımdır??? Sual budur...

Mövzuya qayıdılacaq.

**“Təzadlar”ın Araşdırma Qrupu**

# “Sədərək”də yanğın: insanların laqeydliyi, FHN-nin gecikməsi və sahibkarların kül olmuş malları...

*Milyonlarla manatlıq zərər, görünməyən məsuliyyət...*




**...Ötən gün səhər saat 11 radələrində “Sədərək” Ticarət Mərkəzində yanğın baş verdiyini eşidərək dərhal media nümayəndəsi olaraq (tezadlar.az-ın əməkdaşı) hadisə yerinə getməli oldum... TM-nin şirniyyat mağazasının arxa tərəfində alov və tüstü ərşə qalxırdı. Hadisə yerində gördüyüm mənzərə isə məni çox təəccübləndirdi: insanlar qaçmaq və kömək çağırmaq əvəzinə, telefonlarını çıxarıb çəkiliş aparırdılar. Sanki yanğını yox, maraqlı bir şounu izləyirdilər. Maraqlanıb soruşanda ki, “Qardaş, nə yanır, kimsə zəng edibmi yanğınsöndürənə?”, cavabında gülərək deyirdilər: - “Onlar, ancaq hər şey külə dönəndən sonra gələcək”.**

Təəssüf ki, bu ironiyanın arxasında acı həqiqət vardı. Mən günorta saatlarında müşahidələrimi aparıb, peşə borcumu yerinə yetirəndən sonra ərazidən çıxdım, amma alov axşama qədər davam etdi... Hətta gecə saat 11-də belə sosial şəbəkələrdə canlı kadrlarda davam edən yanğının görüntüləri paylaşılırdı. Bu gün isə məlum oldu ki, yanğınla mübarizə hələ də davam edir.

***

Yanğın baş verən ərazidə olduğum müddətdə cəmi bir yanğınsöndürən maşınının gəldiyini gördüm. O da tələskənlik olmadan, qəza siqnalını belə vermədən hərəkət edirdi. Sanki belə də olmalı idi və bu yanğınsöndürən yanğını söndürməyə deyil, toya-bayrama gedirdi... Ən maraqlısı, həmin maşın da yolda tıxaca düşüb geri qayıtdı. Təxminən bir saat sonra isə başqa bir fövqəladə hallar maşını gəldi və o da tıxacda ilişib qaldı. Alov isə yanmaqda və güclənməkdə idi.

***

Sonradan məlum oldu ki, yanğın anbardan başlayıb. Zərər çəkənlər arasında “Supertoys” MMC-yə məxsus anbar və həmin ərazidə əlavə 10-a yaxın digər şirkətlərə məxsus anbarlar fəaliyyət göstərirmiş. Yəni, söhbət təkcə bir sahibkarın zərərindən yox, onlarla insanın illərlə qazandığı sərvətinin məhv olmasından gedirdi. Qeyd edək ki, “Supertoys” MMC-nin qanuni təmsilçisi Xəqani Cəfərov, şirkətin icraçı direktoru isə Səidə Fətullazadədir. Əslində bu yanğının ən azı insan sağlamlığına və ekologiyaya vurduğu ziyan ayrıca mövzudur. Adicə bir köhnə təkərin yandırılmasına görə vətəndaşlara küllü miqdarda cərimələr tətbiq olunur. Halbuki, “Sədərək”də göyə qalxan qara tüstü yalnız sahibkarların malını deyil, paytaxtın havasını da zəhərlədi, Sumqayıta qədər uzanıb getdi... Bu miqyasda yanğın atmosferə tonlarla zərərli maddə buraxdı, ətraf mühitin çirklənməsi və insanların sağlamlığı üçün təhlükə yaratdı.

Suallardan biri də budur: kiçik zibil və ya balaca bir təkəri yandırmağa görə cərimə yazan qurumlar niyə belə hallarda sərt və prinsipial addım atmır? Ən azından ekologiyanın xətrinə, eyni havanı udmağımızın xətrinə məsuliyyətli mövqe sərgilənməlidir axı. Bu cür fəlakətlərə belə laqeyd yanaşmaları gördükdə, təhlükəsizlik üçün yardımı hardan alacağımız sual altında qalır. Axı çox çətin deyil: şəhərin hər yerində yanğınsöndürən maşınlarının su doldurması üçün qırmızı hidrantlar var, bəzən də heç də lazımsız yerlərdə. Niyə onların bir neçəsi məhz “Sədərək”in anbar massivində quraşdırılmır? Əgər vaxtında belə tədbirlər görülsəydi, nə sahibkarların malı külə dönərdi, nə də paytaxtın havası bu qədər zəhərlənərdi. Bu, artıq “Sədərək”də ilk yanğın deyil. Hər dəfə eyni ssenari təkrarlanır: yanan obyektlər, gecikən müdaxilə, sahibkarların göz yaşları və külə dönən mallar.

***

Bəs niyə Azərbaycanın ən böyük ticarət mərkəzi - milyonlarla, milyardlarla malın saxlandığı bazar - hələ də təhlükəsizlik baxımından bu qədər səhlənkardır? “Sədərək” Yusif kimi tanınan sahibkarın işi elə ticarətçilərdən ianə-icarə haqqı toplamaqdırmı???

Yenə də deyirəm, şəhərin müxtəlif yerlərində yanğınsöndürən maşınlarının su doldurması üçün quraşdırılmış qırmızı hidrantlar var. Amma nə üçün “Sədərək”də bu sistemlər yoxdur? Bu qədər məsuliyyətsizliyə niyə yol verilir? Əgər belə bir obyektin rəhbərliyi sahibkarların mallarının qorunmasına məsuliyyət daşımırsa, onda hər dəfə milyonlarla manatlıq zərərə kim cavab verəcək?

Fövqəladə Hallar Nazirliyi açıqlama yayaraq bildirdi ki, yanğının söndürülməsi üçün 30-a yaxın texnika və 140 nəfərlik şəxsi heyət əraziyə cəlb olunub. Rəsmi bəyanatlarda hər şey qaydasındadır. Amma real vəziyyətdə niyə ilk saatlarda operativ reaksiya göstərilmir? Niyə yanğın hər dəfə böyüyür, nəzarətdən çıxır və yalnız saatlarla sonra alovun qarşısı alınır? Özü də hər şey külə dönəndən sonra... Külü söndürməyə nə var ki! Saatlarla sonra dedikdə də, hətta gecə saatlarında da yanğın davam etməkdəydi. Nəticədə isə “Sədərək”-də yanğın artıq sadəcə bir bazar faciəsi deyil, təhlükəsizlik siyasətinin, sahibkarların hüquqlarının və bəzi dövlət məmurlarının məsuliyyətinin necə işlədiyinin göstəricisinə çevrildi. Təəssüf ki, nəticə hər dəfə eyni olur: mallar yanır, sahibkar zərər görür, amma məsuliyyət daşıyanlar cəzalandırılmır.

**Elşad**

# Üzeyir bəyin ölümündə

**...Axşama yaxın gediş-gəliş səngimişdi, ətrafda sakitlik hökm sürürdü. Sərt payız küləyi əssə də, lakin otaqda divar sobası yandığından bayırdakı soyuqluq hiss olunmurdu. Mələykə xanım da adəti üzrə bəstəkarın otağında olan müxtəlif səpkili yazıları səliqəyə salmaqla məşğul idi. İşlərini başa çatdırdıqdan sonra bəstəkarın yuxuya getdiyini zənn edib, barmaqlarının ucu ilə sakitcə otağı tərk etdi.**



Bəstəkar otağda tək qaldığına əmin olduqdan sonra uzandığı dəmir çarpayıdan yarı qalxmış vəziyyətdə yastığa söykəndi. O ətrafına yenidən göz yetirdi, heç kəsi görməyəndə dərindən nəfəs aldı, ürəyi bir az sancdı və ani olaraq dostu Səməd Vurğuna nə vaxtsa dediyi sözü xatırladı: "Köçmək gərək bu dar fənadan yayaş-yavaş". Sonra da nədənsə ixtiyarsız olaraq kövrəldi... və bir anlığa acılı-şirinli günlərinə boylanmalı oldu.



*...Dahi bəstəkar son günlərini yaşayırdı. Yanına gəlib-gedənlərin ardı-arası kəsilmədiyindən narahatçılığı get-gedə artırdı. Heç kimlə görüşmək iqtidarında deyildi. Yalnız tək qalıb keçmişə boylanmaq, ağrılı-acılı günlərini xatırlamaq istəyirdi. Lakin heç vəchlə asudə vaxt tapa bilmirdi...*

Bəstəkarı ilk professional əsər yazmağa həvəsləndirən böyük ədib, "Əkinçi" qəzetinin redaktoru olmuş Həsən bəy Zərdabinin "Sən elə bir teatr yaz ki, istirak edənlər oxusunlar" sözləri indi də qulaqlarından getmirdi. Bir müddət sonra dahi Azərbaycan şairi Məhəmməd Füzulinin eyni adlı poeması əsasında məşhur "Leyli və Məcnun" operası tamaşaya qoyulsa da, lakin çox təəssüflər olsun ki, ustadın bu arzusu onun ölümündən 45 gün sonra həyata keçir...

Əsərin səhnəyə yol tapması bəstəkara o qədər də asan başa gəlmədiyini xatırlayır. O ilk növbədə, operada oynanılacaq rollara aktyor tapmaq üçün gözəl səsə malik olan ifaçılar cəlb etməli idi. Ələlxüsus tamaşada oynanılacaq qadın rolu üçün ifaçı tapmaq müşkül məsələ idi. Məlum məsələ idi ki, o dövrdə qadın rollarını yalnız kişilər oynamalı idi. Uzun axtarışlardan sonra çayçı şagirdi olmuş Əbdürrəhim Fərəcovu Leyli rolunu oynamağa razı salır. Lakin biləndə ki, o qadın paltarı geyinəcək, xüsusilə də bığlarının üstü örtüləcək bu işə heç bir vəchlə razı olmurdu. Çünki belə bir qiyafə kişi üçün ən alçaq, rəzil hal sayılırdı...

**Bəs səbəb nə idi ki, operada bir müddət Ceyhun bəyin adı əsl müəllifin adı ilə birgə yazılırdı?**

Gözlənilən gün gəldi. 12 yanvar, 1908-ci il. Azərbaycan musiqi mədəniyyəti tarixinə qızıl hərflərlə yazılacaq gün. Həmin gün "Nicat" cəmiyyətinin təşəbbüsü ilə H.Z.Tağıyev teatrında, Azərbaycan dilində dahi şair M.Füzulinin məhəbbət dastanı olan "Leyli və Məcnun" əsəri ilk dəfə olaraq geniş səhnə həyatı yaşayır. Əsərin oynanılmasına üç gün qalmış Şamaxıdan Abbas Səhhət tamaşaya baxmaq üçün lojada ona yer saxlamağı da xahiş etmişdi. Bəstəkar tamaşa haqqında tərif dolu məqalələrlə yanaşı haqsız, qərəzli yazıları da xatırladı. Onun bu xatirələr işığında hiss olunmayacaq dərəcədə dodağı qaçdı, üzündə acı bir təbəssüm yarandı...

***

Dövrünün qaragüruhçu, xəbis insanların ona qarşı etdiyi haqsızlıqları vərəqlədikcə əsərin səhnəyə qədəm qoymasından bir əsrdən çox keçməsinə baxmayaraq, Üzeyir bəyə hücumlar səngimək bilmir. Həmin hadisələrdən bir əsrdən çox keçməsinə baxmayaraq, artıq indi Üzeyir bəyin yuxarıdakı acı təbəssümünü başa düşmək çətin deyildu.

Qələmini hörmətlə yanaşdığım, istedadlı qələm dostlarımdan biri (dünyasını dəyişdiyindən adını çəkmək istəmirəm, hərçənd ki, sağlığında mübahisə zamanı adını mətbuatda çəkmədiyim üçün məni qınamışdı) "Azərbaycan diasporu tarixindən" kitabında gedən kobud təhrifləri təsdiq etmək, Salman Mümtaz adına ADƏİnin arxivində olan sənədləri bildiyi kimi izahını qələmə aldığı məqalədə verməklə ictimaiyyəti çaşdırmağa səy göstərirdi.

Müəllif məqaləsində iddia edir di ki, Üzeyir bəy Hacıbəyli "Leyli və Məcnun" operasını guya kiçik qardaşı Ceyhun bəylə birgə yazmışdı. Yazını oxuduqca təəccüb məni bürüdü. Dostum "Leyli və Məcnun" operası ilə bağlı (ruhu məni bağışlasın) elə təhriflərə yol verirdi ki, istər-istəməz onun bu məqaləsinə məndə bir təəssüf hissi yaratdı. Birtəhər yazını oxuyub başa çıxandan sonra öz-özümə dedim:- Üzeyir bəy, yaşadığın qanlı-qadalı bir dövrdə bu qədər əzab-əziyyətlərə, böhtanlara məruz qalmamısan, lakin biz övladlar sənin kölgəni də qılınclaya-qılınclaya çapırıq. Bu qədər də simasızlıq, nankorluqmu olar? Nə vaxta qədər biz sənin dünya şöhrətli əsərlərinə yamaq vuracağıq? Nə vaxta qədər böhtan dolu yazılarımızla bizə qoyduğun ədəbi irsinə böhtan atmaqla sənə meydan oxuyacağıq. Guya ki, biz sənin Azərbaycan xalqına qoyduğun zəngin irsdən çox iş görmüşük?..

Qeyd etmək lazımdır ki, ilk Azərbaycan operasının yaranmasında Ceyhun bəyin fəaliyyətini danmaq olmaz. Həmin əsərin tamaşaya qoyulmasında nəinki xüsusi xidmətləri olmuş, hətta gözəl musiqi duyumuna və səsə malik olan Ceyhun bəy əsərdə İbn-Səlamı da oynayıb. Müəllifə haqq qazandırmaq olar ki, Ceyhun bəyin həm müəllif kimi adı o dövrün afişalarında, proqramlarında yazıldığı halda, lakin 1922-ci ildən sonra yalnız Üzeyir bəyin adı saxlanılıb. Oxucuların nəzərini "Leyli və Məcnun" operasının səhnə üzü görməsindən üç gün əvvəl, yəni 1908-ci il yanvar ayının 9-da "Kaspi" qəzetində çap olunan xəbərə yönəltmək istərdim. Orada deyilir: "Nicat" müsəlman xeyriyyə cəmiyyəti ən yaxşı dram və opera əsəri üçün müsabiqə elan edib. Bu günlərdə o, tatar (Azərbaycan - A.K.) dilində gənc publisist və musiqiçi Ü.Hacıbəyovun tərtib etdiyi "Leyli və Məcnun" operasının quruluş və nəşr haqqını almışdır. Bu, müsəlman aləmində ilk operadır. Özü də şənbə günü, yanvar ayının 12-də Tağıyev teatrının səhnəsində oynanılacaq".

Sual olunur, Ceyhun bəy əgər 16 yaşında opera yazmışsa, nə üçün "Leyli və Məcnun"dan əvvəl və ya sonra bir dənə də olsun nəinki opera, heç mahnı da bəstələməmişdi? Axı ilk operadan sonra Ceyhun bəy ömrünün qalan 54 ilində ona bir musiqi əsəri yazmağa nə mane olurdu? Bu dövr ərzində Ceyhun bəyin musiqi yazmamağının səbəbini bilmək üçün vaxtı ilə Azərbaycana qonaq gəlmiş nəvəsi Ceyhun bəyin (Jan Klimanın) 8 noyabr 2001-ci il tarixli "Bizim əsr" qəzetinə verdiyi müsahibəsini xatırlatmaq istərdim:

"Sual: Babanızın musiqi təhsili var idi?

Cavab: Xeyr! O heç bir musiqi alətində çala bilmirdi. Sadəcə, babamın çox gözəl musiqi duyumu var idi.O bilirdi ki, harada "Bayatı-Şiraz", harada "Şur" oxumaq lazımdır".

***

Bəs səbəb nə idi ki, operada bir müddət Ceyhun bəyin adı əsl müəllifin adı ilə birgə yazılırdı?

***

Dahi bəstəkar son günlərini yaşayırdı. Yanına gəlib-gedənlərin ardı-arası kəsilmədiyindən narahatçılığı get-gedə artırdı. Heç kimlə görüşmək iqtidarında deyildi. Yalnız tək qalıb, keçmişə boylanmaq, ağrılı-acılı günlərini xatırlamaq istəyirdi. Lakin heç vəchlə asudə vaxt tapa bilmirdi...

Bəs səbəb nə idi ki, opera bir müddət Ceyhun bəyin adı əsl müəllifin adı ilə bir yazılırdı? 27 mart 2002-ci il tarixdə "Xalq qəzeti"ndə dərc edilmiş bir məqaləyə nəzər yetirək: "...Ramazan Xəlilov (Ü.Hacıbəylini yaxşı tanıyan, böyük baldızının oğlu, bəstəkarın ev-muzeyinin direktoru olmuş, Əməkdar mədəniyyət işçisi, jurnalist, 97 yaşında dünyasını dəyişib - A.K.) xatirələrində qeyd edirdi ki, Üzeyir bəy Hacıbəyov Moskvada, Peterburqda təhsil alarkən Bakıda və başqa şəhərlərdə oynanılan tamaşalarından qanorarları almaq üçün M.Maqomayevi (bəstəkarın bacanağı - A.K.) öz vəkili, C.Hacıbəylini isə müəllif kimi qeyd etdirmişdir ki, onlar həmin məbləği ona və ailə üzvlərinə çatdırsınlar"...

***

Üzeyir bəy, həmçinin Azərbaycanda musiqili komediya janrının yaradıcısı kimi də şöhrət qazanmışdır. Maraqlıdır ki, komediyaların mətnini də Üzeyir bəy özü yazırdı. Onun "Ər və arvad", "O olmasın, bu olsun", "Arşın mal alan" komediyalarında Azərbaycanın məişəti, xalq adət-ənənələri öz əksini tapmışdır. Qeyd etmək lazımdır ki, dahi bəstəkarın yaradıcılığına bu və ya başqa dərəcədə qısqanclıq hər zaman hakim olub. Fitri istedada, ensiklopedik biliyə malik olan sənətkar elmi-publisistik yazılarına, musiqi və bədii yaradıcılıqda qazandığı yüksək nailiyyətlərə görə bir qrup "tənqidçilər" tərəfindən qısqanclıqla qarşılanmış, sistemli şəkildə tənqid olunmusdur... Dahi bəstəkar vaxtı ilə qələmə aldığı "Arşın mal alan" operettasına qarşı edilən hər cür haqsızlıqları düşündükcə qəlbi sıxılmağa başladı. Bu əsər qəribə bir tale yaşamışdı. 1913-cü ildə Peterburqda təhsil alan Üzeyir bəy həmin ilin 30 iyulunda H.Sarabskiyə göndərdiyi məktubda "Arşın mal alan" adlı operetta üzərində işlədiyindən xəbər verirdi. Əsəri sentyabr ayına qədər göndərəcəyini və tezliklə tamaşaya qoyulmasını istədiyirdi. 25 oktyabr 1913-cü ildə H.Z.Tağıyev teatrında Ü.Hacıbəylinin Peterburqda təzəcə yazıb göndərdiyi 4 pərdəli "Arşın mal alan" operettası tamaşaya qoyulur. Müəllif Bakıda olmadığından tamaşanın ağırlığı Hüseynqulu Sarabski və Müslüm Maqomayevin üzərinə düşür. "İqbal" qəzeti Hacağa Abbasovun tamaşada oynamayacağı barədə məlumat verir. Əsas rolun ifaçısı bu addımı atmaqla kollektivi pis vəziyyətdə qoyur. Lakin H.Abbasovun bu "şıltaqlığına" baxmayaraq tamaşa baş tutur.

25 oktyabr 1913-cü ildə "Sədayi-həqq" yazırdı: "... Məzkur operettanın məzmunu çox mənfəətli və xoşayənd olmaqla bərabər həm də mövsümə müvafiq bir şeydir. Toy mövsümü. Dörd toy bir gündə operetta oynayır. Bu operetta Üzeyir bəyin başqa əsərləri kimi tamam musiqi dəstəsi, tar və kamança istirakı ilə oynayır".

Həmin qəzet 27 oktyabr tarixli məqaləsində yazırdı: "Zəmanəmizin bu mühüm məsələlərindən və müsəlmanlarda indiyədək naçar halda qalmış evlənmək məsələsinin və müsəlmanlarda bu halda olan sayğının qüsurunu Hacıbəyov ("Arşın mal alan" əsərində - kursiv mənimdir A.K.) fövqəladə bir məharətlə təsvir edib...".

# günahkar kim idi?

*“Niyazi Üzeyir bəyin qardaşının ögey oğludur. Bunun nə qədər doğru olub-olmadığını deyə bilmərəm, lakin keçən əsrin 70-ci illərində Niyazinin afişalarında soyadı Tağızadə-Hacıbəyov yazılırdı”*

Qeyd etdiyimiz məqalələrlə yanaşı, Üzeyir bəy yaradıcılığına yuxarıda qeyd etdiyimiz kimi bir tərəfli münasibət bildirən “yazarlar” da “peyda” olmusdur. Bu baxımdan “H.Q.” (Hacı İbrahim Qasımov - A.K.) imzası ilə yazılan məqalədən bir parçaya diqqət edək: “... Arşın mal alan” operettası bir dərəcə “fars” (burada ələ salmaq, məsxərəyə qoymaq mənasında islənib - A.K.) tamaşalarına oxşayır - desək zənn edirik ki, xəta etməmiş olarıq. Belə tamaşaları müsəlmanlara göstərmək xətadan xali deyildir. Belə tamaşalar millətin əxlaqını pozar, ona indiki halından bətər bir hala salar. Burası inkaredilməz bir həqiqət olsa gərəkdir...”.

Basqa bir məqalədə isə A.B.Yusifov soyadlı şəxs yazır: “... Operetta (“Arşın mal alan”-A.K.) musiqi cəhətdən zəifdir. Cəsarətlə demək olar ki, bu operetta deyil, musiqili farsdır”.

Bir-birinin əksi olan bu məqalələrə baxmayaraq tamaşa xalq tərəfindən rəğbətlə qarşılanır və bu əsərin təkrar oynanılması üçün tamaşaçıların xahisləri nəzərə alınırdı. Təsadüfi deyil ki, tamaşanı təkrar oynanılması haqqında “Sədayi - həqq” qəzeti yazırdı: “... “Arşın mal alan” camaata çox xoş gəlib təkrar oynanılmasını xahiş etdiklərinə görə cümə günü noyabrın 8-də ikinci dəfə oynanacaqdır...”.

...Üzeyir bəy mühacirət həyatı yaşayan kiçik qardaşı Ceyhuna yazdığı müxtəlif səpkili məktublarını xatırlayır və ixtiyarsız olaraq gözləri yaşarır, illərlə arzuladığı, görüşünü səbirsizliklə və həsrətlə gözlədiyi, sonda ümidsizliyə uğradığını artıq indi hiss etməyə baslayırdı... Üzeyir bəy 1920-1930-cu illərdə uzun müddət həsrətində olduğu Ceyhunun yazdığı məktubları son günlər daha tez-tez xatırlamağa baslamısdı. Həmin yazılarda yalnız bala fəryadı, qardaş dərdi, uzun müddətli ayrılıq, hökümət adamlarının bu həsrətə son qoymaq üçün verdikləri “vədlər” məktublarda öz əksini tapmısdır.

O, bu son dəqiqələrdə artıq evin sonbeşiyinin üzünü bir daha görməyəcəyinə əmin olurdu. Hiss edirdi ki, anası kimi o da bu dünyadan niskilli gedir. Biri övlad, digəri isə qardaş niskili ilə... Damla-damla, misqal-misqal “toplayıb yığdığı” təhqirlər, hədələr öz işini görürdü. Çətin, ağır həyatın dərdlərini qəlbində yaşadan Üzeyir bəy məhz buna görə də dostuna “bu dar fənadan” tezliklə ayrılıb, haqqın dərgahına qovusmaq arzusunu bildirirdi...

***

Üzeyir bəyin bu dar fənadan köçməyə məcbur edənlər kimlər idi? Nə istəyirdilər dahi sənətkardan? Qarşımda olan xatirə dəftərini vərəqləyirəm. Bu Üzeyir bəyin sevimli tələbəsi olmuş, uzun müddət bəstəkardan atalıq qayğısı görmüş, bəstəkar Hökümə Nəcəfovanın xatirələrindəndir. Hökümə Nəcəfova kimdir? Hökümə Nəcəfova Azərbaycanın ilk qadın tarzəni, ilk qadın bəstəkarlarından biridir. Hökümə Nəcəfova 1915-ci ildə Bakıda anadan olub. Azərbaycan Dövlət Konservatoriyasında həm bəstəkarlıq, həm də tar bölməsində təhsil alıb. Dahi bəstəkar Üzeyir bəy Hacıbəylinin sevimli tələbələrindən olub. O, bir çox məşhur mahnıların müəllifidir. Onun bəstələdiyi mahnıları görkəmli sənətkarlar - ifa ediblər. O 2002-ci ildə 87 yaşında dünyasını dəyişib...

***

...Xatirə dəftərini vərəqlədikcə əsəblərim gərilir. Özümü çığırmaqdan güclə saxlayıram. Üzeyir bəyə qarşı bu haqsızlıqların nədən irəli gəldiyini düşünürəm. Kimlərdir bu haqsızlıqların səbəbkarları? Peyğəmbər yaşında ömür sürmüş bu böyük sənətkara kumlərdir haqsızlıq edənlər? Dahilərdən birinin sözünü xatırladım: “Məni dostlarımdan qoru, düşmənimlə özüm bacararam”. Dogma bildiyi tələbəsi, əsərləri ilə məşhurlaşan, müxtəlif orden və medallara layiq bilinən “professor”, ən nəhayət özünə dogma bilsə də doğmalıqdan uzaq olan “övladı”. Fikrim aydın olmaqdan ötrü böyük sənətkarın ölümünə fərman vermiş hadisələrə nəzər yetirək:

-Qara Qarayev Azərbaycan Dövlət Konservatoriyasını bitirəndə 5 hissədən ibarət bir simfoniya yazır. Fvə filormoniyada yenicə bitirilmiş əsərin müzakirəsi gedir. Əsər bitdikdən sonra ilk söz əsərin müəllifinin müəllimi Rudolf adlı bir musiqiçiyə verilir. Müəllim tələbəsinin simfoniyasını kifayət qədər tərifləyir. Sonda əyləşənlər Üzeyir bəyin fikrini bilmək istəyirlər. Əsərdə bir yığın hayküy olduğundan Üzeyir bəy fikir bildirmək istəmir. O, heç nə demədən filarmoniyanı tərk edir. Əsərin müəllifi Q.Qarayevi yanına









çağırır və deyir ki, get əvvəl xalqın musiqisini öyrən, sonra yaz! Əsəri nə rus, nə gürcü, nə də başqa millətin dinləyicisi başa düşə bilməz. Qara Qarayev Üzeyir bəydən atasına şikayət edir. Atası məşhur həkim olduğundan imkanı geniş idi. Oğluna qulaq asıb deyir: “Oğul, görürəm bəstəkarlıqdan bir şey çıxmayacaq, nə qədər canım sağdır, gəl səni medinstituta (oxu: tibb institutu) qoyum, həkim ol. Qara atası ilə razılaşmır, Bəstəkar olacağını bildirir... Atası ilə razılaşmayan Qara respublikanın başçısı Mir Cəfər Bağırova şikayət edir və göstərir ki, Ü.Hacıbəyov kadrları irəli çəkmir.

Bir qədər keçdikdən sonra Q.Qarayev Cövdət Hacıyevlə birgə opera yazır. Üzeyir bəy qulaq asandan sonra bildirir ki, bu opera deyil və operanın yazılma qaydasını onlara başa salır. Lakin Q.Qarayev bəstəkarın sözünə məhəl qoymur. Opera birinci dəfə səhnəyə qoyulanda kifayət qədər tamaşaçı yığılır. İkinci dəfə 45, üçüncü dəfə isə 12 nəfər tamaşaçı gəlir. O zaman M.C.Bağırova aydın olur ki, əsər səhnə əsəri deyil...

***

...Böyük Vətən Müharibəsi zamanı Konservatoriyanın binası qospital edildiyinə görə müəllimlər dərsi evlərində keçirdilər. Müharibədən sonar isə müəllimlər artıq dərsi Konservatoriyada keçməli oldular. Müəllimlərdən fərqli olaraq müğənni Bülbül dərsi yenə də evində keçirir. Bülbülün tələbələrini müşayiət edən Kazlov adında bir fortapianoçu yağışlı günlərin biri evə daxil olanda ayaqqablarını həmişəki kimi silib içəri keçir. Təsadüfən ayaqqabının ləkəsi parketin üstündə qalır. Bu vəziyyəti görən müğənni Kozlovun qolundan tutub qapıya tərəf aparır və demək istəyir ki, get ayağını sil gəl. Bülbülün bu hərəkətinə dözməyən Kazlovun ürəyində ağrılar tutur. Bu hadisədən sonra bir daha Bülbülün tələbələrini müşayət etməyəcəyini bildirir. Konservatoriyada rəhbərlikdən Bülbülə bildirilir ki, dərsi artıq Konservatoriyada keçilməlidir, lakin o inadından dönmür. Bu zaman Konservatoriyanın direktoru olan Üzeyir bəyə izahatla müraciət olunur. Üzeyir bəy də Bülbülü Konservatoriyada dərs deməyə çağırır. Lakin direktorun müraciətinə rədd cavabı gəlir. Nəticədə Üzeyir bəy onu əmrlə Konservatoriyadan azad edir.

***

Qeyd edim ki, o zaman Bülbülün bir professor kimi məvacibi Konservatoriyada 1000 manat idi. Bülbül Üzeyir bəydən acıq çıxmaqdan ötrü “Koroğlu” operasında oynamağını bildirir. Üzeyir bəy də əhvalını pozmadan “bundan sonra bu operada oynamağı sənə etibar etmərəm”-deyə bildirir. Nəticədə Bülbül M.C.Bağırova şikayət edir. Ölkənin başçısı da Üzeyir bəyin verdiyi əmrdən razı qalmış və demişdir: “Bu haçanın professorudur?...”.

Qeyd edim ki, Hökümə xanım gənc yaşlarında bir müddət filormoniyada işləmişdi. Həmin ərəfədə kamança çalan rəfiqəsi ilə qol-qola gedərkən söhbəti bərk alınır. O zaman Niyazi filormoniyanın rəhbəri idi. Rəfiqələrin gülə-gülə söhbət edərkən səsləri bir qədər bərk alınır. Niyazi gənclərin yüksək tonda danışdığına əsəbləşir və onlara üzünü tutub sərt şəkildə “Mədəniyyətiniz olsun, küçədə yavaş danışın”- deyir. Bu sözdən özlərini təhqir olunmuş hesab edən Hökümə xanım dönüb Niyaziyə “Əcəb eləmişəm” deyə cavab qaytarır.

Bundan sonra Niyazi hər addımbaşı onu aşağılandırmağa çalışır. Buna nail ola bilməyəndə o əmrlə H.Nəcəfovaya töhmət verir. Bu haqsızlığa dözə bilməyən qızcığaz Üzeyir bəyə şikayət edir və bu mənfi münasibətin necə yarandığını ətraflı şəkildə bəstəkara bildirir. Üzeyir bəy “Eybi yoxdur, sabah filormoniyada balaca müşavirəmiz var, deyərəm ona...”-bildirir. Sabahı gün müşavirədə Üzeyir bəyin Niyazi ilə sözləri çəp gəlir. Sonda Niyaziyə “Niyə heç bir əsas olmadan H.Nəcəfovaya töhmət vermisən?”-deyir. Niyazi: “Hökümə kimdir, mən kiməm?” Yəni Hökümə yaddır, mən qohum.

Xatirədə qeyd edilir ki, Niyazi Üzeyir bəyin qardaşının ögey oğludur. Bunun nə qədər doğru olub-olmadığını deyə bilmərəm, lakin keçən əsrin 70-ci illərində Niyazinin afişalarında soyadı Tağızadə-Hacıbəyov yazılırdı. Nə isə...

***

Bundan sonra Niyazi də Üzeyir bəydən acıq çıxmaqdan ötrü M.C.Bağırova şikayət edir. Onu qəbul etmək üçün teleqram vurur. Bu hadisədən sonra M.C.Bağırov Üzeyir bəyi yanına çağırır və ona necə möhkəm açıqlanırsa, Mərkəzi Komitədən çıxanda Üzeyir bəyi paralic vurur.

Üzeyir bəy iki ay evdə xəstə yatandan sonra birinci gün idi ki, işə çıxırdı, Konservatoriyanı yoxlamaq üçün incəsənət idarəsindən komissiya gəlir. İncəsənət idarəsinin vəzifəsinə vaxtilə prokuror işləmiş bir şəxs başçılıq edirdi. (Maraqlıdır prokuror hara - incəsənət hara). Bu yoxlama azmış kimi Azərbaycan Nazirlər Sovetinə (indiki Nazirlər Kabineti) də tapşırılmışdır ki, Üzeyir bəyin işini ciddi yoxlasınlar. Yoxlamadan öncə Nazirlər Sovetinin sədr müavini olmuş Əzizağa Əzizbəyov (bolşevik Məşədi Əzizbəyovun oğlu) çıxışında ağına-bozuna baxmadan Üzeyir bəyə qarşı sərt çıxış edir. Çıxış zamanı müşavirədə Üzeyir bəyin olduğunu gördükdə daha da əsəbləşir. Üzeyir bəy onun hədyan çıxışına fikir verməyib zalı tərk edibmiş. Bu zaman Nazirlər Sovetindən tapşırılır ki, Üzeyir bəy işə çıxan kimi Konservatoriya ciddi yoxlanılsın və nöqsanları üzə çıxartsınlar. Komissiyada Bülbül aktiv iştirak edir. Üzeyir bəy evə qayıdandan sonra halı pisləşir. Moskvanın Kreml xəstəxanasında 8 ay yatır. Evə qayıdandan 2 ay sonra vəfat edir.

Beləcə, 23 noyabr 1948-ci ildə Üzeyir bəyin dəfn günü təyin olunur.

Üzeyir bəy peyğəmbər yaşında dünyasını dəyişir... Dəfn mərasimində bütün Azərbaycan iştirak edirdi. Cənazəni Elmlər Akademiyasının əsas binasının böyük salonuna qoymuşdular. Payız olmasına baxmayaraq hava çox yaxşı idi. Əkillərin sayı-hesabı bilinmirdi... Onu akademiyanın binasından götürdülər. Akademiya gül çələnginə bürünmüşdü. Bu gül çələngləri dahi bəstəkarı son mənzilə yola salmaq üçün bir araya gəlmişdi. Kədərqəm artdıqca, elə bil yer-göy, ətraf bütün aləm ağlayırdı. Akademiyanın salonunda Bülbül Üzeyir bəyin “Sənsiz”ini oxuyurdu.

## “Hər gecəm oldu kədər, qüssə fəlakət sənsiz...”

Bu zaman Azərbaycanın o vaxtkı başçısı M.C.Bağırov içəri daxil olur. Gözlənilmədən Mir Cəfər Bağırovun qəzəbli səsi guruldayır... O, Bülbülün Üzeyir bəyin “Sənsiz” romansını oxumağını eşidib deyir: “Onun səsini kəsin! Kişini öldürdülər, indi də onun “Sənsiz”ini oxuyur”.

Mahnını oxuyan Bülbül ixtiyarsız olaraq susur və qorxudan rəngi saralır. Ayağüstə elə bil keçinibmiş. Yəqin Bağırov özü də Üzeyir bəyə vurduğu zərbədən peşman olubmuş.

Başda M.C.Bağırov olmaqla başqa rəhbər işçilər bəlkə axırıncı dəfə günahlarının bağışlanması və yaxud ehtiramlarını bildirmək üçün tabutun altına girib Üzeyir bəyi son mənzilə yola salmağa gəlmişdilər. O zaman respublikada gedən bütün hadisələrin şahidi və istirakçısı olan M.C.Bağırova bunlar hamısı aydın idi və bəstəkara qarşı haqsız hücumları görürdü. Görünür “Cəllad” kimi qələmə verilən katibin son anda daxili vicdanı onu bu addımı atmağa vadar edirdi...

İllər keçəcək, amma hemin o üç şəxs bilməyəcək ki, təhsil aldıqları və hər gün dərs dedikləri musiqi ocağı dahi bəstəkarın adını daşıyacaq...

Allah rəhmət eləsin!

**Aslan KƏNAN,**
**tədqiqatçı**
**(Xüsusi olaraq “Təzadlar” üçün)**

# Mətbuat yazır, qurum danışır, problem qalır...




**Son illər narahatedici bir tendensiya kök salıb. Hansısa ciddi problem mətbuatda işıqlandırılır. Media öz missiyasını yerinə yetirərək problemi gündəmə gətirir, məsul quruma rəsmi sorğu göndərir. Qurumdan isə təxminən belə bir cavab gəlir: "Bununla bağlı xüsusi işlər görmək barədə müzakirələr aparmaq üçün təxirəsalınmaz tədbirlər planının hazırlanması istiqamətində ciddi addımlar atmağa səylər göstərmək nəzərdə tutulub".**

Qurum cavab verir, amma heç bir cavab almırsan. "Nəzərdə tutulan" bu hər nədirsə, qədim və əlçatmaz bir arzu kimi xəbər lentimizdə itib-batır. Məsələn, aylar əvvəl redaksiyamıza "Bakıkart" terminalına qəpik daxil edə bilməyən sakinlərin şikayəti daxil olmuşdu. Aidiyyəti quruma sorğu göndərdik və belə bir cavab verdilər: "Mövcud texniki nasazlıq səbəbindən dəmir pul daxil edilən hissə müvəqqəti bağlanılıb. Problem aradan qaldırıldıqdan sonra həmin hissə açılacaq".

Başımıza bəla olan bu "müvəqqəti narahatlıq", "müvəqqəti nasazlıq" ifadələri yenə öz sözünü dedi. Amma "Bakıkart" son sözünü deyə bilmədi. Yəni "narahatlıq" aylardır davam edir. Problemin nə vaxt həll olunacağı ilə bağlı cavabları isə yüksək yumor hissi ilə hazırlanıb: "Problemin həlli mərhələli şəkildə aparılır". Yəni digər problemləri həll edib ağ günə çıxaraq, sıra sizə də gələcək. Ortada isə nə həll edilən problem var, nə bitən "narahatlıq".

Eyni ilə "Azərsu", "Azərişıq", "Azəriqaz"... Fərq eləməz, eyni avaz, eyni şablon cümlələr və bu problemlər içində vurnuxan əhali.

Əslində isə, mətbuat xidmətinin işi rəhbərliyin adını "yumaq" deyil, vətəndaşın səsini eşidib, problemi həll etmək üçün real addımlar atmaqdır. Təəssüf ki, bu gün mətbuat xidmətləri əksər hallarda "tədbir görən" yox, "tədbiri ört-basdır edən" struktura çevrilib. Əsas missiyaları qurumlarının reputasiyasını qorumaqdır.

Yollar aylarla, illərlə eyni gündə qalır. Su kəsintisi ilə bağlı xəbərlər tirajlanır, insanlar əziyyət çəkir. Və bu qədər reportajların, yazıların üstündən həmin qurumların "müvəqqəti narahatlıq" karvanı keçir.

Ən təhlükəli məqam budur ki, mətbuat xidmətlərinin bu susqunluğu və ya "cavab vermiş kimi göstərmək" siyasəti insanların dövlətə və ictimai institutlara inamını zəiflədir. İnsan hər dəfə oxuyur, görür ki, problem var, mətbuat yazır, qurum isə yalnız "şablon" danışır. Vətəndaş nəticə görə bilmir və ümidini itirir.

Bu, sadəcə məsuliyyətsizlik deyil - bu, xalqa hörmətsizlikdir. İnsan vergisini ödəyir, haqqı olan xidməti tələb edir, amma qurumlar onun qarşısına "copy-paste" cavabla çıxır.

**Xaliq**

# Azərbaycana gətirilən zəhərli ərzaqlar və dərmanlar - DTX VƏ BAŞ PROKURORLUĞUN DİQQƏTİNƏ!

*Zəhərli ərzaqların gizli marşrutu: sürücünün qan donduran acı etirafları...*

**Azərbaycanın süfrəsinə gələn əksər ərzaqların, içkilərin necə bir yol keçdiyini bilsəydiniz, bəlkə də iştahınız qaçardı. Bəzən ən etibarlı sandığımız məhsulların hansı yollardan, hansı oyunlardan keçərək süfrəmizə düşməsi barədə bir tır sürücüsünün qan donduran etirafları vəziyyətin miqyasını göz önünə gətirir.**

Bəli, bu acı həqiqətləri eşidəndə bir sual beynimizi deşir: artıq kimə güvənək? İnsan sağlamlığı ilə bu qədər oynamaq, ölümlə nəticələnə biləcək qədər məsuliyyətsiz davranmaq necə mümkün olur? Bu işlərə göz yuman, nəzarət etməli olduğu halda susan şəxslər mütləq və mütləq məsuliyyətə cəlb olunmalıdır.

İnsan həyatı bu qədər ucuz və dəyərsiz olmamalıdırmı? Bir qrup işbazın, rüşvətə meyilli məmurun qazancı naminə yüzlərlə, minlərlə vətəndaşın sağlamlığını riskə atmaq təkcə cinayət deyil, həm də cəmiyyətin mənəvi dəyərlərinə xəyanətdir. Axı biz eyni ölkədə, eyni torpaqda yaşayırıq. Bu gün kimin süfrəsinə zəhər qoyulursa, sabah həmin zəhər başqa birinin, elə göz yumanların öz ailəsinin də qapısını döyə bilər.

Ona görə də bir daha deyirik: onlar ən sərt formada məsuliyyətə cəlb olunmalıdırlar! Həm də elə ciddi şəkildə ki, hər kəsə görk olsun. Bu cəmiyyətin heç kimə güzəştə gedəcək borcu yoxdur. Sağlamlıqla, həyatla zarafat olmaz.

Son günlər sosial şəbəkələrdə və ictimai müzakirələrdə ərzaq və dərman təhlükəsizliyi ilə bağlı narahatedici iddialar səslləndirilir. Bir tır sürücüsü Azərbaycana gətirilən yüklərlə bağlı şahidi olduğu faktları bölüşərək ciddi fəsadlara yol aça biləcək halları ictimailəşdirib.

**"Sərhədi guya xəstəlik gəlməsin deyə bağlayırlar, amma xəstəliyi biz özümüz tırlarla ölkəyə daşıyırıq..."**

Onun dedikləri, əslində, qida təhlükəsizliyi, gömrük nəzarəti və ümumiyyətlə, insanların sağlamlığı ilə bağlı ciddi suallar doğurur.

**Sitat:** "Mən bir tır sürücüsü kimi sizə bir sirrin üstünü açacam, Azərbaycana gətirilən zəhərli ərzaqlarla bağlı. Sonuncu səfərdə Saratovda yük axtararkən bizə bildirdilər ki, iki maşın marqarin gətirməliyik. 44 ton marqarin yüklədik, az sonra isə əlavə olaraq daha üç maşın (ümumilikdə 100 tondan çox) marqarin sifariş olundu.Məni ən çox təəccübləndirən isə zavodda gördüklərim oldu. Xatırlayırsınızsa, əvvəllər marqarin kvadrat qablaşdırmada, açıq ağ rəngdə olardı. Amma indi bizim buradakı sifarişçilər Moskvaya zəng edib xüsusi tapşırıq veriblər ki, məhsul 25 kiloqramlıq qutularda, sapsarı kərə yağına bənzər rəngdə olsun. Beləcə, sanki əsl kərə yağına oxşayan məhsul hazırlandı və biz onu Bakıya gətirdik. "Meyvəli"də gömrük yoxlaması zamanı maşının arxası açıldı və yükdən analiz götürüldü. Mən də fürsətdən istifadə edib yağın dadına baxdım. Əsl kərə yağı kimi idi, ilk anda keyfiyyətli təsiri bağışladı. Hətta düşündüm ki, evə də bir az aparım. Amma sənədlərə göz yetirəndə məlum oldu ki, bu, marqarin deyil, onun əvəzedicisidir, təmiz kimyəvi maddə. Yükü daha sonra Hökməlidəki anbara boşaltdıq. Orada maraqla soruşdum ki, bu qədər marqarini nə edirsiniz? Hələ üç maşın da yoldadır... Müdür isə soyuqqanlı şəkildə, qısa cavab verdi ki, "Tort bişiririk." Öz-özümə düşündüm ki, 110 ton marqarinlə neçə milyon tort hazırlamaq mümkündür? Axı bütün Azərbaycan gündə üç dəfə tort yeyir? Nəysə, müdür gedəndən sonra fəhlələrdən biri mənə yaxınlaşdı və gizlicə dedi ki, "Atamın goruna and olsun, yalnız bir müştərimiz var. Həftədə 30 ton bu yağdan götürür, öz aparatında doğrayır və sonra onu "Yeni Zelandiya yağı", "Anchor", "Belarus yağı" adı altında 15-16 manata satır."" Bu etiraf məni daha da sarsıtdı. Deməli, camaatın baha qiymətə aldığı "kərə yağı"nın çoxu, əslində, kimyəvi marqarindir. Və nəticədə ölkədə şəkərli diabet, xərçəng, yüksək təzyiq və digər xəstəliklərin kütləvi artmasının səbəblərindən biri də budur.




**"Bir dəfə də Moskvadan 6 fura "Pepsi Cola" gətirdik. Yükün təyinat ünvanı isə Bakıda yerləşən "Coca-Cola" zavodu idi..."**

Sərhədi guya xəstəlik gəlməsin deyə bağlayırlar, amma xəstəliyi biz özümüz tırlarla ölkəyə daşıyırıq. Bəs dövlət orqanları, sanitariya xidməti hara baxır? Gömrük bunu necə buraxır, necə olur ki, analizlərdən keçir? Xalq bilməlidir ki, süfrəsində "kərə yağı" adı ilə əslində marqarin əvəzedicisi yeyir. Amma bu, təkcə yağla bitmir. Qida sahəsində rast gəlinən saxtakarlıqların miqyası daha genişdir. Bir dəfə də Moskvadan 6 fura "Pepsi Cola" gətirdik. Yükün təyinat ünvanı isə Bakıda yerləşən "Coca-Cola" zavodu idi. Yolda sənədlərə baxanda dəhşətli bir fakt ortaya çıxdı: həmin içkilərin istehsal tarixindən artıq 2 ay keçmişdi, yəni onların saxlama müddəti bitmişdi. Halbuki hər bir butulkanın üzərində istehsal tarixi açıq-aşkar qeyd olunur və bu, hamının görə biləcəyi sadə bir məlumatdır. Yükü zavoda boşaldanda isə gözlərim inanmadığım bir mənzərəyə sataşdı: 30-40 qadın bir sırada oturmuşdu, hərəsinin əlində spirtli pambıq. Onlar butulkaların üzərindəki köhnə tarixi silib, yerinə yeni tarix yazır, sonra da möhür vururdular. Beləcə, saxlama müddəti 2 ay əvvəl bitmiş içkilər yenidən qablaşdırılaraq "təzə mal" kimi satışa hazırlanırdı. O an başa düşdüm ki, biz sadəcə Rusiyanın zibilini daşıyır, ölkəmizə gətiririk və nəticədə xalqımız isə onu ağız şirinliyi ilə içir. Amma təkcə içkilər deyil, dərmanların da aqibəti fərqli deyil.

**"İndi təsəvvür edin: 25 gün istidə qalan o "sistem"lər sonradan hansı xəstənin damarına vuruldu? O mayelərin tərkibi çoxdan pozulmuş, sudan zəhərə çevrilmişdi..."**

Bir dəfə də Türkiyədən yük gətirirdim. Yolda 4-5 azərbaycanlı tır sürücüsü ilə tanış oldum. Onların yükü "sistem" - yəni damar daxili dərman məhlulları idi. 3-4 fura dolusu gətirirdilər. Onsuz da xalqın çoxu xəstədir, kimin qızdırması, öskürəyi varsa, qaçıb sistem vurdurur. Yəni, Azərbaycanda "sistem" "xadavoy mal", gündəlik, ən çox işlədilən dərman vasitələrindən biridir. Amma məsələ burasındadır ki, belə dərmanlar mütləq soyuduculu, xüsusi şəraitli maşınlarla daşınmalıdır. İsti havada onların tərkibi dərhal pozulur. Dispetçerlər isə 500-600 manat qənaət etmək üçün bu dərmanları adi çadırlı maşınlara yükləyirdilər. Mən sizə ötən ilin yayın ən qızmar günlərindən danışıram. Çadırlı maşının içində elə dözülməz istilik olurdu ki, nəfəs almaq mümkün deyildi. Günəşin altında 40-50 dərəcə olan temperatur maşının içində üçqat artıq yüksəlirdi. Belə şəraitdə maye dərmanların tərkibi tamamilə sıradan çıxır, onların istifadəsi isə əslində qəti şəkildə qadağan olunmalıdır. Hətta bir dəfə belə maşınlardan birinin motoru xarab oldu və yük 10 gün Türkiyədə qaldı. Nəticədə, fura ümumilikdə 25 günə, ancaq Bakıya çatdı. İndi təsəvvür edin: 25 gün istidə qalan o "sistem"lər sonradan hansı xəstənin damarına vuruldu? O mayelərin tərkibi çoxdan pozulmuş, sudan zəhərə çevrilmişdi. Və həmin zəhər, "dərman" adı altında insanların qanına yeridildi. Bu, sadəcə səhlənkarlıq deyil - bu, insanların həyatına birbaşa qəsddir."

***

Bütün bu faktlar isə bir sualı ortaya çıxarır: belə məhsullar necə olur ki, gömrükdən keçir? Laboratoriya analizləri necə olur ki, "normal" nəticə göstərir? Bu, sadəcə təsadüf ola bilməz. Deməli, hansısa yerdə bilərəkdən göz yumulur, hansısa qapılar bilərəkdən açıq buraxılır. Bəli, bu halları düşmən belə bizə etməz. Təəssüf ki, bunu "sapı özümüzdən" olanlar edirlər. Gömrük idarəsi, qida təhlükəsizliyi qurumları hara baxır? Necə olur ki, laboratoriya nəticələri saxtalaşdırılır? Xalq bilməlidir: bəzən süfrəsinə qoyduğu yağ, içdiyi içki, hətta xəstəxanada damarına vurulan sistem belə, tamamilə zəhərli və yararsız məhsuldur...

**Elşad FƏRMANOĞLU**

**P.S. Biz "Təzadlar" olaraq bu məsələni gündəmə gətirdik, ictimailəşdirdik. İnanmaq istərdik ki, Dövlət Təhlükəsizlik Xidməti və Baş Prokurorluq bu məsələni kökünə qədər araşdırıb bu "daxili düşmənlər"i əməllərinə görə cəzalandıracaq...**

# Almaniyanın əks-kəşfiyyatına Türkiyə əsilli şəxs rəhbərlik edəcək



**Almaniyanın Konstitusiyanın Mühafizəsi üzrə Federal İdarəsinin (əks-kəşfiyyat) rəhbəri vəzifəsinə Türkiyə əsilli Sinan Selen təyin ediləcək.**

Bu barədə məlumatı Almaniya parlamentinin (Bundestaq) deputatlarına istinadən "Bild" qəzeti yayıb.

Bildirilib ki, S.Selen 1972-ci ildə İstanbulda doğulub, 4 yaşı olduqda ailəsi ilə birlikdə Almaniyaya köçüb. Köln universitetində hüquq sahəsində təhsil alan Selen Almaniya XİN-də hüquqşünas işləyib. 2019-cu ildə isə əks-kəşfiyyat rəhbərinin müavini təyin olunub.

Məqalə müəllifləri onun bir neçə il əvvəl Türkiyə vətəndaşlığından imtina etdiyini yazıblar.

Həmçinin qeyd olunub ki, Almaniya əks-kəşfiyyatının bundan əvvəlki rəhbəri Tomas Haldenvinq 2024-cü ilin sonunda Bundestaqa keçirilən seçkilərdə iştirak etmək üçün postunu tərk edib. Həmin dövrdən bu yana qurumun rəhbəri vəzifəsi boş olaraq qalıb. Bununla belə, Haldenvinq seçkilərdə məğlub olub və parlamentə seçilə bilməyib.

# “Ay mal alan, gəl bəri” - xaricdə attestatla universitetlərə qəbul çağırışları başlayıb...

**Artıq 2025/2026-cı tədris ili üçün Azərbaycan Respublikasının ali təhsil müəssisələrinə tələbələrin yerləşdirilməsi mərhələsi yekunlaşıb. Arzuladıqları ali məktəblərə - ixtisaslara qəbul olaraq auditoriyalara ilk addımın, tələbə olmağın sevincini yaşayanlar da var, keçid balından az bal toplayaraq (yüksək bal toplasa da, kənarda qalanların dərdi bir başqadır...) qəm-qüssəyə qərq olanlar da.**




*“Bəli, ölkə xaricində attestatla ali təhsil Azərbaycanda tanınan diploma sahib olmaq, həm də 4 il müddətinə hərbi xidmətdən möhlət deməkdir!”*

Qeyd edək ki, sonuncularla bağlı abituriyentlərdən də çox valideynlər narahatlıq keçirir, övladlarının ali məktəbə qəbul olmamasını özlərinə dərd edirlər və xaricdə təhsillə bağlı araşdırmaya başlayırlar.

Əslində, imtahansız, yalnız attestatla xaricdə təhsil vəd edən bəzi təhsil şirkətlərini axtarmağa belə gərək yoxdur. Fürsəti qaçırmayan bu şirkətlər ali məktəblərə qəbul imtahanları bitər-bitməz, fəallığı artırırlar və diplom bazarı açanların internetdəki şirnikləndirici reklamları özü gəlib səni tapır: Ukrayna, Rusiya Türkiyə, Polşa, İtaliya və bir çox ölkələrin prestijli universitetlərində (yazdıqlarına görə) həm bakalavr (attestatla), həm magistratura, həm də doktoranturaya (imtahansız) qəbulla bağlı səhifələrlə qarşılaşırsan. Elə şirkət var ki, doktoranturaya qəbulla bağlı elanında “4 dostunu gətir, xidmətimiz sənin üçün ödənişsiz olsun”, yaxud “Ölkəni tərk etmədən Ukraynada təhsil al”, “Türkiyə və Rusiya universitetlərinə qəbul haqqı 1000 AZN, təhsil haqqı 1200 AZN”, “24 saat ərzində qəbul, 50% təqaüd imkanı, təhsil haqqı 500 AZN-dən başlayan qiymətlə” və s. çağırışlar edilir, “malların” sərgiləyirlər.

*“Bəlkə ölkədə ali məktəblərin sayını artıraq və bura DİM-in qəbul imtahanlarından zəif nəticə göstərən bütün abituriyentləri toplayaq...”*

Sirr deyil ki, ali məktəblərə qəbul ola bilməyən oğlanların valideynləri övladlarının xaricdə təhsil alması üçün daha çox əl-ayağa düşürlər: bu bir gerçəklikdir ki, valideynləri oğullarının 18 yaşı tamam olan kimi hərbi xidmətə çağırılacağı ilə bağlı məsələ daha çox narahat edir, nəinki tələbə adı qazanmamaları! Belə valideynlərin fikrincə, ya oğlu hərbi xidmət üçün hələ kiçik yaşdadır, ya da ilyarımlıq xidmət dövründə 11 ildə (əslində repetitor xidmətinə çəkilən xərcləri) qazanmış olduğu biliklərini də unudacaqlar və bu səbəbdən universitetə qəbul olmaq istəklərini itirəcəklər...







Bu qism valideynlər bu arqumentlərini əsas gətirərək borc-xərclə də olsa övladlarının xaricdə təhsil almasına çalışırlar.

Bəli, ölkə xaricində attestatla ali təhsil Azərbaycanda tanınan diploma sahib olmaq, həm də 4 il müddətinə hərbi xidmətdən möhlət deməkdir! Ona görə də təhsil şirkətləri bu bəndi mütləq şəkildə vurğulayırlar.

Təəssüfləndiric məqam isə odur ki, bu diplomu çox zaman 100 baldan aşağı nəticə göstərən abituriyent alır və 4 il sonra ölkəyə dönüb 500, 600 və daha çox bal toplayan - yerli universitetlərdən məzun olanlardan özünü daha üstün hesab edir: çünki o, xaricdə təhsil alıb!




Ən pisi: beləleri sabah həmin diplomla savadlı kadrlara rəhbərlik də edəcək, “karyeraları” ilə onları kölgədə də qoyacaq. Elə tibb sahəsində ölkədə meydan sulayan bəzi həkimlər kimi...

Bu gün həmin təhsil şirkətlərini, universitetləri efirlərdə, sosial media hesablarında reklam edənlər sırasında tanınmış şəxslər də az deyil. Bu isə vətəndaşlarda güvən yaradır. Halbuki bütün təhsil şirkətləri eyni dərəcədə etibarlı olmaya da bilər.

Elə sosial şəbəkə istifadəçilərinin də xaricdəki təhsillə bağlı elanlara münasibəti birmənalı deyil, bəzi ölkələrdəki universitetlərə attestatla qəbulla bağlı neqativ fikirlər də yer alır.

Məsələn, facebook sosial şəbəkə istifadəçilərindən Elnarə Kərimova qeyd edir ki, onlar (tələbələr) illərini boşuna xərcləyəcəklər və sonda diplomsuz geri dönəcəklər.

**SİTAT:** “Oxuya bilməyəcəklər, ya yarımçıq qayıdacaqlar, ya da 7 il sonra diplomsuz dönəcəklər. Türkiyədə YÖS-lə (Yabancı Öğretim Sınavı - red.) qəbul olanlar çətinliklə oxuyur, xüsusilə tibb, mühəndislik, hüquqşünaslıq çox çətindir. Savadı olmayan və çalışqan olmayan şəxs diplom ala bilmir. Oğlum orda YÖS-lə qəbul olub, oxuyub, təcrübəmiz var”.

Bu cür fikirlər yüzlərcədir.

“Təzadlar”a müraciət edən bir valideyn isə bildirdi ki, ötən il oğlu Bakıda dövlətə məxsus universitetlərdən birini bitirdikdən sonra xəstələndiyi üçün magistraturaya imtahan verə bilməyib və bu zaman təhsil şirkətlərindən birinə müraciət edası olublar.

Həmin şirkət onlardan illik təhsil haqqının yarısının ödənişini alaraq İtaliya universitetlərindən birinə qəbulla bağlı müqavilə imzalayıb. Müqavilədə qeyd edilib ki, qarşı tərəf 2 ay müddətində fikrini dəyişərsə, pul geri qaytarıla bilər. Təbii ki, həmin şəxslər illik təhsil haqqı 1500 manat olan universitetdən vaz keçməyiblər. Həmin müddət bitdikdən sonra şirkət təhsil haqqının daha baha qiymətə başa gələcəyini bildirir. Tələbənin valideyni həmin qiymətin baha olduğunu bildirərək etiraz etdikdə isə həmin müqavilənin müddət şərti ona göstərilib və ödəmiş olduqları 700 manat geri qaytarılmayıb...

Nəzərinizə çatdıraq ki, hər il xaricdə təhsil almış yüzlərlə məzunun diplomu ölkəmizdə tanınmır.







Məsələn, 2024-2025-ci il tarixlərində TKTA-ya edilən 4 998 müraciətdən 921-i rədd edilib. Yəni 921 nəfərin diplomu tanınmayıb və o şəxslərin illəri, saitləri boşuna xərclənib. TKTA-nın diplomlardan əsas imtina səbəbləri aşağıda qeyd edilənlərdir:

Tədris yükünü mənimsəmək üçün təhsil aldığı ölkənin ərazisində tələb olunan normativdən az olma; Autentik (həqiqi) olmayan diplom; Ekvivalenti olmayan ixtisas; Təhsilalma forması; Akkreditasiyasız ali təhsil müəssisəsi.

Təhsildə Keyfiyyət Təminatı Agentliyinə (TKTA) edilən müraciətlərin təhlili nəticəsində yerli akkreditasiyası olmadığı üçün ali təhsil sənədlərinə imtina verilmiş universitetlərin siyahısı ictimaiyyət üçün açıqdır və dərc edilib. Hər bir vətəndaş xarici ölkədə təhsil almaq üçün yol almamışdan öncə bu siyahı ilə tanış ola bilər.

Lakin diplomları Elm və Təhsil Nazirliyi tərəfindən yüz faiz tanındığı deyilən - attestatsız, yaxud ölkəni tərk etmədən diplom vədi verən universitetlərlə bağlı məsələ də suallar doğurur:

Əgər xaricdə attestatla hər hansı bir ali təhsil ocağına qəbul olunmuş məzunun diplomu Azərbaycanda tanınacaqsa, niyə bu təhsilverməni üsulunu ölkəmizdə də həyata keçirməyək? Bu tələbələrin attestatla xaricdə təhsil alaraq ölkəmizə gətirdikləri diplom (savad) bizlər üçün qənaətbəxşdirsə, yetərlidirsə, belə abituriyentlərin eyni qəbul şərtləri ilə ölkədə təhsil almasına niyə şərait yaradılmasın? Minimal keçid balı toplamayan birisi xarici universitetlərdə özünü realize edə bilib ölkəmizə savadlı mütəxəssis kimi dönə bilirsə və nazirlik (TKTA) onlara yaşıl işıq yandırırsa, Azərbaycandan xaricə axıdılan milyonlarla vəsait niyə ölkədə qalmasın, niyə həmin tələbələr xaricdə minbir əziyyətlə yaşamaq məcburiyyətində qalsınlar (Bir çox valideynin bahalıq səbəbindən, əsasən qış aylarında onlara ərzaq, qovrulmuş ət, dərman belə göndərməsi də sirr deyil...)?

Bu gün bizi belə mütəxəssislər qane edirsə, bəlkə ölkədə ali məktəblərin sayını artıraq və bura DİM-in qəbul imtahanlarından zəif nəticə göstərən bütün abituriyentləri toplayaq... Əmək bazarında işəgötürənlər də bilsin ki, həmin universitetlərin məzunları attestatla qəbul olunanlardır: seçim də şəffaf olsun... Bununla da “fərqli təcrübələr, yeni dostlar, karyera fürsətləri, xarici dil öyrənmə, Avropanın istənilən nöqtəsində uğurlu karyera” vəd edən təhsil şirkətlərinin, “stessə son, imtahansız təhsil” deyə car çəkənlərin də “təhsil bazarını” bağlayaq - xeyir vətənə qalsın!

Bəli, hər il xarici ölkə universitetlərinə imtahansız qəbul olaraq məhz diplom əldə etmək üçün üz tutanlarımızın sayı az deyil. Düşünürəm ki, bu, gecəsini gündüzünə qataraq min bir əziyyətlə tələbə adını qazananlara qarşı haqsızlıqdır. Və buna bir əncam çəkilməlidir. Yoxsa, biz bunun ağrısını gələcəkdə lap çox hiss edəcəyik.




**Yasəmən MƏMMƏDLİ**

# Prezidentin etimadına sədaqət andı...

*Nazir Vilayət Eyvazovun avqustun 29-da Xaçmaz Rayon Polis Şöbəsində 500-ə yaxın vətəndaşı qəbul edib dinləməsini görəndən sonra düşündüm ki, Prezidentin "Hər bir məmur xalqa xidmət etməlidir" tövsiyəsi burda bir daha özünü göstərdi...*

**Ali Baş Komandan, Prezident İham Əliyev məmurlara və xalqa müraciətli çıxışlarının birində belə demişdi: "Hər bir məmur xalqa xidmət etməlidir... Xalqın birinci xidmətçisi isə mən özüməm!".**






Tam səmimiyyətlə deyirəm ki, Azərbaycanın daxili işlər naziri Vilayət Eyvazovla avqustun 29-da canlı təmasım zamanı yuxarıda söylədiklərimin canlı şahidi idim. Bu məqamda nazirin öz əməli işi ilə Prezidentin tövsiyə və tapşırıqlarına necə əməl etdiyinin əlavə şərhinə bəlkə də ehtiyac yox idi. Amma...

***

Bir media nümayəndəsi kimi, apardığım müşahidə və müqayisələr onu deməyə əsasdır ki, V.Eyvazov nazir təyin olunandan bəri polislərin nüfuzu və məsuliyyəti də diqqəti çəkir, ən vacibi, bu məsuliyyət xalqın, ictimaiyyətin etimadının qazanılmasına hesablanıb. Mətbuatda ölkədə cinayətkarlığa qarşı mübarizəni ifadə edən statistika müntəzəm verildiyindən əlavə şərh vermək istəmirəm. "Təzadlar" qəzeti və eyni adlı tezadlar.az saytı olaraq bu sahədə uğurların statistikasını, ən ağır cinayətlərin belə üstünün isti izlərlə açılmasını ifadə edən rəqəmləri diqqətə çatdırıqda, polisin fəaliyyət fəlsəfəsini aydın görmüşük. Bu statistika həm də onu göstərir ki, nazirin birbaşa rəhbərliyi ilə ölkənin daxili işlər orqanlarında, bütövlükdə polis sistemində aparılan köklü islahatlar özünün müsbət nəticələrini verməkdədir. Vətəndaşlar bunu polislə münasibətlərində, öz gündəlik həyatlarında hiss etməkdədirlər. Redaksiyamıza daxil olan çoxsaylı rəylər və söhbətlər də bunların təsdiqidir.

Yeri gəlib deyim ki, V.Eyvazovun nazir olduğu dövrdə polis əməkdaşlarından olan vətəndaş şikayətlərinin mediada yayımlanması statistikasında da böyük azalma var, bunu gündəlik mətbuat səhifələrindən də görmək olar. Təbii ki, istisnalar da olur, amma bu şikayətlərə operativ reaksiya verilməsi, həmçinin DİN-in mətbuat xidmətinin rəhbəri Elşad Hacıyevin, eləcə də xidmətin rəis müavini Hafiz Təmirovun, Toğrul Nəsirlinin, Nurlan Əliyevin və digər əməkdaşların sayəsində dərhal cavablandırılması, həllinə nail olunması da faktdır, bunu öz peşə fəaliyyətimizdə görməkdəyik.

***

Mətləbdən uzaqlaşmadan deyim ki, bütün bu yuxarıda qısa olaraq söylədiklərim indiyə qədər bir mətbuat nümayəndəsi olaraq, mənim kənardan görüb-bildiklərim və eşitdiklərimdir. Amma nazir cənab V.Eyvazovla hər hansı tədbirdə belə üz-üzə gəlməmişəm və söz demək, sual vermək imkanım olmayıb. Avqustun 29-da isə belə bir imkan yarandı və mən sözün birbaşa mənasında nazir haqqında deyilən müsbət fikirlərin əyani şahidi oldum.

*"Nazirin mənimlə üzbəüz bir-iki dəqiqə dayanıb müraciətimi dinlədiyi zaman isə onun nə qədər diqqətli olduğunu görməmək mümkün deyildi"*

Qeyd edim ki, 44-günlük Vətən Müharibəsinin iştirakçısı və müharibə veteranı olan Ali təhsilli oğlumun şəxsi işi ilə bağlı nazirlə görüşmək qərarına gəlmişdim. Amma özüm də inanmırdım ki, ölkənin ən ağır yükünü çiynində daşıyan bir nazirliyin rəhbəri ilə görüşüm alınsın. Bu məqsədlə avqustun ortalarında Daxili İşlər Nazirliyinin qəbul şöbəsinə yaxınlaşdım. Oradan bildirdilər ki, avqustun 29-da cənab nazir Xaçmazda vətəndaşları qəbul edəcək, görüşmək üçün nazirliyin saytında onlayn qeydiyyatdan keçməliyəm. Əlavə olaraq, telefon nömrələri də verdilər ki, əlaqə saxlayıb görüş vaxtının dəyişib-dəyişməmədiyini də öyrənə bilim.

Deyildiyi kimi, onlayn qeydiyyatdan keçdim və görüşümün səbəbini, həmçinin koordinatlarımı qeyd etdim. Yenə də nazirlik əməkdaşlarının operativliyinə heyran qaldım. Səhəri günü nazirlikdən zəng edib nə üçün görüşmək istədiyim haqqında maraqlandılar. Daha sonra Qaradağ rayonu ərazisində yaşadığımdan, rayonun Polis İdarəsinin kadrlar şöbəsindən mənə zəng edildi, həm görüşümün səbəbləri ilə maraqlandılar, həm də rəisin qəbuluna dəvət etdilər. Qaradağ Rayon Polis İdarəsinin rəisi Füzuli Əhmədov, eləcə də idarənin kadrlar şöbəsinin əməkdaşları-Sevinc xanım, Rəhman müəllim məni yüksək səviyyədə, ehtiramla qəbul etdilər. Müxtəlif suallar verib cavab aldılar. Rəis mənim də 1-ci Qarabağ Müharibəsinin veteranı olmağımı biləndə diqqət və həssaslıqla dedi: "Nazirlə görüşmək sizin hüququnuzdur. Amma bizim rayonun ərazisində yaşadığınız üçün sizi qəbul edib tanış olmaq da bizim borcumuzdur".

Beləliklə, qəbula bir gün qalmış yenə nazirlikdən zəng edərək, mənimlə maraqlandılar. Bütün bu prosedurlar məndə həm Daxili İşlər Nazirliyi, həm də nazir V.Eyvazov haqqında çox müsbət təsüratlar yaradırdı.

Mən bütün bunları ona görə təfsilatı ilə, amma yığcam olaraq diqqətə çatdırıram ki, bəzən sosial şəbəkələrdə yüksək vəzifəli məmurların vətəndaşlara qarşı soyuq münasibəti və s. barədə rəylərə rast gəlirəm. Amma bu sətirləri oxuyanlar bilsinlər ki, konkret olaraq mən daxili işlər nazirinin qəbulunda hansı münasibətlərlə qarşılaşmışam. Bəlkə də kimsə deyə bilər ki, yəqin jurnalist olduğumu biliblər, ona görə belə münasibət sərgilənib. Lakin açıq deyirəm ki, media təmsilçisi olduğumu ən sonda biliblər, amma təbii ki, müharibə veteranı olduğumu gizlədə də bilməzdim.

Beləliklə, avqustun 29-da səhər saat 09:30-da Xaşmaz rayon Polis Şöbəsinə gəldim. Gördüklərimdən heyrətə gəldim. İlahi, nazirlə görüşə bu qədər adam gələrmi? 500-ə yaxın şəxs qəbula gəlmişdi. Onu da deyim ki, bunların hamısı şikayətçi yox, işə qəbulla bağlı müraciət edənlər də var idi. Amma bütün halda, fikirləşirdim ki, nazir bu qədər vətəndaşı qəbul etməyə necə vaxt çatdıracaqdı?

Xaçmaz rayon Polis Şöbəsinin həyətində qəbula gələnlər üçün iki çadır qurulmuşdu ki, vətəndaşlar günəşdən qoruna bilsinlər. Bu da nazirliyin vətəndaşlara olan diqqət və sayğısı kimi qəbul edilə bilər. Görüşə gələnlər arasında yaşlı və xəstə insanları nəzərə alıb, hətta Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən oturacaqlar qoyulmuşdu ki, nazir qəbula başlayana qədər onlar ayaq üstə qalmasınlar. İnanın ki, bütün bu mənzərədən böyük zövq alırdım. Ona görə ki, qəbula gələnlərə bu diqqət və qayğı nazirin və nazirlik əməkdaşlarının vətəndaşlara nümunəvi xidmətinin bariz nümunəsi idi.

Nəhayət, qəbul başladı. Əvvəlcə elə bilirdim ki, nazir V.Eyvazov və digər rəsmilər vətəndaşları hansısa bir sərin kabinetdə təkbətək qəbul edəcəklər. Amma vətəndaşların çadırlara dəvət olunub, sıraya düzülməsi ondan xəbər verirdi ki, nazir şəxsən özü vətəndaşlara yaxınlaşıb onları dinləyəcək.

Belə də oldu. Nazir Vilayət Eyvazov sıraya düzülmüş vətəndaşlara yaxınlaşaraq onların qarşısında sadə bir insan kimi dayanaraq, hər birini şəxsən dinləyirdi. Dinlədiyi şikayətlərin və edilən müraciətlərin məzmununa uyğun olaraq, naziri müşayiət edən şəxslər fərdi qaydada qeydiyyat apararaq əllərindəki jurnala yazırdılar. Bu, çox maraqlı bir qəbul qaydası idi və şəxsən birinci dəfə idi ki, belə qəbul ilə rastlaşırdım.

Açığı, nazir Vilayət Eyvazovun ayrı-ayrı rayonlarda vətəndaşları qəbul etməyini qəzetlərdə, saytlarda mütəmadi izləyirdim və elə bilirdim ki, az sayda vətəndaşlar onun qəbuluna düşə bilir. Amma avqustun 29-da Xaçmaz Rayon Polis Şöbəsinin həyətində təxminən 500-ə yaxın vətəndaşın qəbulunu görəndən sonra düşündüm ki, Prezidentin "Hər bir məmur xalqa xidmət etməlidir" tövsiyyəsinə əməl edilməsi, əslində, elə budur!

Nəhayət, növbə mənə çatdı. Özümü təqdim etdim və müraciətimi qısa olaraq cənab nazirin diqqətinə çatdırdım. Nazir ardınca onu müşayiət edən şəxslərə "Müraciətə baxılsın" - deyərək göstəriş verdi.

Özümü təqdim etdiyim zaman həm də nazirin müraciətimə münasibətini diqqətlə izləyirdim. Bunu isə hamı görürdü, izləyirdi. Mən insan psixologiyasını müəyyən qədər dəyərləndirə bilirəm. Məsələn, məni dinləyən şəxsin mənə nə qədər diqqətli olub-olmadığını dərhal hiss edirəm. Amma Vilayət müəllimdə hər bir şəxsi dinləmək və dərhal müraciətə uyğun aidiyyəti tapşırıq vermə ustalığını görəndə fikrimdə yanılmadığımı dəqiqləşdirdim. Təkrar edirəm, müraciətimin taleyinin necə olacağı başqa bir məsələdir, amma nazirin vətəndaş qəbuluna bu qədər ustalıqla, peşəkarlıqla yanaşması heyranedici idi! Nazirin mənimlə üzbəüz biriki dəqiqə dayanıb müraciətimi dinlədiyi zaman isə onun nə qədər diqqətli olduğunu görməmək mümkün deyildi.

Sonda: Cənab nazirə şikayət və müraciət edənlərin heç biri bu görüşdən narazı qalmadı. Təkcə Xaçmaz sakinlərini yox, Bakıdan və Azərbaycanın müxtəlif rayonlarından gəlmiş təxminən 500-ə qədər vətəndaşın hər biri nazirə sözünü deyə bildi və müəyyən cavab da aldı. Bəzi şikayətlərin də araşdırılmasına ehtiyac olduğundan nazir bu barədə də göstəriş verdi. Bu qədər vətəndaşı, özü də avqustun bu istisində, çadır altında və ayaq üstə dinləmək, tam səmimiyyətimlə deyirəm, hər məmurun hünəri deyil.

***

...Nazirlə görüşdən çox böyük təəssüratla qayıtdım. Bu gündən sonra nazir Vilayət Eyvazovun hansısa rayonda vətəndaşları qəbul etdiyini eşitsəm, Xaşmazdaki bu görüşün xoş təəssüratları gözümün önünə gələcək. Bunun isə bir adı var idi: Prezident cənab İlham Əliyevin göstəriş və tövsiyyəsinə uyğun olaraq, vətəndaşlara nümunəvi xidmət! Əslində isə, nazirin bu qəbulu özlüyündə bir nümunə və prezidentin etimadına əsl sədaqət andı idi...

**Elçin MƏMMƏDLİ**
**(Bakı-Xaçmaz-Bakı)**



# “Şamaxinka” körpüsü: “İntihar mənbəyi”nə çevrilən keçid və işləməyən liftlər...

*Sonra da deyirlər ki, mətbuat yalandan aləmi qarışdırır. Amma hər şey qaydasında olsa, niyə jurnalistlər “mərdimazarçılıq” etsinlər?*

**Bakının “Şamaxinka” adlanan ərazisində yerləşən körpü sözün əsl mənasında bərbad vəziyyətdədir. İnsanlar artıq bu körpüdən cana doyublar. Üstünün açıq olması, tikilmə qaydasının düzgün qurulmaması və xüsusən də əlillər üçün nəzərdə tutulmuş liftlərin işləməməsi insanların ən böyük narazılıq mövzusudur. Bu, təkcə narazılıq deyil, həm də təhlükədir.**

“Təzadlar” qəzeti əməkdaşlarının neçə gün əvvəl ərazidən çəkdikləri görüntülər açıq şəkildə sübut edir ki, körpü doğrudan da acınacaqlı vəziyyətdədir. Bu, sadəcə subyektiv fikir deyil - kameraların qarşısında görünən reallıqdır.

Mən özüm də bu körpüdən tez-tez istifadə edirəm, amma etiraf edim ki, liftin işlədiyini demək olar ki, heç vaxt görməmişəm. Halbuki söhbət elə-belə bir keçiddən getmir. Körpünün hündürlüyü 12 metrdən artıqdır. Bu qədər hündürlükdə insanları yalnız pilləkanlarla qalxmağa məcbur etmək hansı məntiqə və ədalətə, insafa sığır? Onu da nəzərə alsaq ki, bu körpüdən istifadə edən çoxsaylı insanlar arasında xəstələr, hamilə qadınlar, əli uşaqlılar və qocalar da var, onda mənzərənin nə qədər acınacalı olması daha çılpaqlığı ilə görünər.

***

Bu yerüstü körpüdən hər gün yüzlərlə insan keçir. Dediyimiz kimi, əlillər, qocalar, körpə uşaqlı qadınlar... Bəs bu insanları düşünmürlərmi? Onlar üçün lift qurulub, amma işləmirsə, deməli, sadəcə formal xarakter daşıyır. İnsanlar isə hər gün bu “ölü” liftlərin yanından keçib əzab-əziyyətlə pilləkanları qalxmağa məcbur olurlar. Bu, nə qədər ədalətlidir? Nə üçün təhvil verilən obyekt uzunmüddətli istifadə üçün yox, yalnız “göstəriş” xatirinə tikilir?”.

Maraqlıdır ki, bu strateji körpünün hər iki tərəfində, aşağı hissəsində böyük bir köşk də qoyulub, hələ bir nəzarətçi də saxlayırlar. İlk baxışdan bu, bəlkə də vacib görünə bilər. Amma sual yaranır: həmin nəzarətçi əslində, nəyə nəzarət edir?

İnsanların ən çox narazı qaldığı məqamlardan biri də işləməyən liftlərdir. Əgər kimsə bu üstü açıq, demək olar ki, “intihar mənbəyi”nə çevrilmiş körpüdən özünü atmaq istəsə, həmin nəzarətçilər aşağıdan adamı əlləri ilə tutacaqlar? Yoxsa kimsə körpünü sındırmaq, sökmək istəsə, müdaxilə edə biləcəklərmi? Körpünün hər tərəfində quraşdırılmış kameralar da var. Əgər doğrudan da işləyirsə, bəs onda niyə işləməyən liftlərin qarşısında saatlarla dayanan qocaları görmürlər? Onların əziyyətini müşahidə etmək üçün əlavə sübut lazımdırmı?

Sonra da deyirlər ki, mətbuat yalandan aləmi qarışdırır. Amma hər şey qaydasında olsa, niyə jurnalistlər “mərdimazarçılıq” etsinlər? Əslində, bu körpünün düz tikilmədiyini ta əvvəldən deyirdik. İllərdir mətbuatda da, sosial şəbəkələrdə də bu barədə söz açılıb. Ən sadə nümunə: körpünün üstünün açıq qalması ciddi narahatlıq doğurur! Halbuki bunu şüşəli formada etmək, ya da heç olmasa yüngül bir kostruksiyalı örtüklə bağlamaq olardı. İndi isə vəziyyət odur ki, yayda insanlar uzunluğu ən azı 20-30 metr olan asma körpüdə günün altında əziyyət çəkir, qışda isə külək az qala adamı körpüdən aşırır. Bu necə layihədir, kim bunu belə təsdiqləyib? Sakinlər haqlı olaraq soruşurlar: əgər pul xərclənibsə, niyə keyfiyyətli iş görülməyib? Xüsusilə qış aylarında buradan keçmək əsl zülmdür - külək və qar, sazaq az qala adamı yerə çırpsın. Sual yaranır: hansı qurum bu körpünü qəbul edib? Necə olub ki, bu cür yararsız vəziyyətdə təhvil alınıb? Bu, sadəcə bir körpü məsələsi deyil. Bu, həm də insan həyatına, vətəndaşın gündəlik təhlükəsizliyinə, əlillərin, qocaların, uşaqlı insanların haqlarına biganə yanaşmanın göstəricisidir. Əgər bu qədər vəsait xərclənibsə və nəticə bu vəziyyətdirsə, deməli, ortada ciddi məsuliyyətsizlik.

Bizdə niyə problemlərin ardı-arası kəsilmir? Çünki çox vaxt məsələ gündəmə gəlir, səs-küy yaranır, sonra unudulur. Amma unudulan əslində vətəndaşın dərdi, çəkdiyi əziyyətdir. “Şamaxinka” körpüsü ilə bağlı çəkilən bu görüntülər də, faktdır, sübutdur, “mətbuatın şişirtməsi” deyil, sadəcə göz qabağında olan reallıqdır. Necə deyərlər, “görünən dağa bələdçi lazım deyil”.

***

Sonda: inanmaq istərdik ki, nəhayət, aidiyyəti qurum rəsmiləri üzlərini bu körpüyə çevirəcəklər... Amma körpünün üstünə qalxmağa tələsməsinlər, çünki 12 metr hündürlükdə yerləşən körpüdə liftlər işləmir...

**P.S. 2020-ci ilin aprelin 3-də AzərTAC belə bir məlumat yaymışdı: “Bu gün Prezident İlham Əliyev Moskva prospekti ilə 20 Yanvar küçəsinin kəsişməsində - “Şamaxinka” adlanan ərazidə tikilən yerüstü piyada keçidinin açılışında iştirak edib. Bununla da yerüstü piyada keçidi istifadəyə verilib. Hündürlüyü 5 metrdən artıq olan piyada keçidinin uzunluğu 130, eni 3 metrdir. Keçidin 3 giriş-çıxışı var. Keçiddə xüsusi liftlər quraşdırılıb ki, bu da yaşlı və əlillərin, o cümlədən uşaq arabası ilə olanların rahat şəkildə istifadəsini təmin edəcək”.**

# Siqaret kötüyünə görə 300 manat cərimə: bu necə müəyyən olunub?

*Qarabağ veteranı 80 manat, tələbəsi 100 manat, pensiyaçısı 300-400 manat alan ölkədə siqaretə görə 300 manatlıq cərimə?*

**İnzibati Xətalar Məcəlləsində ayrıca maddə var, deputatlarımız səs verib, parlament qəbul edib: “...siqaret kötüklərini və ya siqareti icazəsiz yerdə atmağa, çəkməyə görə Məcəllənin 271-1-ci maddəsində (ərazilərin siqaret kötükləri ilə zibillənməsi): Fiziki şəxslərin 300 manat, Vəzifəli şəxslərin 600 manat, Hüquqi şəxslərin isə, 1200 manat cərimə olunması nəzərdə tutulur”.**




Amma, tutaq ki, yerə plastik, kağız və digər məişət tullantısı atmağa görə 50-100 manat cərimə ilə ölçülür. Yəni, siqaret kötüyünü yerə atmaq qat-qat baha başa gəlir? Qanunun verdiyi izaha görə, bu, siqaret kötüyünün həm ətraf mühitə zərərli olması, həm də yanğın təhlükəsi yaratması ilə bağlıdır. Bunu başa düşmək olar. Amma maraqlıdır: bu məbləği müəyyən edənlər hansı əsasla, əhalinin hansı gəlir səviyyəsinə görə hesablayıblar?

*Başqa ölkələrdə də cərimələr var, amma orada ilk dəfə qanun pozanlara xəbərdarlıq edilir*

Bir dostumuz danışır: “Bir kənar yerdə dayanmışdım. Baxdım ki, yerdə çoxlu siqaret kötüyü var. Düşündüm ki, yəqin burada siqaret çəkmək olar. Onsuz da işlərim yolunda getmirdi, çox dilxor idim. Çıxdım çölə, fikirli halda siqaret çəkirdim ki, birdən kənardan iki nəfər yaxınlaşdı: “Sizi cərimələyəcəyik”. Dedim, qardaş, yaxşılıq edin, heç olmasa, birinci dəfə xəbərdarlıq edin. Cavab verdilər: “Bizdə xəbərdarlıq yoxdur, 300 manat cərimə olunmağın barədə protokol yazmalıyıq, vəssalam”. Mübahisə elədim ki, bu qədər də cərimə olar? Mübahisə qızışdı və axırda məni bölməyə apardılar. Orada isə məcburi şəkildə 300 manatı ödətdirdilər. Üstümdə o qədər pul olmadığından bir dostuma zəng elədim və gətirib verdi. Yanımdakı tanış da məni müdafiə etmək üçün bir-iki söz dedi, onu da tutub maşına mindirdilər”. Bu isə polislərin vəzifəsindən sui-istifadəsi idi məncə...

***

Ümumiyyətlə, bizdə hər şey qəribədir. Başqa ölkələrdə də cərimələr var, amma orada ilk dəfə qanun pozanlara xəbərdarlıq edilir. Bizdə isə, vətəndaşın Qarabağ veteranı 80 manat, tələbəsi 100 manat, pensiyaçısı 300-400 manat alan ölkədə, siqaret kötüyünün yerə atılmasına görə cəriməsi 300 manatdır. Bu məntiqsizliyi o qanunu qəbul edənlər izah edə bilərmi? Başa düşürük, yeri, küçəni zibilləmək olmaz. Amma bu qədər cərimə ilə məqsədə nail olmaq olmaz. Bu barədə efirlərdə əxlaqsızlığı tərənnüm edən şou əhlini reklam etmək əvəzinə, şəhərimizin təmiz saxlanması barədə maarifləndirici reklamlar, verilişlər verilməlidir. Belə olarsa, bəlkə heç cəriməyə də ehtiyac qalmaz. İndiki şəkildə belə cərimələr, açıq şəkildə “soyğunçuluq” təəssüratı yaradır.

Allah uzaq etsin, bəzən adam qətl törədir, məhkəmədə deyirlər ki, “ilk dəfədir”, güzəşt tətbiq edirlər. Bu qanunda da var. Bu boyda ölüm hadisəsində belə yüngülləşdirici hal nəzərə alınır. Amma bir siqaret kötüyünə görə niyə xəbərdarlıq olunmasın axı?

Yadıma gəlir, koronavirus dövründə maskasız gəzənləri ilk dəfə tutanda xəbərdarlıq edib, sistemə salırdılar və cərimə yazmırdılar. Amma ikinci dəfə tutulanda isə, sorğu-sualsız cərimələyirdilər. Niyə bu qayda indi tətbiq olunmur?

İnsandır bəzən fikirli olur, bəzən hüzrü olur və kədərli halda bir siqaret çəkir. Amma cərimə yazanlar qəfil peyda olurlar ki, “sən ərazini zibillədin”. Ən pisi isə odur ki, özləri də yaxşı bilirlər, əsasən insanlar harada siqaret çəkirlər. Hətta bəzən qəsdən həmin yerlərdəki kötükləri yığışdırmırlar. İnsan da ora gələndə, yerdə kötükləri görür və elə düşünür ki, burada çəkmək olar. Əslində isə, bu, bir “tələ”dir. Gələn kimi də tutub cərimə yazırlar.

Düzdür, siqaret insan sağlamlığına ziyandır, çəkməmək lazımdır. Amma insan faktorunu da nəzərə almaq vacibdir. İlk dəfə xəbərdarlıq etmək əvəzinə, dərhal 300 manat cərimə yazmaq nə qədər ədalətlidir? Bu, qanunun aliliyinə xidmət etmir, daha çox insanların cibinə girmək kimi görünür. Yaxşı olar ki, o qanunu yazanlar bu barədə ciddi düşünsünlər və yumşaldıcı halı da nəzərə alsınlar. Həm də yuxarıda qeyd etdiyim kimi, bu sahədə maarifləndirmə işini gücləndirsinlər...

**Səhifəni hazırladı: Elşad FƏRMANOĞLU**

# İpoteka verən banklar dələduzlarla əlbirdir?

*İqtisadçı-ekspert Rəşad Həsənov: “Yüksək gəlirli və imkanlı şəxslər ipotekadan ehtiyac üçün yox, biznes və investisiya məqsədi ilə istifadə edirlər. Nəticədə isə ipoteka kasıblar üçün əlçatmaz olur”*

**Mənzil sahibi olmaq hər bir vətəndaşın fundamental haqqıdır. Dövlət bu haqqı təmin etmək üçün illərdir ipoteka proqramlarını təbliğ edir. Rəsmi ritorikaya görə, ipoteka almaq sadə və şəffaf prosedurdur: elektron sistemə daxil olursan, gəlirini göstərirsən, bank seçirsən və ipoteka alırsan.**




Lakin praktikada bu sistem daha çox əlaqəsi və pulu olanlar üçün işləyir. “Elektron asanlıq” adı altında vətəndaşa sadəcə göz boyayan pəncərə təqdim olunur.O pəncərənin içində isə, ədalətsizlik, korrupsiya və sistemli susqunluq gizlənir. İndi ipoteka almaq istəyənlərin çoxu haqlı sual verir: bu sistem vətəndaş üçündür, yoxsa müəyyən dələduzlar üçün işləyən mexanizmə çevrilib?

### Prosedur necə işləməlidir?

İpoteka almaq üçün vətəndaş egov.az portalına daxil olur və “İpoteka və Zəmanət Fondu” bölməsindən müraciət prosesini başlayır. Sistem avtomatik olaraq, vətəndaşın iş yeri, gəliri, sosial statusu və digər məlumatlarını çıxarır. Yalnız mobil nömrə kimi bəzi əlavə detalları daxil etməklə növbəti mərhələyə keçmək mümkündür. Kağız üzərində bu proses olduqca sadə və rahat görünür. Amma iş bank seçiminə çatanda, sistem faktiki olaraq vətəndaşın qarşısında bağlanır.

### Bank seçimi və görünməz “divar”

Növbəti mərhələdə sistemdə bankların siyahısı açılır. Lakin bu siyahı, real olaraq, yalnız görüntü üçündür. Çünki dövlət tərəfindən hər banka məhdud ipoteka limiti ayrılır və bu limit bitdikdə bankın qarşısında “X” işarəsi görünür. Yalnız yaşıl işıq varsa, bank seçilə bilər. Məsələn, tutaq ki, Access Banka 1 milyon manat, Bank of Bakuya 2 milyon manat limit ayrılmış ola bilər. Əgər siz şanslısınızsa və yaşıl işıq olan bankı seçə bilmisinizsə, sistem sizə SMS göndərir: “filan tarixdə, filan filialda olun.” Amma real vəziyyət isə tamam fərqlidir. Aylarla sistemə girən vətəndaşlar yalnız “X” işarələri ilə qarşılaşır. Seçim sıfıra bərabərdir. Və belə olan halda başqa bir “mexanizm” işə düşür.

### Görünməyən yol: qeyri-rəsmi “seçim açanlar”

Bank seçiminin mümkün olmaması fonunda bəzi şəxslər peyda olur. Özlərini “sistemi bilən adamlar” kimi təqdim edən bu şəxslər, 1500 - 2000 manat qarşılığında vətəndaşın adından sistemə daxil olub seçim “açdıqlarını” bildirirlər. Bu barədə bir vətəndaş prosesi belə izah edir: “İş yoldaşım bu yaxınlarda 2 min manat verib ipoteka seçimi açdırdı. Proses çox sadədir. Həmin adam sistemə girib hansısa üsulla seçim açır. Sonda hər şey qanuni kimi görünür. Halbuki o adamın banklarla əlaqədə olduğu aydındır.”

İddialara görə, bu şəxslər bəzi bank əməkdaşları ilə əlbir şəkildə çalışır. Və artıq bu praktika o qədər adiləşib ki, bank işçilərinin belə bu haldan xəbərdar olduğu deyilir - amma heç kim buna etiraz etmir.

### 2 min manat ödəmək ipoteka almağa zəmanət vermir

Daha bir yanlış anlayış: seçim etdinsə, güya ipoteka sənindir? Xeyr, bu, sadəcə ilk mərhələdir. Əsl “I” əməliyyatı bundan sonra başlayır. Bank sizdən aşağıdakı sənədləri tələb edir:

**. Ailə üzvlərinin məlumatları**
**. Maaş arayışı**
**. Bank hesablarından çıxarış**
**. Kredit tarixçəsi**
**. Girov qoyulacaq əmlakla bağlı sənədlər**

Bu sənədlər toplandıqdan sonra komitəyə təqdim edilir. Komitə isə, hər müraciəti ayrıca araşdırır. Hətta bəzən vətəndaşın çalışdığı iş yerinə zəng edərək. “Bu şəxs sabit işçidirmi?” sualı da verilir. Əgər mənfi cavab alınarsa, vətəndaşa ipoteka verilməyə də bilər. Yəni 2 min manat verib sistemdə seçim etmək, ipoteka almaq üçün heç bir zəmanət yaratmır. Bu isə, sistemin qeyri-rəsmi alverə necə çevrildiyini açıq göstərir.



### Limit var, amma vətəndaşa yox

İpoteka limitlərinin “açılacağı” günü gözləyən vətəndaşlar sistem qarşısında gecədən səhərə qədər “növbə” çəkirlər. Amma limit açılan anda, saniyələr içində - bütün bankların seçimləri dolur. Sanki sistem kimlər üçünsə əvvəlcədən ayrılıb. Bu mənzərə bir neçə il əvvəl sosial kirayə evlərində yaşanan xaosu xatırladır. O zaman dövlət müdaxilə etdi, cinayət işi açıldı, məsul şəxslər cəzalandırıldı. İndi isə oxşar ssenari ipoteka sistemində, bir az başqa formada yaşanır.

***

İndi görək bu barədə İqtisadçı-ekspert Rəşad Həsənov nə deyir: “Hazırda bir sıra faktorlar səbəbindən ipoteka krediti üzrə əlçatanlıq aşağı səviyyədədir. Ayrılan limitlər sürətlə tükənir və demək olar ki, ilin böyük hissəsində bankların ipoteka kreditləri üçün limiti olmur. Bu isə ipoteka imkanlarını ciddi şəkildə məhdudlaşdırır. Birincisi, Azərbaycanda əhalinin alıcılıq qabiliyyəti ilə mənzil qiymətləri arasında ciddi disbalans mövcuddur. Bu isə, əhalinin əhəmiyyətli hissəsinin ipoteka imkanlarından istifadə etməklə mənzil sahibi olmasını zəruri edir.

Bundan başqa, son illərdə ipoteka vasitəsilə mənzil əldə edə biləcək sosial qrupların siyahısı genişləndirilib. Məsələn, 5 ildən artıq müəllimlik fəaliyyəti ilə məşğul olan şəxslər bu hüquqa malikdir və onların sayı 300 mindən artıqdır. Eləcə də jurnalistlər bu siyahıya daxil edilib. Bu genişləndirmələr ipoteka üçün müraciət edənlərin sayının artmasına səbəb olub.

Eyni zamanda ipoteka hüququ olan sosial qrupların seçimi və bu kriteriyaların müəyyənləşdirilməsində də nöqsanlar var. Məsələn, xüsusi dövlət qulluğunda çalışanlara bu imkanlar verilir. Halbuki bu kateqoriyaya daxil olanların gəlirləri digər əhali qrupları ilə müqayisədə daha yüksəkdir. Nəticədə, onlar ipotekadan yalnız mənzil şəraitini yaxşılaşdırmaq üçün deyil, bəzən biznes və ya investisiya məqsədilə istifadə edirlər. Bu isə. bazarda qeyri-bərabər imkanlar yaradır.

Düşünürəm ki, gəlir səviyyəsinə görə, ipoteka üçün yuxarı hədd müəyyən edilməlidir. Eyni zamanda, yüksək gəlirli sahələrdə, məsələn, neft və maliyyə sektorlarında rəhbər vəzifələrdə çalışanların ipotekadan istifadəsi məhdudlaşdırılmalıdır. Bu, ipoteka imkanlarının həqiqətən ehtiyacı olanlara çatmasını təmin edə bilər.

Onu da qeyd edək ki, son illərdə daşınmaz əmlak bazarında qiymətlərin sürətlə artması da ciddi problemdir. Bu ilin yalnız birinci rübündə mənzil qiymətləri ötən ilin eyni dövrü ilə müqayisədə 14% artıb. Bu artım xüsusilə paytaxt və ətraf ərazilərdə daha nəzərəçarpandır. Nəticədə, ipoteka kreditlərinə ehtiyac daha da artır.

Digər bir məsələ isə, özəl kommersiya banklarının verdiyi ipoteka kreditlərinin əlçatanlığıdır. Son dövrlərdə bu kreditlər üzrə faizlər 11-12%-ə yüksəlib və bu da adi güzəştli ipoteka ilə müqayisədə daha bahalı prosesə çevrilib. İnsanlar mümkün qədər kommersiya banklarının ipotekasından qaçmağa çalışırlar.

Eyni zamanda, kommersiya bankları korporativ müştərilərinə kredit vermə prosesini davam etdirsə də, ayrılan limitlərin əksər hissəsi həmin anda silinir. Yəni bu limitlərin çox az hissəsi real vətəndaşların istifadəsinə təqdim olunur.

Bütün sadalanan faktorlar fonunda demək olar ki, Azərbaycanda ipoteka kreditlərinə çıxış imkanları ciddi və məqsədli şəkildə məhdudlaşdırılıb. Bu zaman nəzərə almaq lazımdır ki, ölkəmizdə adam başına düşən yaşayış sahəsinə görə göstəricilər hətta keçmiş SSRİ və Qafqaz ölkələri ilə müqayisədə olduqca aşağıdır. Eyni zamanda, milli dəyərlər baxımından mənzil sahibi olmaq arzusu da daha güclüdür.

Yekun olaraq qeyd etmək olar ki, bu faktlar və çağırışlar fonunda ipoteka kreditlərinə ayrılan vəsaitlərin həcmi olduqca azdır. Nəticədə, bazarda müxtəlif qeyri-qanuni təşəbbüslər, sui-istifadə və korrupsiya hallarının ortaya çıxması riski artır. Bu isə, dövlətin və müvafiq qurumların qarşısında ciddi və təcili həll tələb edən çağırışlar yaradır.”

### Nəticə: Sistem kim üçün işləyir?

Rəsmi olaraq şəffaf və elektron təqdim edilən ipoteka sistemi əslində qeyri-rəsmi münasibətlərin, dələduzlarla əlbirliyin və ədalətsizliyin mərkəzinə çevrilib. Limitlərin kimlərə çatdığı, seçimlərin necə “yoxa çıxdığı” və vətəndaşın nəyə görə prosesdən kənarda qaldığı məlum deyil.

Əgər bu pozuntulara qarşı ciddi nəzarət tədbirləri görülməzsə, dövlət tərəfindən yaradılan ipoteka imkanları məqsədindən tamamilə uzaqlaşacaq və sadə vətəndaş üçün mənzil sahib olmaq əlçatmaz bir xəyala çevriləcək.

**E.FƏRMANOĞLU**

## Hesablama Palatasına da kələk gəlmək istədilər, həm də dövlət qurumu tərəfindən...

*Saxta arayış gözdən yayınmadı...*



**Xəbər verdiyimiz kimi, Hesablama Palatası Naxçıvan MR Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tabeliyində olan “Naxçıvan Avtomobil Nəqliyyatı Agentliyi” Publik Hüquqi Şəxsində yoxlamalar aparıb. 2023-2024-cü illəri əhatə edən yoxlamada irili-xırdalı çoxsaylı pozuntular aşkra edilib.**

Və yoxlama zamanı sözügedən qurumun Palatanın sorğusuna cavab olaraq saxta, yəni geri tarixə yazılmış arayış təqdim edildiyi də məlum olub.

Söhbət Agentliyin mühasibatlıq xidmətləri göstərilməsi məqsədilə bağladığı müqavilədən gedir. Hesablama Palatasının hesabatında deyilir ki, Agentliklə müvafiq təchizatçı arasında 28.11.2023-cü il tarixdə “Daxili Audit, maliyyə analizi, mühasibatlıq xidmətlərinin göstərilməsi haqqında” 4 300 manat dəyərində xidməti müqavilə bağlanılıb və bu müqavilənin 31.03.2024-cü il tarixədək qüvvədə qaldığı göstərilib.

Bu müqavilə üzrə Sifarişçi tərəf, yəni Agentlik müqavilənin dəyərini ödəsə də, lakin qarşı tərəfdən Müqavilənin 1 saylı əlavəsində göstərilən xidmətlərin heç birinin icra edilmədiyi müşahidə edilib.

Bu hal Hesablama Palatasının audit qrupunu maraqlandırıb.

Audit qrupu bu vəziyyətlə bağlı yekun aktı tələb edildikdə, Agentlik Palataya sonradan hazırlandığını deməyə əsas verən arayış təqdim edib.

«Belə ki, qeyri-peşəkar hazırlanmış arayışın ikinci səhifəsində monitorinqin bitmə tarixindən 8 ay sonra verilmiş Ali Məclisin Sədrinin sərəncamı xüsusi qeyd kimi göstərilmiş, həmçinin “Nəticə” hissəsində “Milli Mühasibat Uçotu Standartlarına” uyğun maliyyə hesabatlarının tərtib edilməsi tövsiyyə edilmişdir ki, bu standart da 25.12.2018-ci ildən öz qüvvəsini itirmişdir”-deyə Palatanın hesabatında deyilir.

# Səttar Mehbalıyevin 19 illik Həmkarlar İttifaqları Konfederasiyası nə işə yarayır?

*Adı olub, özü olmayan konfederasiya: Həmkarlar İttifaqları belə şəkildə fəaliyyət göstərəcəksə, bu struktura ümumiyyətlə, ehtiyac varmı?*

**Bir vaxtlar insanların rifahına xidmət edən, sosial təminat, istirahət, sanatoriya müalicəsi kimi imkanları əlçatan edən bir sistem vardı - Həmkarlar İttifaqları. Bu təşkilatlar uzun illər boyu yüz minlərlə insanın həyatına az da olsa, rahatlıq gətirə bilirdi. Amma bu gün vəziyyət tam fərqlidir. İllərlə formalaşdırılan sistemin qalıqları indi yalnız kağız üzərində yaşayır, real həyatda isə yox kimidir.**



Həmkarlar İttifaqları dünyada XIX əsrdə - sənaye inqilabının yaratdığı ağır əmək şəraitinə cavab olaraq formalaşmağa başladı. İngiltərədə 1824-cü ildə ilk rəsmi Həmkarlar İttifaqı tanındı. Azərbaycanda isə bu təşəbbüslər XX əsrin əvvəllərində fəhlə hərəkatları ilə başlayıb, 1921-ci ildə Azərbaycan Həmkarlar İttifaqları Şurası ilə rəsmilik qazanıb. SSRİ dövründə bu qurum işçilərin sosial təminatında işçilərə maddi yardımların verilməsində sağlamlıq və istirahətinin təşkili üçün respublikada, həmçinin SSRİ-nin müxtəlif şəhərlərində yerləşən sanatoriyalara pulsuz yollayışların təmin olunmasında, əmək hüquqlarının qorunmasında və s. mühüm rol oynayırdı.

1993-cü ildən etibarən müstəqil Azərbaycanda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK) adı altında fəaliyyətini davam etdirən bu struktur indi tamamilə fərqli, daha doğrusu, passiv və effektsiz bir quruma çevrilib. Bu gün əksər insanlar belə bir təşkilatın varlığından xəbərsizdir.

Əvvəllər qeyd etdiyimiz kimi Həmkarlar İttifaqı işçilərin rifahına real şəkildə dəstək verirdi. İnsanlar maaşlarından artıq heç bir xərc ödəmədən sanatoriyalara göndərilir, istirahət və müalicə imkanlarından yararlanırdılar. Bu həm sosial ədalətin, həm də həmrəyliyin göstəricisi idi. Bu gün isə vəziyyət tam tərsinə dəyişib. İndi eyni xidmətə görə vətəndaş özü cibindən pul ödəməli olur. "Putyovka" adlanan sanatoriya göndərişinin 30 faizini vətəndaş qarşılayır ki, bu da orta hesabla 300-350 manat civarındadır. Bu isə 300-400 manat əmək haqqı alan sıravi işçi üçün kifayət qədər ağır maliyyə yükündür. Ancaq problem təkcə qiymətdə deyil. Bu xidmətə çatmaq üçün vətəndaş gərək uzun-uzadı elektron müraciət prosedurundan keçsin və ya köhnə sovet ənənəsinə uyğun olaraq tanış axtarsın. Əks halda, nəticə eyni olur: "Yer yoxdur".

İşin daha ağrılı və biabırçı tərəfi isə budur ki, bu imkanlardan faydalananların əksəriyyəti müəssisə rəhbərlərinə yaxın şəxslər və ya "dosttanış" prinsipi ilə seçilmiş insanlardır. Redaksiyamıza bu barədə çoxsaylı şikayətlər edilib... Yəni, şəffaflıq anlayışı kağız üzərində var, reallıqda isə yoxdur. Bu artıq adi vətəndaş üçün əlçatmaz bir sistemə çevrilib. Belə təəssürat yaranır ki, bu təşkilat yalnız dar, özü də imkanlı bir çevrənin imtiyazı üçün fəaliyyət göstərir.

Yeri gəlmişkən jurnalistlər arasında sorğu apardıq, indiyədək (son 20-25 ildə) həmkarların xətti ilə sanatoriyalarda olana rast gəlmədik.

Bu sistemin bu qədər korlanmasında isə əsas məsuliyyət birbaşa Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının (AHİK) rəhbərliyinin üzərindədir. 19 ildir bu qurumun başında dayanan, uzun illər deputat olmuş Səttar Möhbalıyev bu sahədə ciddi islahatlar aparmaq əvəzinə, kreslosunu qorumağa və formal idarəçiliyi davam etdirməyə, həmçinin Həmkarlar İttifaqlarını şəxsi idarəçiliyinə çevirməyə üstünlük verərək böyük bir monopoliya yaradıb. Onun rəhbərliyi altında Həmkarlar İttifaqları artıq sadəcə ad olaraq var, funksional olaraq isə iflic vəziyyətindədir. Vətəndaşlar isə bu sistemdən getdikcə daha çox uzaqlaşır.

### e-ahik.az: ümidverici görünən, məyusedici nəticə doğuran sistem...

AHİK-in elektron müraciət platforması olan e-ahik.az nəzəri cəhətdən müasir texnologiyalara uyğun bir addım kimi təqdim olunur. Amma bu platforma da vətəndaş üçün səmərə vermir. Müraciət edən vətəndaşa əvvəlcə "sistem tərəfindən yönləndiriləcəksiniz" kimi avtomatik və qeyri-müəyyən cavablar gəlir. Ardınca uzun gözləmələr və nəhayət, iki aydan sonra, yəni yay qurtaranda cavab gəlir ki, "yer yoxdur".

Sadə bir müqayisə aparaq. AZAL və ya digər kommersiya platformaları sizə hansı xidməti nə zaman alacağınızı dərhal göstərir. Amma e-ahik.az bunu bacarmır. Bəlkə də, istəmir! 10 min müraciət qəbul edilir, 100 nəfərlik yer üçün isə heç bir əvvəlcədən xəbərdarlıq edilmir. İnsanlar gözləyir, ümidlənir, planlarını qurur və sonda sadəcə iki sözdən ibarət cavabla qarşılaşır: "Yer yoxdur."

Bu artıq texniki problem deyil. Bu idarəçiliyin yaratdığı problemdir. Vətəndaşın vaxtı, enerjisi, ümidi boşa gedir. Bu sistem insanlara yardım etmək üçün yox, onları prosesdən bezdirmək üçün qurulmuş kimidir.

### Bəs rəhbərlik nə edir?

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasına uzun illərdir eyni şəxs - Səttar Möhbalıyev rəhbərlik edir. İctimai və dövlət qurumlarının rəhbərləri adətən ya inkişafla, ya da durğunluqla yadda qalır. Təəssüf ki, cəmiyyətin bu qurumla bağlı assosiasiyası ikinci hal - durğunluq və səmərəsizlik üzərində formalaşıb. Səttar Möhbalıyevin rəhbərliyi dövründə AHİK-in fəaliyyətindən razı qalanların sayı o qədər azdır ki, bu narazılıq artıq ictimai düşüncənin bir hissəsinə çevrilib. Çünki real nəticə yoxdur, konkret fayda yoxdur, sadəcə illərlə uzanan "idarəetmə"si var.

Həm struktur, həm də xidmət baxımından təşkilatın fəaliyyəti minimum səviyyədə hiss olunur. Rəsmi tədbirlər, hesabat toplantıları, rəsmi protokollarda iştirak - bunlar var. Amma sadə vətəndaş, işçi, müəllim, həkim və digər təbəqənin insanları bu qurumun real təsirini öz həyatlarında hiss etmir. Əksinə, hər ay maaşından bu qurum üçün müəyyən faizlər tutulan vətəndaş, yalnız sual verir: "Axı mən bu quruma nə üçün pul verirəm?", "Bu pullar hara gedir?", "Niyə heç bir sosial yardımı, istirahət imkanını, sanatoriya xidmətini görmürəm?".

Əgər bu qurumun əsas funksiyası işçilərin əmək, sağlamlıq və rifah hüquqlarını qorumaqdırsa, bu qədər narazılığın izahı nədir? Axı, bu xidmətlər elə rəhbərliyin hesabatlarında ən ön sırada göstərilir. Reallıq isə tam fərqlidir. Şəffaflıq, açıqlıq, vətəndaşın sorğularına cavab yoxdur. Bütün bu susqunluq fonunda cəmiyyətin inamı da tükənir.

Sual açıq qalır: Həmkarlar İttifaqları belə şəkildə fəaliyyət göstərəcəksə, bu struktura, ümumiyyətlə, ehtiyac varmı? Əgər bu təşkilat insanlara nə hüquqi, nə sosial, nə də maddi baxımdan fayda vermirsə, sadəcə maaşlardan faiz kəsməklə fəaliyyət göstərirsə, bu qurum artıq sosial yükə çevrilir. Cəmiyyətin bir hissəsi bu quruma yalnız "passiv strukturlar" siyahısında baxır, digər hissəsi isə onun tamamilə ləğv olunmasının tərəfdarıdır.

Sadə dildə desək: bu qurum camaatın gözündə çoxdan ölüb. Adı var, fəaliyyəti isə yoxdur. Və əgər bu vəziyyət dəyişməyəcəksə, onda ya Səttar Möhbalıyev və onun komandası istefa verməli, yerinə həqiqi iş bacaranlar gəlməlidir, ya da bu sistem kökündən ləğv olunmalıdır.

Cəmiyyət artıq boş vədlər deyil, konkret nəticə istəyir. Həmkarlar İttifaqları ya insanlara xidmət etməlidir, ya da bu kreslolar boşaldılmalıdır...

**Elşad FƏRMANOĞLU**

**P.S. İşçi hüquqlarının qorunmasında həmkarlar təşkilatlarının işçinin deyil, işəgötürən məmurun yanında olması, məhkəmələrdə işçinin- üzvü olduğu şəxsin əleyhinə çıxış etməsi barədə isə növbəti yazımızda bəhs ediləcək... Bir də, bir neçə sanatoriya apardığımız qiyabi monitorinq göstərdi ki, sanatoriyalarda həmkarlara aidiyyəti olmayan kimlər dincəlir... Adlar təqdim olunacaq...**

# ABŞERON RİH-İN MENYUSUNA: Əliağa Vahidin büstünün ətrafı Masazırda zibilxanaya çevrilib

**...Masazır qəsəbəsində yerləşən görkəmli şair Əliağa Vahidin büstünün ətrafı zibilxanaya çevrilib. Əraziyə baxan kimi ilk təəssürat insanı məyus edir - sanki sənətkara ucaldılmış abidənin yanında yox, adi bir məhəllə zibilxanasının qarşısındasan. Yığılmış tullantılar, baxımsızlıq və səliqəsizlik büstün varlığına kölgə salır və görkəmli şairin xatirəsinə hörmətsizlik təsiri bağışlayır. Ərazidən çəkilən görüntülər ictimaiyyət arasında ciddi narazılıq doğurub.**




Gəlin, bu böyük sənətkar haqqında qısa xatırlatma edək: Əliağa Vahid XX əsr Azərbaycan qəzəlinin ən görkəmli nümayəndələrindən biri hesab olunur. O, 1895-ci ildə Bakının qədim İçərişəhərində sadə bir ailədə dünyaya göz açıb. Atası İsmayıl kişi kiçik sənətkarlıqla məşğul olurdu, ailənin maddi durumu zəif idi. Lakin Vahid gənc yaşlarından ədəbiyyata böyük maraq göstərib, klassik qəzəl janrını XX əsrdə yaşadan ən parlaq şairlərdən birinə çevrilib. O, klassik qəzəlin formasını saxlayaraq ona yeni mövzular - dövrün sosial problemləri, insan münasibətləri, məhəbbət və ictimai mövzuları qəzəllərində əks etdirdi . Füzuliyə olan böyük məhəbbəti və davamçılığı səbəbindən çox vaxt onu "XX əsrin Füzulisi" adlandırırdılar. Onun yaradıcılığı həm ədəbi məclislərdə, həm də xalq arasında geniş yayılıb və sevilib.

Əliağa Vahid 30 sentyabr 1965-ci ildə dünyasını dəyişib, xatirəsinə ehtiram əlaməti olaraq Bakının Fəxri Xiyabanında dəfn olunub. Onun yaradıcılığı və şəxsiyyəti xalqımız üçün bu qədər əziz olduğu halda, təəssüf ki, bugünkü mənzərə tam əksini göstərir.

Axı niyə biz öz sənətkarımıza, Azərbaycan poeziyasının böyük nümayəndəsinə belə hörmətsizlik göstəririk? Bu büstün təmiz və səliqəli saxlanılması hər bir vətəndaşın mənəvi borcu olmalıdır. Bəs torpaq satmaqda ad çıxarmış Masazır bələdiyyəsinin sədri hara baxır?

Görün, biz nə edirik - görkəmli sənətkarı yaşatmaq üçün qoyulan büstün ətrafını zibilliyə çeviririk. Bu, təkcə laqeydlik deyil, həm də milli-mənəvi dəyərlərimizə qarşı saygısızlıqdır. Bunu edənlər, əllərindəki tullantını gətirib bura atanlar heç olmasa bir anlıq dayansınlar, utansınlar, gözlərini qaldırıb büstə baxsınlar və xəcalət çəksinlər. Çünki onların atdığı hər bir zibil, sanki sənətkarın xatirəsinə atılmış təhqirdir. Onun ruhu bəlkə də indi oralarda dolaşır, kənardan bu mənzərəni seyr edib içində heyfsilənir...

***

Belə bir vəziyyətin yaranması, xüsusən də aidiyyəti qurumların gözləri qarşısında baş verməsi ikiqat üzücüdür. Onu da qeyd edim ki, Masazır bələdiyyəsi Əliağa Vahidin büstündən cəmi 300 metr aralıda yerləşir. Onlar doğrudanmı bu mənzərəni görmürlər? Yoxsa, görüb də görməməzlikdən gəlirlər? Küçələrin təmizliyi üçün vəsait ayrılır, üstəlik, ən çox da yaşlı qadınlara gündəlik ağır zəhmət hesabına küçələri süpürtdürürlər. Amma görünür, bir nəfər işçini də bura göndərib abidənin ətrafını təmizlətmək onların vecinə deyil.

Bu, sadəcə diqqətsizlik deyil, açıq-aşkar hörmətsizlikdir! Həm sənətkara, həm mədəniyyətimizə, həm də bütün cəmiyyətə. Əliağa Vahid kimi bir dahi şairin-qəzəlxanın xatirəsini belə laqeyd münasibətlə ayaq altına atmaq hər kəs üçün utanc olmalıdır.

Bir sözlə, görkəmli şəxsiyyətimiz Əliağa Vahid o dünyada ola-ola, bu real dünyamızda zibil içində qalıb. Bu mənzərə nəinki bələdiyyənin, həm də bütövlükdə cəmiyyətin üzqarasıdır. Əgər biz öz sənətkarımıza sahib çıxmırıqsa, deməli, dəyərlərimizi də yavaş-yavaş itiririk.

Nə deyim, vallah, söz tapmaq olmur... Bu, sadəcə diqqətsizlik deyil, açıq-aşkar laqeydlikdir. Bu laqeydlik isə təkcə təmizlik məsələsi deyil, həm də bizim mədəniyyətimizə, sənətkarımıza, ədəbiyyat tariximizə olan münasibətimizin göstəricisidir.

Əliağa Vahidin öz qəzəllərində də insanların bir-birinə biganəliyi tez-tez tənqid olunurdu. Şairin aşağıdakı misraları sanki bu günkü mənzərəyə işarə edir:

***«Gör ki, nə gündədir bu cahan, biganədir insan,***
***Fərdi öz işindədir, yadın dərdindən xəbər yox.***
***Dünya dolubdur zalım ilə, yox mərhəmət izləri,***
***Sədaqət deyən tapılmaz, insanda vəfa qalmışmı?»***

Bu misralarla Vahid göstərirdi ki, insanın insana qayğısı azalıb, hər kəs öz dərdini güdür, başqasının dərdinə şərik olmur.

Gəlin öz dəyərlərimizi qoruyaq, onlara hörmət edək. Mən ümid edirəm ki, aidiyyəti qurumlar, xüsusən də Abşeron rayon İcra Hakimiyyətindəki məsul şəxslər bu vəziyyəti görəcək və bu biabırçılığa son qoyulacaq.

**Elşad**

# TƏZADLAR

05 (2393) 16.09.2025 www.tezadlar.az


# Həftəbecər



Müğənni Afət Fərmanqızı xanım müğənnilərin əxlaqsızlığından danışarkən bir sayta belə deyb: "Hər ailə özünün əxlaqına uyğun müğənniyə qulaq asır. Başqasının ərindən bic doğan, ərə getməyib ata evində olan qıza bir qardaş, ata, nə bilim, nəslində bir kişi yoxdurmu çıxıb desin ki, sən bu uşaqları hardan doğdun? Axı, sən ədəb-ərkanla, telli-duvaqlı ərə getmədin..."

***P.S. Həəə... Ağır "tema"dır. Afət xanımdan belə etirafı gözləmirdim. İllərdir mənim yazdığımı təsdiqləyərək, düz "onluğa" vurub. Ay rəhmətliyin nəvəsi, bu bic doğan müğənnilərin nəslində "n" qədər kişi var. Ata, qardaş, əmi oğlu, dayı oğlu, bibi oğlu, xala oğlu, yeznə və s. Amma bu kişilər həmin bic doğan, səhnədə lütlənib oxuyan xanım müğənnin pulundan bəhrələndikləri üçün onunla qürur duyurlar. Necə ki, bu yaxınlarda Röya Ayxanın rəhmətə gedən atası bir vaxt deyirdi ki, qızımla fəxr edirəm. İndi hər şey aydındırmı, Afət xanım! Bic doğan və əxlaqsız xanım müğənninin nəslində olan kişilər yəqin Masallıdan olan şair, iki gözü də görməyən İlham Dadaşovun "Səndən əcəb deputat olar" şerindəki "deputat" sözünü "müğənni" sözünə dəyişərək, bir bəndini belə oxuyurlar:***

*"Ar-namus dəbdə deyil, indi biz Avropalıyıq,*
*Rədd eləyib paltarı, lüt bədənə baxmalıyıq.*
*Məcramızı dəyişib, Qərbə tərəf axmalıyıq,*
*Dur, belə fırlan görüm, səndən əcəb müğənni olar.*
*Arxalı müğənni olan, hər zaman, hər an ucalar".*

İndi Afət xanım, arxalı müğənnilər doğrudan da həm yaxşı gedir, həm də tez ucalır.

***

Məlumatlara görə, müəllimlərin işə qəbulu (MİQ) üzrə imtahanların ödənişli olması nəzərdə tutulub və bu barədə müzakirələr gedir.

**P.S. Sonra da deyirik orta məktəblərdə müxtəlif adlarla şagirdlərdən və ya valideynlər komitəsi tərəfindən niyə pul yığırlar. Bəs bu müəllim yazıq özündən yuxarılara ödədiyi pulu çıxarmalı deyil? Ona görə də orta məktəbdə müəllimlərin açdıqları bazara "bazar olsun"- deməkdən başqa çarəmiz qalmır...**

***

Sayıtların birində belə bir məlumat verilib ki, Qubada polis toyu dağıdıb. Səbəb isə yetkinlik yaşına çatmayan 15 yaşlı qızın 35 yaşlı kişiyə ərə verilməsi olub.

***P.S.Dəhşətdir! Cəlil Məmmədquluzadənin sözü olmasın, bu qədər yazırıq, bu qədər deyirik, yenə də bəzi insanlarımız elə bil ədibin yaşadığı XIX əsr dövründəki ağıldadırlar. Mövhumatdan hələ də qurtara bilmirik. XXI əsrdə də bu qədər şüursuzluq olar? Tutaq ki, 15 yaşlı qız qanmır, bəs onun yekə-yekə valideynləri niyə belə addım atırlar? Bəs 35 yaşlı yekə kişi niyə bu vicdansızlıqdan utanmır? Bunun adı şərəfsizlikdir. Daha bundan yumşaq söz tapa bilmədim...***

***

Verilən informasiyaya görə, Kazaxıstan Prezidenti Kasım Cömərd Tokayev Azərbaycan və Türkiyədən keçərək, Avropaya ötürülməsi nəzərdə tutulan qaz borusunun ağzının Çinə döndərilməsi haqqında müqavilə imzalayıb. Bunu isə Türkdilli Dövlətlər Təşkilatına (TDT) və Turan Birliyinə arxadan vurulan zərbə hesab edirlər.

***P.S. Görünür, Cömərd Tokayev TDT-yə namərdlik edərək pulu öz soykökünə qayıdıb böyük birlik yaratmaqdan üstün tutub. Çünki Çin qaza görə daha çox pul təklif etdiyindən bunun başqa adı yoxdur.***



Xalq artisti 54 yaşlı Aygün Kazımova sosial şəbəkədə paylaşdığı qısa şifon ətəyi və çimərlik geyiminə oxşayan ultra qısa "top"u guya kişilərin gözünü qamaşdırıb.

***P.S. 54 yaşlı xanıma baxmaqla gözləri qamaşan kişiləri çay aşağı axıdım, çay yuxarı axtarım.***

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 14-də Hadrutda olarkən yerli sakin Zahid Mustafayevin evində də qonaq olub.

***P.S. Deyirəm, Prezident İlham Əliyev ermənilər daha müharibə, top, tank və dronla yox, öz davranışları ilə də məhv edir. Məsələn, bir də görürsən Prezident Şuşadadır. Bir müddət sonra sorağı Xankəndidən, Kəlbəcərdən, Laçından, Füzulidən, Ağdamdan və sair işğaldan azad olunmuş rayonlardan gəlir. Hər dəfə də ermənilər Prezidenti bu rayonlarda görən kimi, canlarına vicvicə düşür, onları qaşınma tutur ki, "ara, daha Qarabağ merala", yəni, Qarabağ ermənilər üçün öldü. Amma bizim üçün Qarabağ yeni inkişaf dövrünü yaşayır. Bu səbəbdən də ermənilər bir çox mahnılarımızı oğurladıqları kimi, yəqin bu mahnımızı da oğurlayıb, oxumağa başlayacaqlar:***

**"Keçən günlərimi qaytaraydılar,**
**Gələn günlərimi qurban verərdim."**

***



Aktrisa sayılan, lakin aktrisalıqdan heç xəbəri olmayan, əvəzində soyunub lüt-ətcəbala şəkillər, videolar paylaşan Pərvin Abıyeva ailəsini çox sevdiyindən danışarkən "Günə uğurla" verilişində belə deyib: "Ailə mövzusu mənim üçün çox həssasdır. Ailəmə görə hər şey edərəm. Özümə nə istəyirsiniz deyin. Amma onlara yox... Mən hər iki valideynimi çox sevirəm".

***P.S. Ay sənin məzən olsun, Pərvin xanım! Rəhmətliyin nəvəsi, sənin ata-ananla kimin nə işi ola bilər ki? Onlara hər cürə söyüş, qarğış yazdıran, dedizdirən sən özünsən dəəə... Əgər sən əyninə normal paltar geyinmirsənsə, hər yerin çöldə qalan şəkillər çəkdirib, paylaşırsansa, abır-həyanın, valideynlərə hörmətin nə olduğunu bilmirsənsə, onda təbii ki, bu millət səni əkənə, doğana və tərbiyə verənə "çox sağ ol" deməyəcək. Hər iki valideynini çox sevən insan abır-həyanı gözləyər və bütün bədən əzalarını ortaya qoymaz.***



Üçü birində, bəstəkar, müğəni, şairə və hər üçündən də ala-yarımçıq olan Elza Seyidcahan yenə əndrabadi geyimi ilə müzakirələrə və gülüşlərə səbəb olub. Bu dəfə enli və üstü diametri 100 mm-lik boruya bənzəyən şlyapa, ona da fata bağlamaqla gündəmə gəlib.

***P.S. Mən dəfələrlə demişəm, belə xəstəyə gülməzlər. Bu xanım həqiqətən də xəstədir. Amma heç kim onun müalicə olunmasını təşkil eləmək istəmir. Ağlı başında olan insan da başına belə əcaib şlyapa qoyar? Mən ölüm gəlin, "atışağın" və 5-10 min manat toplayıb, bu yazığı müalicəyə aparağın. Vallah, adamın yazığı gəlir. Gah yazdığı gic-gici mənasız şeirlərinə gülürlər, gah da əndrabadi geyimlərinə. Amma heç kim bu yazığın müalicə olunması barədə düşünmür. Allah şəfa versin, yazıqdır...***


ELÇİN
elcinmemmedli
58@gmail.com





**Baş redaktor:**
**Asif Mərzili**

*Redaksiya heyəti:*
Bəxtiyar Vahabzadə
(www.Vahabzade.net)
Məmməd Araz
Nurəddin Rza
İlham Rəhimov
Yaşar Əliyev
Yusif Səmədov
Adil Minbaşı

Qəzet "Təzadlar"ın kompüter mərkəzində yığılıb səhifələnib.
Ünvan: Bakı, Mətbuat prospekti, 529-u məhəllə
Tel: 510-17-74
E-mail: tezadlar@gmail.com
www.tezadlar.az
TƏSİSÇİ: Redaksiyanın jurnalist kollektivi.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Yazılardakı faktlara cavabdeh müəlliflərdir. Əlyazmalar geri qaytarılmır.

Lisenziya: № B 216

"Təzadlar" qəzetinin hesab nömrəsi:
AZ80AIIB38070019441100467111
VÖEN: 1300456291

Bankın adı:
"Kapital Bank" ASC-nin 1 saylı Nəsimi rayon filialı
Kod: 200112
VÖEN: 9900003611
Müxbir hesabı:
AZ37NABZ01350100000000001944
SWİFT BİK: AIIBAZ2X
Tiraj: 2018
Çapa imzalanmışdır:
15.09.2025